RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 45 (10065) 11 mart 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev ilə həmkarları arasında telefon danışığı olub



Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və mövqeyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

❖ ❖ ❖



Martın 8-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezident Məsud Pezeşkian dövlətimizin başçısının İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verməsinə, həmçinin İrana humanitar yardımla bağlı niyyətinə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian Naxçıvanın havadan atəşə tutulması ilə bağlı insidentin İranla əlaqəsi olmadığını deyərək, hadisənin araşdırılacağını vurğulayıb.

Prezident İlham Əliyev İranda baş vermiş son hadisələrdə çox sayda mülki şəxslərin həlak olması ilə bağlı bir daha başsağlığını çatdırıb.

Dövlətimizin başçısı Naxçıvanda baş vermiş hadisənin araşdırılmasının vacibliyini vurğulayıb.

Telefon söhbəti əsnasında dövlət başçıları müştərək iqtisadi layihələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖



Fransa Respublikasının Prezidenti Emmanuel Makron martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Fransa Prezidenti İranın Azərbaycana hava hücumu ilə əlaqədar ölkəsinin Azərbaycanla həmrəyliyini və dəstəyini ifadə edib.

Emmanuel Makron həmçinin İrandakı Fransa vətəndaşlarının Azərbaycan vasitəsilə təxliyəsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş olunan həmrəyliyə görə təşəkkür edib.

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda sülhün möhkəmləndirilməsi və Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin yenidən canlandırılması ilə bağlı fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

❖ ❖ ❖



Martın 7-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Bayram Beqay İranın pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qınadığını bildirib.

Prezident İlham Əliyev telefon zənginə, Albaniyanın açıq və qətiyyətli mövqeyinə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı məmnunluqla vurğulanıb, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və təmasların əlaqələrimizin inkişafına verdiyi töhfəyə toxunulub.

Tərəflər ikitərəfli gündəlikdə yer alan məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***



## Güclü siyasi iradənin və qətiyyətin təzahürü

### Prezident İlham Əliyevin prinsipial mövqeyi dövlətimizin beynəlxalq imicini yüksəldən əsas faktorlardan biridir

Prezident İlham Əliyevin siyasətində ən bariz xüsusiyyətlərdən biri təzyiqlər qarşısında nümayiş etdirdiyi sarsılmaz iradə, əzm və qətiyyətdir. Dövlətimizin başçısının kifayət qədər kritik məqamlarda sərgilədiyi prinsipial mövqe dövlətimizin milli maraqlarının kompromis predmeti olmadığını göstərir. Bu, xüsusilə Vətən müharibəsi dövründə və ondan sonrakı geosiyasi gərginliklər zamanı özünü aydın şəkildə büruzə verdi. Xarici diplomatik təzyiqlərə rəğmən dövlətimizin başçısı "nəyi necə və nə vaxt etmək lazım olduğunu" bildiyini sözdə və əməldə dəfələrlə sübuta yetirdi. Ən böyük xarici təzyiqlər belə dövlət başçısını vaxtından əvvəl və ya hazırlıqsız addım atmağa sövq edə bilmədi. İstər Zəngəzur dəhlizi (TRIPP) məsələsində, istərsə də sərhədlərin delimitasiyası prosesində dövlət başçısının birmənalı mövqeyi göstərdi ki, Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyi hansısa siyasi və ya iqtisadi vədlə dəyişdirilə bilməz.

Sarsılmaz iradə həm də xalqdan alınan gücə söykənir. Vətən müharibəsi zamanı cənab Prezidentin xalqa müraciətləri və xarici mediaya verdiyi çoxsaylı müsahibələr bir növ informasiya cəbhəsinin hücum diplomatiyası oldu. Bu qətiyyət cəmiyyətdə daxili inamı artırdı və insanlarda dövlətin arxasında dayanan güclü bir iradənin olduğu əminliyini yaratdı. Azərbaycan liderinin prinsipial mövqeyi dövlətin beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınması üçün də vacib amildir. Zamanı yetişəndə sərt yanaşma sərgiləmək Azərbaycanın xarici siyasətdə hadisələrə, sadəcə, reaksiya verən tərəf yox, həmçinin prosesin axınını dəyişən bir aktor olduğunu göstərir. Hər kəs birmənalı anlayır ki, Azərbaycanla şantaj və ya hədə-qorxu dilində danışmaq mümkün deyil. Bu yanaşma ölkənin suverenliyinin ən böyük təminatlarından biridir. Qətiyyətli mövqe təkcə xarici siyasət üçün deyil, həm də daxili sabitlik üçün mühümdür. Liderin prinsipiallığı dövlət-xalq vəhdətini möhkəmləndirən, milli həmrəyliyi təmin edən əsas sütundur. Bu strategiyanın praktiki təzahürü kimi Azərbaycan Prezidenti İlham Əliyevin son hadisələrlə bağlı verdiyi cəsarətli və qətiyyətli bəyanatlar ölkəmizin milli mənafelərinin müdafiəsində hər hansı geri çəkilmənin olmadığını bariz şəkildə ortaya qoydu.

5

## Azərbaycan ilə İran arasında münasibətlər xalqlarımızın iradəsindən qaynaqlanır

### İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Müctəba Hüseyni Xamenei həzrətlərinə

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Atanız - İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xamenei həzrətlərinin faciəvi vəfatı ilə əlaqədar Sizə bir daha başsağlığımı ifadə edirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlər tarixən mehriban qonşuluq və dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlətlərarası əlaqələrimizin xalqlarımızın mənafelərinə uyğun olaraq qarşılıqlı hörmət və etimad məcrasında inkişafı naminə birgə səylər göstərəcəyimizə ümidvar olduğumu bildirirəm.

Bu yüksək təyinatla bağlı Sizə bir daha təbriklərimi çatdırır, dost və qardaş İran xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2026-cı il*

## Macarıstan hər zaman Azərbaycanın yanındadır



Martın 7-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Viktor Orban İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı həyata keçirdiyi hücumu qınadığını vurğulayıb, ölkəmizlə tam həmrəy olduğunu bildirib. Macarıstanın hər zaman Azərbaycanın yanında olduğunu deyən Viktor Orban qeyd edib ki, ölkəmiz Macarıstana güvənə bilər, Macarıstan Azərbaycana hər bir dəstək göstərməyə hazırdır.

Dövlətimizin başçısı telefon zənginə, nümayiş olunan dəstəyə və həmrəylik mövqeyinə görə minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Prezidentinin tapşırığı ilə İrana humanitar yardım yola salınıb

Azərbaycan Respublikasının Prezidentinin tapşırığına uyğun olaraq İran İslam Respublikasına humanitar yardım göndərilib. Yardım Fövqəladə Hallar Nazirliyinin avtomobilləri vasitəsilə yola salınıb. Humanitar yardımın tərkibinə 30 tona yaxın qida məhsulları daxildir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Ehtiyatlara Nəzarət Departamentindən məlumat verilib. Göndərilən yardıma 10 ton un,



6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxildir.

Qeyd olunub ki, humanitar yardım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında martın 8-də baş tutmuş telefon danışığından sonra qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək məqsədilə təşkil olunub.

Humanitar yardım karvanını Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının məsul vəzifəli şəxsləri, Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq İnkişafa Yardım Agentliyinin əməkdaşları İranın Astara şəhərinədək müşayiət edirlər.

## İlham Əliyevin sülh strategiyası real nəticələr verir

Martın 5-də 31 vaqonda 1984 ton dizel yanacağı "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Sonuncu dəfə fevralın 25-də Azərbaycandan Ermənistana 4500 ton dizel yanacağı daşıyan 39 çən vaqonu göndərilib. Bundan əvvəl isə yanvarın 11-də 979 ton "Aİ-92" markalı avtomobil benzini yüklənmiş 18 vaqon Ermənistana çatdırılıb. Yanvarın 9-da isə ümumilikdə 2698 ton neft məhsulu tədarük edilib. Həmin yüklərə 1742



ton "Aİ-95" markalı benzin və 956 ton dizel yanacağı daxil olub.

6

## Azərbaycan sabitlik və əməkdaşlıq mühitinin güclənməsində maraqlıdır

Cənubi Qafqazın sülh, əməkdaşlıq və iqtisadi inkişaf məkanına çevrilməsi istiqamətində atılan bu kimi diplomatik addımlar bölgənin uzunmüddətli sabitliyinə, rifahına və təhlükəsiz gələcəyinə fundamental töhfə verir. Bakıdan Naxçıvana uçuşların bərpa olunması da aparılan yüksəksəviyyəli danışıqların və qarşılıqlı anlaşmanın bariz nəticəsi kimi qiymətləndirilə bilər. Bu addım bir daha göstərir ki, tərəflər yaranmış vəziyyətin qısa müddətdə aradan qaldırılması, regionda sabitliyin və normal nəqliyyat-kommunikasiya əlaqələri-




nin bərpası istiqamətində konstruktiv mövqe nümayiş etdirir.

5

# Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddələr 11-12 (Cild I) aşağıdakı dəyişikliklər təsdiq edilsin:

1. Preambula üzrə:

1.1. birinci və ikinci abzaslar ləğv edilsin;

1.2. üçüncü və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" 1991-ci il 30 avqust tarixli Bəyannamədə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktında təsbit edilmiş prinsiplər və Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində - referendumda qəbul edilən Konstitusiyası təşkil edir.".

2. 1-ci maddənin II hissəsindən ", 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri" sözləri çıxarılsın.

3. Aşağıdakı məzmunda 3-1-ci maddə əlavə edilsin:

**"Maddə 3-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi**

I. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirən icra orqanıdır.

II. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi rəhbərlik edir.

III. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.".

4. 5-ci maddə ləğv edilsin.

5. 10-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə10. Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri**

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.".

6. 13-cü maddənin mətni I hissə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

"II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.".

7. 14-cü maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Müharibə şəraitində hərbi əməliyyatların aparılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən qəbul edilir.".

8. 18-ci maddə üzrə:

8.1. I hissə üzrə:

8.1.1. birinci abzasda "sessiyaya" sözü "yaz və payız sessiyalarına" sözləri ilə əvəz edilsin;

8.1.2. ikinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdən sonra martın 10-dək onun 31 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasının keçirilmə vaxtını Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi müəyyən edir.";

8.2. II hissə aşağıdakı redaksiyada verilsin:

"II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyalarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında çağırır.";

8.3. IV hissənin ikinci cümləsində "Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin" sözləri "Azərbaycan Respublikası Prezidentinin, yaxud Azərbaycan Respublikası Milli Məclisinin" sözləri ilə əvəz edilsin.

9. 24-cü maddə üzrə:

9.1. I hissə üzrə:

9.1.1. 3-cü bənd ləğv edilsin;

9.1.2. 9-cu bəndə "mədəniyyət" sözündən sonra ", habelə Naxçıvan Muxtar Respublikasının fəxri adları" sözləri əlavə edilsin;

9.2. II hissə aşağıdakı redaksiyada verilsin:

"II. Bu maddənin I hissəsinin 1-ci və 2-ci bəndlərində göstərilən məsələlərə dair qanunlar 31 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul edilir.".

10. 25-ci maddənin I hissəsi üzrə:

10.1. aşağıdakı məzmunda 1-1-ci və 6-1-ci bəndlər əlavə edilsin:

"1-1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə buraxılması;";

"6-1) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Prezidentinin razılığı ilə istefası;";

10.2. 7-ci bənd ləğv edilsin;

10.3. 8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8) Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən dövlət orqanının üzvlərinin təyin edilməsi;";

10.4. aşağıdakı məzmunda 8-1-ci bənd əlavə edilsin:

"8-1) Naxçıvan Muxtar Respublikası məhkəmələrinin hakimləri sırasından Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqanın üzvlüyünə namizəd təklif edilməsi;";

10.5. 9-cu bənd ləğv edilsin.

11. Aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

**"Maddə 28-1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən və ya bu Konstitusiyanın 24-cü və 25-ci maddələrində, 26-cı maddəsinin II-V hissələrində və 27-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılır.

II. Növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.".

12. 29-cu maddənin II hissəsi aşağıdakı redaksiyada verilsin:

"II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ali təhsilli hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər.".

13. 32-ci maddənin I hissəsi üzrə:

13.1. aşağıdakı məzmunda 1-1-ci, 2-1-ci, 2-2-ci və 4-1-4-3-cü bəndlər əlavə edilsin:

"1-1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;";

"2-1) Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai siyasi həyatının mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;

2-2) Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;";

"4-1) Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

4-2) Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında qulluq (xidmət) keçən şəxslərə ixtisas dərəcələrinin və ali xüsusi rütbələrin verilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

4-3) Naxçıvan Muxtar Respublikasının dövlət təltifləri ilə təltif edir, Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilmə haqqında Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;";

13.2. 5-ci bənd ləğv edilsin;

13.3. 6-cı bənddə "qərar" sözü "sərəncam" sözü ilə əvəz edilsin.

14. 33-cü maddədə "qərarlar" sözü "sərəncamlar" sözü ilə əvəz edilsin.

15. 34-cü maddə üzrə:

15.1. III hissədə "tabedir və onun qarşısında müntəzəm" sözləri "özünün fəaliyyəti barədə" sözləri ilə əvəz edilsin;

15.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

"IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirir.".

16. 39-cu maddənin I hissəsi üzrə:

16.1. altıncı və yeddinci abzaslar müvafiq olaraq yeddinci və səkkizinci abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"muxtar respublikanın dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin razılığı ilə mərkəzi icra hakimiyyəti orqanlarını yaradır və ləğv edir;";

16.2. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"bu Konstitusiyaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini həyata keçirməsindən irəli gələn məsələləri, həmçinin Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.".

17. 44-cü maddə üzrə:

17.1. II hissə üzrə:

17.1.1. birinci abzasın ikinci cümləsindən ", Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin" və ", Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin" sözləri çıxarılsın;

17.1.2. 1-ci bənddən "Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının," sözləri çıxarılsın və həmin bənddə ikinci halda "qərarlarının" sözü "sərəncamlarının" sözü ilə əvəz edilsin;

17.1.3. 2-ci bənddən "Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının," sözləri çıxarılsın, həmin bənddə ikinci halda "qərarlarının" sözü "sərəncamlarının" sözü ilə, ikinci halda "sərəncamlarının," sözü "qərarlarının və" sözləri ilə əvəz edilsin və həmin bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

17.1.4. 3-cü bənd ləğv edilsin;

17.2. III hissədə "1-3-cü" sözləri "1-ci və 2-ci" sözləri ilə əvəz edilsin;

17.3. VI hissədən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və" sözləri çıxarılsın.

18. 45-ci maddənin II hissəsindən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi ilə" sözləri çıxarılsın.

19. 46-cı maddə üzrə:

19.1. III hissədən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi əsasında" sözləri çıxarılsın və həmin hissəyə "təyin" sözündən sonra "və vəzifədən azad" sözləri əlavə edilsin;

19.2. IV hissədən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və" sözləri çıxarılsın və həmin hissəyə "təyin və" sözlərindən sonra "vəzifədən" sözü əlavə edilsin.

20. 48-ci maddənin III hissəsi üzrə:

20.1. 3-cü bənd ləğv edilsin;

20.2. 5-ci bəndə "normativ" sözündən sonra "hüquqi" sözü əlavə edilsin.

21. 49-cu maddə üzrə:

21.1. II hissədə "icra hakimiyyəti" sözləri "qanunvericilik, icra" sözləri ilə əvəz edilsin;

21.2. III hissə ləğv edilsin;

21.3. IV hissənin birinci cümləsində "fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarına" sözləri "fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına" sözləri ilə əvəz edilsin;

21.4. V hissəyə hər iki halda "orqanlarının" sözündən sonra "normativ hüquqi" sözləri əlavə edilsin və həmin hissədə "fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına," sözləri "fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və" sözləri ilə əvəz edilsin.

22. 50-ci maddə üzrə:

22.1. II hissədə "təklif" sözü "qanun" sözü ilə əvəz edilsin;

22.2. III hissədə "Konstitusiya qanunları" sözləri "qanunlar" sözü ilə əvəz edilsin və həmin hissədən "təklif, qanunlar üçün nəzərdə tutulmuş qaydada," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2026-cı il*

# "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, №2, maddə 69 (Cild I); 2024, № 10, maddə 1109) 2.10-cu maddəsindən "III," rəqəmi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli, 30 dekabr tarixli 332-VIIQD nömrəli və 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43-cü maddənin 2-ci hissəsinin "ğ" bəndi ləğv edilsin;

1.2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 1-ci əlavə - "Əmək müqaviləsinin (kontraktının) nümunəvi forması"nın 1.1-ci bəndindən "və (sosial sığorta nömrəsi (SSN-i), əmək müqaviləsi elektron sənəd formasında bağlanılan işçilər, bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda ilk dəfə əmək fəaliyyətinə başlayan işçilər, "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla)" sözləri çıxarılsın.

**Maddə 2.** "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 738 (Cild I); 2024, № 8, maddə 934) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddə üzrə:

2.1.1. 1.1.2-ci maddədə "sosial sığorta nömrəsi" sözləri "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə və həmin maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

2.1.2. 1.1.3-cü maddə ləğv edilsin;

2.2. 4.2-ci maddədən ", sosial sığorta nömrəsinin öyrənilməsi" sözləri çıxarılsın;

2.3. 5.2.1-ci maddə ləğv edilsin.

**Maddə 3**. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208 (Cild I); 2024, № 2, maddə 137, № 5 (I kitab), maddələr 489, 491, № 6 (I kitab), maddə 644; 2025, № 1, maddə 16, № 2, maddələr 96, 105, № 4 (I kitab), maddə 322, № 6, maddə 528; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) 1.0.7-ci maddəsində "sosial sığorta nömrəsi" sözləri "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Bu Qanun 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 567 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 582 (Cild I) ilə təsdiq edilmiş "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsi"nin 1.1-ci bəndindən ", ilk dəfə əmək fəaliyyətinə başlayanlar və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla, sosial sığorta nömrəsi (SSN)" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 226 (Cild I); 2024, № 8, maddə 943; 2025, № 4 (I kitab), maddə 325) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"na 2 nömrəli əlavə - "Kadrlar uçotunun şəxsi vərəqəsi"ndən "Sosial sığorta nömrəniz (SSN)______" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 842 (Cild I); 2025, № 4 (I kitab), maddə 345) ilə təsdiq edilmiş "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin 1.1-ci bəndindən ",ilk dəfə əmək fəaliyyətinə başlayanlar və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla, sosial sığorta nömrəsi (SSN)" sözləri çıxarılsın.

4. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2026-cı il*

# Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743, № 11, maddə 1011; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD və 30 dekabr tarixli 332-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 24-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçirilir. Bu halda cərimə ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilir. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir və bu halda "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunur.".

2. 26-cı maddəyə "onun" sözündən sonra "əməkhaqqı və ya başqa qazancı," sözləri əlavə edilsin, həmin maddədən "və digər qazancı" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# Aleksandr Stubb ölkəmizə dəstəyini ifadə edib



Martın 10-da Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Aleksandr Stubb İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumu ilə əlaqədar ölkəmizə dəstəyini ifadə edib.

Azərbaycan Prezidenti telefon zənginə və göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandr Stubbun görüşləri və həmin görüşlər zamanı ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Azərbaycan və Finlandiya prezidentləri əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Prezidenti Liviya Dövləti Prezident Şurasının Sədrinə həmrəyliyinə görə təşəkkür edib



Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Məhəmməd Yunis Əl-Mənfi İranın Azərbaycana qarşı həyata keçirdiyi hava hücumunu qınayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş olunan həmrəyliyə görə təşəkkür edib.

Telefon söhbəti zamanı Azərbaycanla Liviya arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Əhməd Əl Şaraa Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlığını bildirib



Martın 10-da Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlıq ifadə olunub, region dövlətlərinin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərə biləcək addımların qarşısının alınmasının zəruriliyi bildirilib.

Telefon danışığı əsnasında, eyni zamanda Azərbaycan-Suriya ikitərəfli əlaqələrinə toxunulub, münasibətlərin möhkəmləndirilməsində, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib. Təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Abiy Əhməd Əli İlham Əliyevə zəng edib



Efiopiyanın Baş naziri Abiy Əhməd Əli martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Abiy Əhməd Əli İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hava hücumunu qınadığını vurğulayıb.

Dövlətimizin başçısı telefon zənginə və göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Telefon söhbəti əsnasında Efiopiyanın Baş nazirinin bir müddət əvvəl ölkəmizə rəsmi səfəri məmnunluqla xatırlanıb, səfər zamanı aparılmış müzakirələrin və imzalanmış sənədlərin ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verəcəyinə əminlik bildirilib.

***Prezidentin Mətbuat Xidməti***

# Prezident İlham Əliyev prinsipial mövqeyinə və həmrəyliyə görə Slovakiya Prezidentinə minnətdarlığını bildirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra prinsipial mövqeyinə və həmrəyliyə görə Slovakiya Prezidenti Peter Pelleqriniyə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Slovakiya Respublikasının Prezidenti Peter Pelleqriniyə İran İslam Respublikasının Naxçıvanda mülki infrastruktura qarşı həyata keçirdiyi son PUA hücumlarından sonra nümayiş etdirdiyi prinsipial mövqeyə və həmrəyliyə görə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycanın Slovakiya diplomatik heyətinin Tehrandan təxliyəsi ilə bağlı dərhal göstərdiyi dəstək ölkələrimiz arasında yüksəksəviyyəli və strateji münasibətlərin aydın təzahürü, həmçinin beynəlxalq əməkdaşlığa sadiqliyimizin ifadəsidir".

# Prezident İlham Əliyev dəstəyə görə Qazaxıstan Prezidentinə təşəkkür edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra dəstəyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Prezident Kasım-Jomart Tokayevə İran dövlətinin Naxçıvana qarşı hücumlarını qətiyyətlə pislədiyinə və Azərbaycan ilə Qazaxıstan arasında mövcud olan qardaşlıq və müttəfiqlik münasibətləri ruhunda ölkəmizə göstərdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm".

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının iclası keçirilib



**Martın 10-da Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində holdinqin idarəetməsində olan Portfel Şirkətlərin 2025-ci ilin yekunları üzrə Fəaliyyət Hesabatı, əsas fəaliyyət göstəriciləri və maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-nin inkişaf perspektivlərinə ümumi baxış, dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı qəbul edilmiş yeni normativ-hüquqi aktların AİH-nin portfel şirkətlərinə tətbiqi barədə və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanovun geniş təqdimatı dinlənilib. AİH-in Müşahidə Şurasının üzvləri, AİH-in İdarə Heyətinin sədri və iclasa dəvət olunan Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov iclasda təqdim olunan məsələlərə dair çıxış ediblər.

İclasın yekununda AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

## "Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi təhlükəsi ilə əlaqədar həyata keçiriləcək profilaktika və təhlükəsizlik tədbirləri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 67** **Bakı şəhəri, 6 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi ilə əlaqədar yarana biləcək təhlükənin qarşısının alınması məqsədilə əhalinin mühafizəsi, habelə profilaktika və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 oktyabr tarixli 744 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi təhlükəsi ilə əlaqədar həyata keçiriləcək profilaktika və təhlükəsizlik tədbirləri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə növləri"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 69** **Bakı şəhəri, 6 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının 2.3-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə növləri" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 68** **Bakı şəhəri, 6 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild l); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasına "Fasiləsiz iş şəraitində işləyən müəssisələrin avtomobilləri," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin nəqliyyat vasitələri," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 70** **Bakı şəhəri, 6 mart 2026-cı il**

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-cı il 30 dekabr tarixli 572 nömrəli Fərmanının 4.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428;2025, № 9, maddə 879, № 10, maddələr 972, 996) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinə aşağıdakı məzmunda 39-1-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 39-1. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi | 4 | 4 | - | - |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Gəncə şəhərinin 2040-cı llədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 71** **Bakı şəhəri, 6 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalmavə Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Gəncə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Kolumbiyanın ölkəmizdəki yeni səfiri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib

**Martın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kolumbiyanın ölkəmizdəki yeni səfiri Nelsi Rakel Munar Xaramiyonla görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. C.Bayramov səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında siyasi dialoqun genişləndirilməsi, iqtisadiyyat, ticarət, turizm, təhsil və mədəniyyət, minasızlaşdırma fəaliyyəti və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar. Bu və digər istiqamətlərdə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrə hazırlıq işləri barədə məlumat verilib.

Hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı digər çoxtərəfli platformalarda sülh, təhlükəsizlik, davamlı inkişaf sahələrində bir-birini dəstəklədiyi məmnunluqla bildirilib. Münasibətlərdə Parlamentlərarası ölçünün əhəmiyyəti qeyd olunub, dostluq qrupları arasında qarşılıqlı təmasların və səfərlərin faydalı olduğu diqqətə çatdırılıb.

Tərəflər Yaxın Şərqdə müharibə fonunda mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Kolumbiya səfiri ölkəsinin Xarici İşlər Nazirliyinin eskalasiya ilə bağlı açıqlama verdiyini, deeskalasiyanın əhəmiyyətli olduğunu bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, eləcə də regional və beynəlxalq məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycan-Oman münasibətlərinin inkişafı diqqət mərkəzində olub

**Martın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Oman Sultanlığının ölkəmizə təyin edilmiş qeyri-rezident səfiri Seyf bin Raşid Əl-Cahvarini qəbul edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı tərəflər Azərbaycan-Oman münasibətlərinin cari vəziyyətini və əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

İki ölkə arasında siyasi dialoq, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, həmçinin mədəni və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı həmçinin regional və beynəlxalq məsələlər, o cümlədən Yaxın Şərqdəki artan gərginlik və hərbi eskalasiya barədə fikir mübadiləsi aparılıb. Oman vətəndaşlarının Azərbaycan ərazisindən istifadə etməklə təxliyəsini, Azərbaycan vətəndaşlarının isə Oman ərazisindən istifadə etməklə təxliyəsinə yaradılmış şəraitə görə qarşılıqlı dəstək ifadə olunub.

Hər iki tərəf münasibətlərin daha da inkişaf etdirilməsi və regional təhlükəsizliyin gücləndirilməsi istiqamətində əməkdaşlığın daha da genişləndirilməsi, yüksək və ali səviyyədə səfərlərin əhəmiyyətini vurğulayıb.

## Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib




**Martın 9-da Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq Milli Məclisin Sədri Sahibə Qafarovaya telefonla zəng edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı regionda baş verən proseslərdən narahatlıq ifadə olunub.

Tərəflər həmçinin Azərbaycan Milli Məclisi və Pakistan Milli Assambleyası arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini nəzərdən keçiriblər. Sülh, sabitlik və əməkdaşlıq baxımından parlamentlər arasında dialoqun əhəmiyyəti qeyd olunub.

*"Azərbaycan"*

## Pakistan hər zaman Azərbaycanın yanındadır




**Pakistan İslam Respublikası Senatının Sədri Seyid Yusuf Rza Gilani Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya telefonla zəng edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı regionda cərəyan edən proseslər müzakirə edilib. Seyid Yusuf Rza Gilani İran İslam Respublikasının Azərbaycana qarşı dron hücumlarından narahatlığını ifadə edib və bu hücumları qınadığını bildirib. O, Pakistan dövlətinin hər zaman Azərbaycanın yanında olduğunu söyləyib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı həmçinin dünyada mövcud gərgin proseslər fonunda parlamentlər arasında əməkdaşlığın daha da dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Regionda baş verən hadisələr barədə fikir mübadiləsi aparılıb

**Martın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova ilə Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova arasında telefon danışığı olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı regionda baş verən hadisələr barədə fikir mübadiləsi aparılıb.

Natalya Koçanova Naxçıvan Muxtar Respublikasına qarşı İran tərəfindən həyata keçirilmiş dron hücumlarından narahatlığını ifadə edib, bu hücum zamanı mülki şəxslərin ziyan görməsindən təəssüfləndiyini bildirib və yaralıların tezliklə sağalmasını diləyib.

Telefon danışığı zamanı iki ölkənin parlamentləri arasında dialoq və qarşılıqlı fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti qeyd olunub, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri sülh və sabitliyin tərəfdarıdırlar

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Federal Milli Şurasının Sədri Saqr Qobaş Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya telefonla zəng edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı regionda cərəyan edən proseslər müzakirə edilib. Spikerlər İran İslam Respublikası tərəfindən hər iki ölkənin ərazisinə və mülki əhalisinə qarşı həyata keçirilən əsassız hücumlarla bağlı ciddi narahatlıqlarını ifadə edərək, bu cür hərəkətləri qətiyyətlə pisləyiblər.

Tərəflər vurğulayıblar ki, həm Azərbaycanın, həm də Birləşmiş Ərəb Əmirliklərinin xalqları sülh və sabitliyin tərəfdarıdırlar və mülki əhaliyə qarşı yönəlmiş belə hücumlar qəbuledilməzdir.

Saqr Qobaş son hadisələr fonunda Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikası, ölkə rəhbərliyi və xalqımızla həmrəy olduğunu vurğulayaraq, dost ölkələrimiz arasındakı əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Spiker Sahibə Qafarova bu mövqeyinə görə ona təşəkkürünü bildirib.

Spikerlər gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyini qeyd edərək, xalqları təmsil edən parlamentlərin dialoq və qarşılıqlı anlaşmanın təşviqində özünəməxsus rol oynadığını bildiriblər.

Telefon danışığı zamanı, həmçinin dövlətlərin suverenliyinə hörmət göstərilməsinin, beynəlxalq hüquq prinsiplərinə və BMT Nizamnaməsinə riayət edilməsinin, habelə regionda təhlükəsizlik və sabitliyin qorunması üçün dost ölkələr arasında əməkdaşlıq və həmrəyliyin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Regional təhlükəsizlik və sabitliyin qorunması baxımından dost ölkələr arasında koordinasiya və məsləhətləşmələrin gücləndirilməsinin önəmi ifadə edilib.

*"Azərbaycan"*

# Humanizm və xeyirxahlıq nümunəsi

**İranda baş verən proseslərdən sonra Azərbaycan bu ölkədə qalan və vətəninə dönməyə çalışan əcnəbi vətəndaşlar üçün ümid yerinə çevrilib. Müxtəlif dövlətlərin vətəndaşlarının təxliyəsi ölkəmizin beynəlxalq humanitar hüquqa olan hörmətini göstərir. Bununla ölkəmiz həm etibarlı tərəfdaş, həm də xilaskar mövqeyini bir daha nümayiş etdirir.**

Azərbaycanın bu mövqeyi qlobal miqyasda böyük maraq və rəğbətlə qarşılanır. Başqa cür desək, Azərbaycanın regional sabitliyə verdiyi töhfə beynəlxalq ictimaiyyət tərəfindən də təqdirəlayiq hal kimi dəyərləndirilir. Təsadüfi deyil ki, fevralın 28-dən etibarən bir çox dövlətin xarici işlər nazirləri ölkəmizin bu istiqamətdəki fəaliyyətini alqışlayıblar. Telefon danışıqları zamanı əcnəbi diplomatlar öz vətəndaşlarının İrandan çıxarılması üçün Azərbaycanın yaratdığı təhlükəsiz tranzit imkanlarına görə dərin minnətdarlıqlarını bildirib, göstərilən operativ köməyini yüksək qiymətləndiriblər.



Azərbaycanın yürütdüyü siyasət qətiyyətli təhlükəsizlik tədbirləri ilə yanaşı, həm də dərin bəşəri dəyərlərə söykənir. Çətin vəziyyətdə qalanlara kömək etmək və onların vətənlərinə sağ-salamat dönməsi üçün keçid imkanı yaratmaq bu ali yanaşmanın bariz nümunəsidir. Bu mənada, İrandan çıxmaq istəyənlər üçün Azərbaycan qurtuluş ünvanına çevrilib. Bu addım həm bəşəri dəyərlərə xidmət edir, həm də Azərbaycanın beynəlxalq arenada mövqelərini möhkəmləndirir.

Azərbaycanın həyata keçirdiyi humanitar fəaliyyət, sadəcə, tranzit imkanlarının yaradılması ilə məhdudlaşmır. Sərhəd-keçid məntəqələrində təşkil olunan operativ xidmətlər, eləcə də müvəqqəti yerləşdirmə imkanları insanların təhlükəsiz şəkildə növbəti istiqamətlərə yola salınmasına şərait yaradır. Bu səbəbdən də bir çox dövlət öz vətəndaşlarının məhz Azərbaycan üzərindən təxliyəsinə ən optimal variant kimi yanaşır.

Ümumiyyətlə, Azərbaycan hər zaman beynəlxalq humanitar təşəbbüslərlə çıxış edir. Müxtəlif regionlarda baş verən təbii fəlakətlər və humanitar böhranlar zamanı ölkəmiz dəfələrlə zərərçəkən dövlətlərə və xalqlara dəstək göstərib. Bu baxımdan, İrandakı proseslər fonunda nümayiş etdirilən mövqe Azərbaycanın bu sahədəki ardıcıl siyasətinin davamıdır.

Bu mövqe həm də dövlətimizin beynəlxalq aləmdə yüksək nüfuzunu təmin edən amillərdən biridir. Çətin geosiyasi şəraitdə humanitar prinsiplərə sadiq qalmaq hər dövlət üçün asan deyil. Lakin Azərbaycan bu istiqamətdə həm qətiyyətli, həm də prinsipial mövqe nümayiş etdirir. Bütün bunlar sübut edir ki, humanizm Azərbaycanın dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# İran böhranı

## Azərbaycanın milli təhlükəsizliyi kontekstində

**İkinci dünya müharibəsindən sonra qərarlaşmış beynəlxalq hüququn prinsiplərinin de-fakto ciddi aşınmalara məruz qalması dövlətlərarası münasibətlərdə uzağa gedən dəyişikliklərlə müşahidə olunmaqdadır. Yeni gərginlik zonalarının, silahlı toqquşmaların, hərbi müdaxilələrin artması qlobal təhlükəsizliyin yüksək təhdid altında olmağından xəbər verir.**



Azərbaycanın sərhədləri yaxınlığında başlayan və getdikcə dərinləşən İran böhranı Yaxın Şərqdə həyatın ritmini bütünlüklə dəyişdirmiş, regional narahatçılığın və təhlükəsizliyin başlıca mənbəyinə çevrilmişdir. Hərbi toqquşmaların məlum hüdudlar çərçivəsindən kənara çıxmasının, qlobal müharibəyə çevrilməsinin qarşısının alınması region ölkələrinin və qlobal güclərin diplomatik səylərinin başlıca hədəfi olaraq qəbul edilir.

### İran böhranına Azərbaycanın baxışı

İran böhranı və İran ətrafında baş verən qanlı hadisələr Azərbaycanı ciddi şəkildə narahat etdiyindən olayların ölkənin həm əhalisi, həm də müvafiq dövlət qurumları tərəfindən diqqətlə izlənməsi tamamilə təbiidir. İrana qarşı hücumların ilk günündən Xarici İşlər Nazirliyi tərəfindən ifadə olunan rahatsızlıq Azərbaycanın sözügedən münaqişə ilə əlaqədar obyektiv mövqeyini aydın göstərir. Bu, əslində, diplomatiya dilində İrana qarşı hücumların və onların mümkün nəticələrinin arzuolunmazlığına işarə edilməsi kimi qavranılmaqdadır. Ölkəmizin qeyri-bərabər hücuma məruz qalan qonşu dövlətə bundan aydın dəstəyini təsəvvür etmək mümkün deyil.

İnsanlarımızın artan trayektoriya ilə cərəyan edən hərbi toqquşmalara xüsusi həssaslığının bir sıra səbəblərlə şərtləndiyi qeyd oluna bilər. İlk növbədə İranın Azərbaycanla qonşu olması, 700 kilometrdən çox ortaq sərhədlərimiz, eyni zamanda uzunəsrlik sıx dostluq əlaqələri ölkəmizin münaqişə ilə əlaqədar həssas yanaşmasının əsasında dayanır. Tarixi, mədəni, dini oxşarlıq, çoxşaxəli iqtisadi əlaqələr də öz növbəsində ölkəmizin və onun əhalisinin qonşuluğumuzda baş verən fəlakətə xüsusi diqqət nümayiş etdirməsinin əlavə səbəbləridir.

Azərbaycanın istər əhalisinin, istərsə də dövlət səviyyəsində İran böhranı ilə əlaqədar mövqeyinin milli təəssüb və həmrəylik kimi dəyərlərə söykənməsi ayrıca vurğulanmağa layiqdir. Bu ölkədə yaşayan insanların təxminən 40 faizi, yəni 40 milyona qədəri mənşəcə etnik azərbaycanlılardır. Azərbaycanın geniş planda nəzərdən keçirilən çoxəsrlik tarixini, mədəniyyətini, xalqımızın özünüdərkini, dövlətçilik ənənələrini İranda yaşayan soydaşlarımızın iştirakından ayrılıqda təsəvvür etmək mümkün deyil.

Min ilə yaxın bir dövrdə, 1925-ci il çevrilişinə qədər, İranı idarə edənlərin Azərbaycan sülalələri olması məlum tarixi faktdır. Onun tarixinin bir çox şanlı səhifəsinin azərbaycanəsilli sərkərdələrin və şahların adı ilə bağlı olması da nəzərdən qaçırıla bilməz. 1979-cu il islam inqilabına qədər, təxminən 500 il ərzində dalğalanan günəş və şir təsvirli İran bayrağının etnik azərbaycanlı Şah Abbas dövründən qalan əmanət olmasını bu ölkənin vətəndaşlarının unutmadığını düşünürəm.

Ölkəmizin İran böhranı ilə həssas davranışının digər amilinin regional təhlükəsizlik mülahizələrindən və Prezident İlham Əliyevin sülh təşəbbüslərindən qaynaqlandığı da ayrıca vurğulanmalıdır. Ermənistanın 30 ilə yaxın davam edən işğalının başa çatmasından sonra dövlətimiz Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüsünün müəllifi missiyasını uğurla yerinə yetirməkdədir. Bu səbəbdən çevrəmizdə cərəyan edən istənilən hərbi-siyasi gərginlik, o cümlədən İran böhranı sözügedən missiyanın reallaşmasına əngəl kimi nəzərdən keçirilir. Bütün dünyada sülhsevər dövlət, Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının əsas dayağı kimi mövqeyini ortaya qoyan Azərbaycan, qonşu İranda hərbi toqquşmaları haqlı olaraq regionun sülh təşəbbüslərinə əsaslı təhdid hesab edir.

Beləliklə, İran böhranı ilə əlaqədar Azərbaycanın milli maraqları və rəsmi dövlət siyasəti ən qısa zamanda gərginliyin aradan qaldırılaraq sülhün bərqərar olmasından ibarətdir. Prezident İlham Əliyevin dəfələrlə və qətiyyətlə eyni mövqeyi ifadə etməsi İrana dostluq münasibətinin möhkəm təməli üzərində qərar tutmasından xəbər verir.

### Naxçıvana dron zərbəsi: təsadüf, yoxsa təxribat

Azərbaycanın ərazisinin-Naxçıvanın İran tərəfindən insansız hava uçaqları ilə zərbələrə məruz qalması qonşu ölkəyə qarşı ABŞ-İsrail hücumlarının 2025-ci il yay kampaniyasının və hazırkı mərhələsinin ən gözlənilməz hadisəsi hesab oluna bilər. Doğrudur, ABŞ-İsrail və İran arasında hava müharibəsinin bir sıra qəribəlikləri açıq şəkildə müşahidə olunmaqdadır. Üçüncü tərəfin münaqişəyə cəlb olunmasına yönəlmiş cəhdlərə son qoyulmaması sözügedən qəribəliklərdən yalnız biridir. Bunun nə dərəcədə doğru hərbi taktikası olduğunu zaman göstərəcək. Lakin rasional hərbi taktika baxımından münaqişə iştirakçılarının sıralarının artması İranın maraqlarından daha çox ABŞ-İsrail tandeminin istəklərinə daha uyğunluğu ilə diqqəti cəlb edir.

Qeyri-bərabər savaşda hücuma məruz qalan tərəfin sərgiləməli olduğu rasional davranış tərzi əleyhdarlarının azalması, tərəfdarlarının və ya heç olmasa neytral mövqe daşıyıcılarının sıralarının isə genişlənməsi kimi hədəfə xidmət göstərməlidir.

Deyilənlərə istinad edərək, sırf hərbi taktika baxımından Naxçıvana dron zərbəsi İrana hər hansı üstünlük vəd etmir. Dəfələrlə ən yüksək səviyyədə Azərbaycanın ərazisindən İrana qarşı heç bir halda istifadə edilməsinə icazə verilməməsi barədə bəyanatların səsləndirilməsi ilə yanaşı sözügedən istifadə üçün hipotetik ehtimalın belə mövcud olmaması dövlətimizin qeyd edilənlərlə əlaqədar siyasətinin tam şəffaflığını sübuta yetirir.

Azərbaycanın İrana dost münasibətinin bütün zamanlarda olduğu kimi, ABŞ-İsrail hücumları dövründə də aydın şəkildə nümayiş etdirilməsi Naxçıvana qarşı təxribata heç bir əsası olmadığını sübuta yetirən əlavə arqument kimi nəzərdən keçirilməlidir. Azərbaycanın ərazisinin dron atəşinə tutulmasından bir gün əvvəl Prezident İlham Əliyevin İranın səfirliyini ziyarət edərək Ayətullah Əli Xameneinin qətlə yetirilməsi ilə əlaqədar başsağlığını ifadə etməsi, ölkənin Prezidenti Məsud Pezeşkiana başsağlığı məktubu imzalaması yuxarıda qeyd edilən münasibətin səmimiliyinə dəlalət edən diqqətçəkən amillərdəndir.

Naxçıvana dalbadal 4 dron zərbəsinin təşkil edilməsi, aeroportun dağıntılara məruz qalması fonunda iki ölkə arasında münasibətlərin gələcək perspektivlərinə ciddi təsir edə biləcək bir suala cavab axtarılması xüsusi aktuallıq kəsb edir: hərbi -taktiki baxımdan İrana heç bir fayda gətirməyən, daha çox münasibətlərin pisləşməsinə xidmət edən dron hücumu bir təsadüfdür, yoxsa təxribat? Bu ehtimalların hər birinin yaşamaq haqqına sahib olduğu düşünülə bilər. Lakin bu başdan etiraf etmək lazım gəlir ki, bir-birinə yaxın məsafələrdə yerləşən konkret hədəflərə istiqamətlənən dalbadal 4 dronun Naxçıvanı vurması hadisənin təsadüfi olmaması ehtimalını ciddi şəkildə azaldır.

Azərbaycana qarşı törədilən dron hücumunun bir təxribat olması məsələsinə gəldikdə isə, onun araşdırılması İran tərəfinin üzərinə düşür. Prezident Məsud Pezeşkianın üzr istəməsi və bir daha belə hərəkətlərə yol verilməyəcəyi barədə bəyanatı müəyyən gerçəkliklərin üzərinə işıq saçır. Düşünürəm ki, problemin açıq qalan tərəflərinin ölkələrimiz arasında münasibətlərin gələcəyi naminə səmimiyyətlə araşdırılıb Azərbaycan tərəfinə şəffaf şəkildə təqdim ediləcəyinə artıq heç bir şübhə yeri qalmayıb.

### Qlobal təhdidlər və Azərbaycanın rolu

10 gündən çox davam etməkdə olan İran böhranı, xüsusilə də onun şiddətinin səngiməməsi təkcə regional deyil, eyni zamanda qlobal təhdidlərlə müşayiət edilməkdədir. Yaxın və Orta Şərqdə başlayan bütün qarşıdurmalar tarixən regional hüdudları aşmağa meyilli olub. 2003-cü ildə ABŞ-nin və koalisiya güclərinin İraqa müdaxiləsi zəminində baş tutan müharibə ölkədəki rejimin çökməsinə vəsilə olmaqla yanaşı, islam dövləti adını almış qlobal terror fəlakətinin alovlanmasına gətirib çıxardı. Hərbi müdaxilə və İraqın silahlı qüvvələri ilə müharibə nəticəsində, müxtəlif mənbələrə görə, 150 mindən 1 milyona qədər insan həlak olmuşdur ki, bunun da təxminən 80 faizini mülki əhali təşkil edir. ABŞ silahlı qüvvələri arasında həlak olanların sayı isə 4500 nəfərə çatmışdır.

2003-cü ilin ABŞ-İraq müharibəsi yaddaşlara müasir tarixin ən çoxsaylı insan tələfatına səbəb olan ədalətsiz müharibəsi kimi həkk olunub. Bir çox ölkə və milyonlarla insan sözügedən fəlakətin təsirini bu gün də yaşamaqdadır.

Bəşəriyyətin hələ də unuda bilmədiyi ABŞ-İraq müharibəsinin acı təcrübəsi ABŞ-İsrail və İran arasında müharibənin nəzarətdən çıxacağı halda ABŞ-İraq müharibəsindən qat-qat ağır nəticələrə səbəb olacağı ehtimalına heç bir şübhə yeri qoymur. Müharibənin nəzarətdən çıxması ehtimalının proqnozlaşdırılan digər ağır nəticəsi İranın birliyinə arzuolunmaz zərbənin vurulması kimi səciyyələndirilə bilər. Ümumiyyətlə, Yaxın və Orta Şərqin siyasi mənzərəsinin və sərhədlərinin, bəzi maraqlı dairələrin istəyinə uyğun olaraq dəyişdirilməsi həvəsi, heç şübhəsiz, bağışlanmaz səhv, nəticəsi təsəvvür edilməyən fəlakətin başlanğıcı ola bilər. Etiraf etmək lazımdır ki, böhranın coğrafiyasının müşahidə edilən genişlənməsi təsvir edilən ssenarinin ehtimal olunma dərəcəsini xüsusi narahatlıq həddinə çatdırır.

İran böhranı özünün həyəcanlı qlobal təsirini iqtisadi turbulentlikdə artıq aydın göstərməkdədir. Münaqişənin uzanmasının dünya iqtisadiyyatına təhdidlərin getdikcə artması ilə müşayiət olunması şübhə doğurmur. Yeni iqtisadi böhranın yaranması isə heç bir dövlətin, o cümlədən Azərbaycanın marağında deyil.

Möcvud reallıqların heç də tam olmayan təsviri böhranın aradan qaldırılması naminə daha təsirli addımların atılmasını ən ciddi şəkildə diktə edir. Mümkün variantlardan biri kimi neytral beynəlxalq güclərin iştirakı ilə Yaxın Şərq Konfransının təşkili nəzərdən keçirilə bilər. Bunun münaqişəyə cəlb olunan tərəflərin böhrandan çıxmaq istiqamətində qərar qəbul etməsi üçün də təsəlliverici amil baxımından faydalı ola biləcəyini düşünmək mümkündür.

Azərbaycanın və Türkiyənin həm bölgə dövlətləri, həm də nüfuzlu beynəlxalq aktorlar olaraq İran böhranın çözülməsinə töhfə vermək imkanlarının yüksək səviyyəsi şəksizdir. Ölkəmizin münaqişə çevrəsinə daxil olan ölkələrin, demək olar ki, hamısı ilə pozitiv və qarşılıqlı hörmət əlaqələrinə sahib olması real nəticə əldə etmək şansını xeyli artırır. Prezident İlham Əliyevə bəslənən beynəlxalq etimad və ehtiram öz növbəsində Azərbaycanın barışdırıcı missiyasını yüksək çəkiyə malik təşəbbüs saymağa əsas verir.

Sülhün dəyəri savaş dövründə daha böyük olur. Yaxın Şərqin indi ehtiyac duyduğu ən qiymətli nemət sülh, təhlükəsizlik, əmin-amanlıqdır. Əslində, bütün bunlar indi dünyanın ümdə arzusuna, bəlkə də xəyalına çevrilib.

Unutmayaq ki, 30 ilə yaxın Azərbaycan xalqı üçün də heç zaman onu tərk etməyən xəyala bənzəyən sülh Prezident İlham Əliyevin müdrik tədbirləri sayəsində həyatımızın başlıca dəyəri kimi qəti və əbədi olaraq qərarlaşıb.

*Əli ƏHMƏDOV,*
*Yeni Azərbaycan Partiyası Sədrinin müavini*

# Güclü siyasi iradənin və qətiyyətin təzahürü



## Prezident İlham Əliyevin prinsipial mövqeyi dövlətimizin beynəlxalq imicini yüksəldən əsas faktorlardan biridir

**Dünya düzəninin sürətlə dəyişdiyi və regional güc balansının yenidən formalaşdığı dövrdə dövlətlərin suverenliyini qoruyan ən mühüm amil hərbi güclə yanaşı, həm də liderlik fenomeni və sarsılmaz siyasi iradədir. Tarixin sınaq anlarında millətlərin taleyi onların liderlərinin qətiyyəti ilə yazılır.**

Azərbaycanın son illərdə keçdiyi çətin yol göstərdi ki, milli maraqların müdafiəsi üçün düzgün zaman seçmək, strateji səbir və prinsipial liderlik mütləq mənada vəhdət təşkil etməlidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu məhz bu təməllər üzərində yüksələrək, ölkəmizi regionun şərtləri diktə edən əsas aktoru səviyyəsinə qaldırdı.

Bölgədə cərəyan edən proseslər fonunda Azərbaycan dövlətinin prinsipial mövqeyi bir daha təsdiqlədi ki, məmləkətimizin milli təhlükəsizlik mənafeləri Bakının yürütdüyü siyasətin təməl daşını təşkil edir. Hazırda Azərbaycan dövləti daxildə sabitliyi, əmin-amanlığı, eyni zamanda regionda barış mühitinin davamlılığını təmin etmək naminə sistemli və məsuliyyətli iş aparır. Milli qürurun qorunması naminə atılan hər bir addım, səslənən hər bir bəyanat Azərbaycanın suverenlik qalxanını daha da keçilməz edir. Bu kontekstdə xüsusi qeyd edilməlidir ki, Azərbaycanın dövlət siyasəti anlıq emosiyalara deyil, uzaqgörən milli strategiyaya söykənir. Ötən dövrlərdə üzləşdiyimiz geosiyasi fırtınalardan itkisiz və daha güclü çıxmağımızın təməlində məhz dövlət başçısının nümayiş etdirdiyi siyasi iradə və strateji gedişlər dayanır. Çünki mürəkkəb durumlarda, fors-major hallarda, xarici təhdid və təzyiqlər, regional münaqişələr, sərhəd təxribatları və digər vəziyyətlərdə bir liderin ən böyük sınağı onun təmkinliyidir.

Prezident İlham Əliyevin siyasətində ən bariz xüsusiyyətlərdən biri təzyiqlər qarşısında nümayiş etdirdiyi sarsılmaz iradə, əzm və qətiyyətdir. Dövlətimizin başçısının kifayət qədər kritik məqamlarda sərgilədiyi prinsipial mövqe dövlətimizin milli maraqlarının kompromis predmeti olmadığını göstərir. Bu, xüsusilə Vətən müharibəsi dövründə və ondan sonrakı geosiyasi gərginliklər zamanı özünü aydın şəkildə büruzə verdi. Xarici diplomatik təzyiqlərə rəğmən dövlətimizin başçısı "nəyi necə və nə vaxt etmək lazım olduğunu" bildiyini sözdə və əməldə dəfələrlə sübuta yetirdi. Ən böyük xarici təzyiqlər belə dövlət başçısını vaxtından əvvəl və ya hazırlıqsız addım atmağa sövq edə bilmədi. İstər Zəngəzur dəhlizi (TRIPP) məsələsində, istərsə də sərhədlərin delimitasiyası prosesində dövlət başçısının birmənalı mövqeyi göstərdi ki, Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyi hansısa siyasi və ya iqtisadi vədlə dəyişdirilə bilməz.

Sarsılmaz iradə həm də xalqdan alınan gücə söykənir. Vətən müharibəsi zamanı cənab Prezidentin xalqa müraciətləri və xarici mediaya verdiyi çoxsaylı müsahibələr bir növ informasiya cəbhəsinin hücum diplomatiyası oldu. Bu qətiyyət cəmiyyətdə daxili inamı artırdı və insanlarda dövlətin arxasında dayanan güclü bir iradənin olduğu əminliyini yaratdı. Azərbaycan liderinin prinsipial mövqeyi dövlətin beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınması üçün də vacib amildir. Zamanı yetişəndə sərt yanaşma sərgiləmək Azərbaycanın xarici siyasətdə hadisələrə, sadəcə, reaksiya verən tərəf yox, həmçinin prosesin axınını dəyişən bir aktor olduğunu göstərir. Hər kəs birmənalı anlayır ki, Azərbaycanla şantaj və ya hədə-qorxu dilində danışmaq mümkün deyil. Bu yanaşma ölkənin suverenliyinin ən böyük təminatlarından biridir. Qətiyyətli mövqe təkcə xarici siyasət üçün deyil, həm də daxili sabitlik üçün mühümdür. Liderin prinsipiallığı dövlət-xalq vəhdətini möhkəmləndirən, milli həmrəyliyi təmin edən əsas sütundur. Bu strategiyanın praktiki təzahürü kimi Azərbaycan Prezidenti İlham Əliyevin son hadisələrlə bağlı verdiyi cəsarətli və qətiyyətli bəyanatlar ölkəmizin milli mənafelərinin müdafiəsində hər hansı geri çəkilmənin olmadığını bariz şəkildə ortaya qoydu.

Martın 8-də İran Prezidenti Məsud Pezeşkianın Azərbaycan Prezidenti İlham Əliyevlə telefon əlaqəsi saxlayaraq humanitar dəstəyə görə minnətdarlıq ifadə etməsi və Naxçıvana dron hücumunun araşdırılacağını deməsi göstərdi ki, tərəflər ən mürəkkəb və təhlükəli insidentlər zamanı belə birbaşa rabitə kanallarını açıq saxlayırlar. Bu, regionda gərginliyin nəzarətdən çıxmaması üçün fundamental şərtdir. Prezident İlham Əliyev məsələnin araşdırılmasının vacibliyini qeyd edərək, təhlükəsizlik məsələlərində kompromisə yer olmadığını və faktların dəqiq müəyyənləşdirilməsinin əhəmiyyətini vurğuladı.

Azərbaycanın tutduğu yol hər zaman şəffaf və dəyişməzdir. Dövlətimiz daim qonşularla münasibətlərdə qarşılıqlı ehtiram və dinc yanaşı yaşamaq prinsiplərini üstün tutub. Ölkəmiz öz ərazilərinin digər dövlətlərə qarşı hər hansı təhdid platformasına çevrilməsinə heç vaxt yol verməyib və bu kursa sadiq qalıb. Hər zaman, hər şəraitdə bölgədə asayişin, sabitliyin və tərəfdaşlığın qəti tərəfdarı kimi çıxış edib. Bütün qonşu dövlətlərlə etimada söykənən əlaqələrin güclənməsinə xüsusi önəm verib. İranın ali rəhbərinin dünyasını dəyişməsi zamanı Prezident İlham Əliyevin dərhal başsağlığı verməsi, səfirliyi ziyarət etməsi və humanitar dəstək jesti Azərbaycanın mənəvi dəyərlərə və mehriban qonşuluq münasibətlərinə verdiyi yüksək qiymətin göstəricisidir.

Azərbaycan qüdrətli dövlət strukturu, güclü ordusu və dönməz siyasi iradəsi olan bir ölkədir. Dövlətin təməl hədəfi regionda sülhü qorumaqdır. Lakin Azərbaycan öz təhlükəsizliyini və vətəndaşlarını hədəf alan hər bir təhdidə qarşı ən sərt və adekvat cavabı vermək iqtidarındadır. Bu mənada Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının toplantısında vurğuladığı fikirlər təkcə cari duruma verilən reaksiya deyildi, eyni zamanda Azərbaycanın dövlət iradəsinin nümayişi idi. Gərgin məqamda dövlət başçısının qətiyyətli duruşu həm xalqa, həm də xarici dairələrə yönəlmiş konkret mesaj mahiyyəti daşıyır. Azərbaycan öz suveren hüquqlarını qorumaq üçün bütün resurslarını işə salmağa hazırdır. Sülh tərəfdarı olsa da, təzyiqlər qarşısında heç vaxt susmayacaq. Bu yanaşma yeni geosiyasi şəraitdə Azərbaycanın bölgədə həlledici və qətiyyətli bir oyunçu olduğunu təsdiqləyir.

Digər tərəfdən mövcud vəziyyətlə bağlı dünya dövlətlərinin liderlərinin ardıcıl şəkildə Prezident İlham Əliyevə telefon açması Azərbaycanın qlobal arenadakı artan çəkisinin və ölkəmizə olan beynəlxalq dəstəyin aydın təzahürüdür. Bu hal Azərbaycanın beynəlxalq münasibətlərdə güvənilən və ciddi tərəfdaş statusunu bir daha möhkəmləndirir. Bütün bu faktlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəinki regional, həm də qlobal miqyasda qəbul olunan, söz sahibi və özünə xas müstəqil siyasi xətti ilə seçilən nüfuzlu bir dövlətdir. Bunun kökündə isə yalnız güclü ordu və iqtisadi potensial deyil, eyni zamanda qüdrətli lider amili, mənəvi-siyasi birlik üzərində qurulmuş dövlətçilik fəlsəfəsi dayanır. Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlar və atdığı hər bir addım gələcək nəsillərə daha qüdrətli, suveren və sülh içində bir Vətən miras qoymaq məqsədinə xidmət edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

### *Prezident ƏRDOĞAN:*
### "Qardaş ölkələrlə, xüsusən də Azərbaycanla həmrəyik"

**"Türkiyə qardaş ölkələrlə, xüsusən də Azərbaycanla həmrəydir. Bölgəmizdə sülh və sabitliyi pozacaq hər hansı bir ssenariyə qarşıyıq. Heç kim səhv hesablar etməsin. Qardaşı qardaşa qarşı qoyacaq tələyə düşməməliyik".**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hökumət iclasından sonra keçirilən brifinqdə bildirib.

Onun sözlərinə görə, Türkiyə hakimiyyəti ölkənin İran böhranına qarışmasının qarşısını almaq və ölkə iqtisadiyyatına dəyən ziyanı minimuma endirmək üçün müvafiq addımlar atır: "Dövlətimiz güclüdür, hücumların qarşısını almaq üçün hər cür imkana malikdir. Türkiyənin 86 milyonluq əhalisinin sülhü və rifahı bizim üçün əsas prioritetdir".

Dövlət başçısı qeyd edib ki, Ankara öz addımlarını NATO ilə sıx əlaqələndirir.

Prezident Ərdoğan 16 dövlətin lideri ilə İranla bağlı telefon danışıqları apardığını xatırladıb. O, Türkiyənin təhlükəsizliyini möhkəmləndirəcək əlavə tədbirlərin davam etdiriləcəyini bildirib.

### *Ursula fon der LYAYEN:*
### "Trans-Xəzər dəhlizi təkcə Avropaya deyil, həm də sülhə aparan bir yol ola bilər"



**"Trans-Xəzər dəhlizi təkcə Avropaya deyil, həm də sülhə aparan bir yol ola bilər".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen söyləyib.

O deyib ki, Trans-Xəzər Nəqliyyat Dəhlizi kimi strateji layihələr barədə düşünmək lazımdır: "İlk baxışdan onun məqsədi Mərkəzi Asiya ilə Avropa arasında səyahət müddətini 30 gündən 15 günə endirməkdir, lakin bu layihənin daha çox əhəmiyyəti var. Bu dəhliz Cənubi Qafqazda əvvəllər düşmən olan dövlətləri birləşdirəcək və onları Avropaya bağlayacaq".

Ursula fon der Lyayenin sözlərinə görə, İkinci Dünya müharibəsindən sonra kömür və dəmir Avropanı birləşdirdiyi kimi, bu yeni dəhliz də problemli bölgədə ticarət və əməkdaşlığı normaya çevirə və təkcə Avropaya deyil, həm də sülhə gedən bir yola çevrilə bilər: "Mənim fikrim sadədir. Afrika və ya Yaxın Şərqdə olduğu kimi, bu bölgədə də investisiyalarımız təsir gücünə və təmsilçiliyə malik olduğumuz deməkdir".

## Azərbaycan Avropaya enerji tədarükündə strateji rolunu gücləndirir

**Ötən il Rumıniyaya idxal edilən xam neftin 60 faizdən çoxu Mərkəzi Asiya, xüsusilə Xəzər dənizi regionundan tədarük olunub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rumıniyanın "Financial Intelligence" analitik nəşrində dərc edilən məqalədə bildirilib.

Qeyd olunub ki, idxal olunan xam neft əsasən Qara dəniz sahilində yerləşən "Petromidia" neft emalı zavodunda emal edilir. Bu müəssisə regionun ən böyük neft emalı komplekslərindən biri hesab olunur və Rumıniyanın enerji sektorunda mühüm rol oynayır.

Analitiklərin fikrincə, Xəzər regionundan Avropaya enerji resurslarının nəqlində Cənubi Qafqaz və Qara dəniz marşrutları getdikcə daha böyük əhəmiyyət qazanır. Bu kontekstdə Azərbaycan xüsusi strateji rol oynayır. Xəzər hövzəsində yerləşən enerji və nəqliyyat dəhlizləri Mərkəzi Asiya enerji resurslarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradır.

Məqalədə vurğulanır ki, Azərbaycan regionda formalaşan yeni enerji və logistika marşrutlarının əsas qovşaqlarından biri kimi çıxış edir. Xəzər dənizi üzərindən həyata keçirilən nəqliyyat və tranzit imkanları enerji resurslarının Qara dəniz və Avropa bazarlarına çatdırılmasında mühüm rol oynayır.

Ekspertlərin qənaətinə görə, Avropa ölkələrinin enerji mənbələrini şaxələndirmək strategiyası fonunda Mərkəzi Asiya, Cənubi Qafqaz və Qara dəniz regionları arasında enerji əməkdaşlığı daha da güclənir. Bu prosesdə Azərbaycan həm nəqliyyat dəhlizi, həm də regional enerji tərəfdaşı kimi strateji mövqeyini möhkəmləndirir.

## Kaliforniyanın Cənubi Qafqazda roluna dair yeni baxış

**ABŞ-də fəaliyyət göstərən "Times of San Diego" nəşrində "Opinion: A new era dawns for California's involvement in the South Caucasus" ("Kaliforniyanın Cənubi Qafqazda iştirakında yeni dövr başlayır") başlıqlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, yazının müəllifi politoloq və beynəlxalq münasibətlər üzrə ekspert Piter Teysdir. O, Kaliforniyanın və ümumilikdə ABŞ-nin Cənubi Qafqaz regionundakı rolunun dəyişməsi və yeni imkanların yaranması barədə fikirlərini bölüşüb. Piter Teys qeyd edir ki, son illərdə ABŞ-nin regionda diplomatik fəallığının artması Cənubi Qafqazda yeni siyasi mərhələnin başlanğıcını göstərir. Onun fikrincə, 2025-ci ilin avqustunda Vaşinqtonun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında aparılan danışıqlar uzunmüddətli münaqişənin həlli istiqamətində mühüm dönüş nöqtəsi olub. Müəllif bunu ABŞ diplomatiyasının real nəticəyönümlü addımı kimi qiymətləndirir.

Məqalədə Kaliforniyanın regionla əlaqələrinə xüsusi diqqət yetirilir. Teys vurğulayır ki, ABŞ-də erməni diasporunun böyük hissəsinin məhz bu ştatda yaşaması səbəbindən Kaliforniya uzun illər Cənubi Qafqaz məsələlərində müəyyən təsirə malik olub. Lakin müəllif hesab edir ki, əvvəllər bu təsir daha çox siyasi qarşıdurmaların davam etməsinə səbəb olan mövqelərlə müşayiət olunub və bu, regionda sülh prosesini çətinləşdirib.

Piter Teys indi isə yeni imkanların yarandığını yazır. Onun sözlərinə görə, Kaliforniya siyasətçiləri və biznes dairələri ABŞ-Azərbaycan əməkdaşlığını inkişaf etdirməklə həm regionda sabitliyə töhfə verə, həm də iqtisadi əlaqələri genişləndirə bilərlər. Müəllif xüsusilə texnologiya, ticarət və investisiya sahələrində əməkdaşlıq potensialını vurğulayır.

Yazıda həmçinin qeyd olunur ki, davamlı sülhün təmin olunması üçün yalnız siyasi və iqtisadi əməkdaşlıq kifayət deyil. Teys hesab edir ki, tələbə mübadiləsi, mədəni əlaqələr və vətəndaş cəmiyyəti səviyyəsində dialoq region xalqları arasında etimadın formalaşmasına mühüm töhfə verə bilər. Beləliklə, müəllif Kaliforniyanın Cənubi Qafqaz siyasətində daha konstruktiv və uzunmüddətli əməkdaşlığa yönəlmiş rol oynaya biləcəyini vurğulayır.

## Azərbaycan sabitlik və əməkdaşlıq mühitinin güclənməsində maraqlıdır

**Müasir beynəlxalq münasibətlər sistemində regional təhlükəsizliyin qorunması artıq təkcə hərbi güc və müdafiə mexanizmləri ilə ölçülmür. Bu gün dövlətlərin sabitliyi təmin etmək bacarığı daha çox diplomatik çeviklik, siyasi uzaqgörənlik və dövlətlərarası dialoq mədəniyyətinin səviyyəsi ilə müəyyən olunur. Xüsusilə geosiyasi baxımdan həssas bölgələrdə qarşılıqlı etimadın qorunması və sülh mühitinin saxlanılması yüksəksəviyyəli siyasi təmasların davamlılığından asılıdır.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Cənubi Qafqaz regionunun mürəkkəb və dinamik siyasi mənzərəsi fonunda Naxçıvan istiqamətində baş verən son raket hadisəsi və dərhal ardınca Azərbaycan və İran dövlət başçıları arasında baş tutan birbaşa təmaslar məhz bu kontekstdə xüsusi əhəmiyyət daşıyır: "Dövlət rəhbərləri arasında operativ əlaqənin qurulması və məsələ ilə bağlı fikir mübadiləsinin aparılması regionda sülhün və sabitliyin qorunmasına yönəlmiş siyasi məsuliyyətin və qarşılıqlı anlayışın bariz nümunəsi kimi qiymətləndirilə bilər. İran tərəfinin hadisə ilə bağlı verdiyi ilkin açıqlamada hadisənin hərtərəfli və obyektiv şəkildə araşdırılacağına dair rəsmi mövqenin ifadə olunması iki qonşu ölkə arasındakı münasibətlərin qarşılıqlı hörmət, şəffaflıq və sülhə sadiqlik prinsipləri üzərində inkişaf etdiyini göstərir. Bu cür yanaşma regionda yaranmış istənilən anlaşılmazlığın diplomatik müstəvidə həll edilə biləcəyinə dair mühüm mesajdır və regional sülh gündəliyinə töhfə verir".

K.Bayramov qeyd edib ki, regionda baş verən prosesləri daha geniş geosiyasi kontekstdə təhlil etdikdə aydın olur ki, bəzən gözlənilməz texniki insidentlər, kommunikasiya səhvləri və ya üçüncü tərəflərin təsir cəhdləri dövlətlərarası münasibətlərdə müəyyən suallar yarada bilər. Lakin bu kimi hallarda məsələnin təmkinli, soyuqqanlı və obyektiv şəkildə araşdırılması ən düzgün siyasi və diplomatik yanaşma hesab olunur. İran Prezidentinin hadisənin araşdırılacağına dair verdiyi vəd yalnız daxili təhlükəsizlik prosedurlarının həyata keçirilməsi anlamına gəlmir. Bu, eyni zamanda regionda sabitliyin qorunmasına və iki ölkə arasında etimad mühitinin saxlanılmasına yönəlmiş məsuliyyətli siyasi mövqenin ifadəsidir. Belə addımlar potensial gərginliklərin aradan qaldırılmasına, mümkün anlaşılmazlıqların böyüyərək daha geniş siyasi böhrana çevrilməsinin qarşısını almağa xidmət edir.



Deputatın sözlərinə görə, bu yanaşma beynəlxalq münasibətlərdə "etimad quruculuğu tədbiri" kimi qiymətləndirilə və regionda sülh mühitinin qorunmasına mühüm töhfə verə bilər. Azərbaycanın həyata keçirdiyi çoxvektorlu və balanslı xarici siyasət kursu da məhz bu prinsiplərə əsaslanır. Azərbaycan qonşu dövlətlərlə münasibətlərdə dialoqa üstünlük verən, problemlərin beynəlxalq hüquq normaları və qarşılıqlı hörmət prinsipləri çərçivəsində həllini dəstəkləyən dövlət kimi regionda sabitlik və əməkdaşlıq mühitinin möhkəmlənməsinə töhfə verir.

K.Bayramov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasının strateji əhəmiyyəti və onun təhlükəsizliyinin təmin edilməsi həm Azərbaycan üçün, həm də regionun ümumi sabitliyi baxımından xüsusi önəm daşıyır: "Coğrafi mövqeyi, iqtisadi və nəqliyyat potensialı baxımından Naxçıvan regionda mühüm logistika və tranzit mərkəzlərindən biri hesab olunur. Bu baxımdan həmin bölgədə sülhün və təhlükəsizliyin qorunması yalnız bir ölkənin deyil, bütövlükdə regionun inkişaf perspektivlərinə birbaşa təsir göstərir. Regionda həyata keçirilməsi planlaşdırılan nəqliyyat, logistika və enerji layihələrinin uğurlu icrası da məhz sabit təhlükəsizlik mühitinin mövcudluğundan asılıdır. Dövlət başçılarının birbaşa rabitə kanalları vasitəsilə vəziyyəti müzakirə etməsi və məsələyə operativ şəkildə reaksiya verməsi bu baxımdan mühüm diplomatik mexanizm kimi çıxış edir. Bu cür təmaslar eyni zamanda dezinformasiya yaymaq və gərginliyi süni şəkildə artırmaq istəyən qüvvələrin cəhdlərinin qarşısını alır. Mövcud vəziyyətin obyektiv və şəffaf şəkildə araşdırılması istiqamətində atılan addımlar iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı anlaşma mühitinin qorunmasına xidmət edir".

K.Bayramov əlavə edib ki, Naxçıvan istiqamətində baş verən hadisə ətrafında formalaşan diplomatik mühit regionun gələcək inkişaf modeli baxımından da mühüm əhəmiyyət daşıyır. Bu proses göstərir ki, mürəkkəb və həssas situasiyalarda belə dövlətlərin təmkinli davranışı, dialoqa sadiqliyi və qarşılıqlı maraqları nəzərə alan siyasəti regional sabitliyin qorunmasının ən effektiv vasitəsidir. İnsidentin araşdırılması prosesi yalnız baş vermiş hadisənin bütün detallarının aydınlaşdırılmasına xidmət etməyəcək. Eyni zamanda bu proses Azərbaycan və İran arasında təhlükəsizliyin və siyasi kommunikasiyanın daha da möhkəmlənməsinə imkan yaradacaq. Belə mexanizmlərin inkişafı gələcəkdə oxşar vəziyyətlərin daha operativ və koordinasiyalı şəkildə həllinə şərait yaradır. "Cənubi Qafqazın sülh, əməkdaşlıq və iqtisadi inkişaf məkanına çevrilməsi istiqamətində atılan bu kimi diplomatik addımlar bölgənin uzunmüddətli sabitliyinə, rifahına və təhlükəsiz gələcəyinə fundamental töhfə verir. Bakıdan Naxçıvana uçuşların bərpa olunması da aparılan yüksəksəviyyəli danışıqların və qarşılıqlı anlaşmanın bariz nəticəsi kimi qiymətləndirilə bilər. Bu addım bir daha göstərir ki, tərəflər yaranmış vəziyyətin qısa müddətdə aradan qaldırılması, regionda sabitliyin və normal nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası istiqamətində konstruktiv mövqe nümayiş etdirir", - deyə o bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## İlham Əliyevin sülh strategiyası real nəticələr verir

**Onilliklər boyu davam edən Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə qovuşub və region tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bu gün Cənubi Qafqazda müşahidə olunan faktiki sülh şəraiti Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi uzaqgörən siyasətin nəticəsidir. Rəsmi Bakı tərəfindən irəli sürülən sülh gündəmi bölgənin iqtisadi və sosial həyatında praktik müstəvidə də özünü göstərir. Azərbaycanın qətiyyətli səyləri sayəsində bölgədə sabitlik bərqərar olub ki, bu da həm iki ölkə, həm də bütün region üçün hərtərəfli inkişafa yeni imkanlar açıb.**

### Konstruktiv addımlar

Azərbaycanın başlatdığı sülh prosesi artıq real nəticələri ilə diqqət çəkir. Bu kontekstdə ölkəmizin atdığı addımlar həm də regional kommunikasiya əlaqələrinə əlavə töhfələr kimi dəyərləndirilməlidir. Ötən il avqustun 8-də Vaşinqton sammitində Ağ Ev rəhbəri Donald Trampın iştirakı ilə iki ölkə arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişi mətninin paraflanması bu yolda ən mühüm irəliləyişlərdən biri oldu. Bu diplomatik uğur normallaşma prosesinə güclü təkan verdi.

Eyni zamanda bölgənin ticari-iqtisadi inkişafı birbaşa yolların açılmasından keçir. Ağ Evdə Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı əldə olunan razılaşma bu baxımdan strateji əhəmiyyətə malikdir. Bu layihə təkcə Azərbaycan və Ermənistanı deyil, bütövlükdə regionu qlobal logistik mərkəz mövqeyinə daşıyacaq.

Azərbaycanın sülh prosesinə sadiqliyi təkcə bəyanatlarda deyil, konkret əməllərdə özünü büruzə verir. Ötən il ölkəmizin Ermənistana qarşı tətbiq edilən tranzit məhdudiyyətlərini aradan qaldırması bunun ən bariz nümunəsidir.

Bu addım nəticəsində Qazaxıstan və Rusiyadan Ermənistana dəmir yolu vasitəsilə mühüm yüklər daşınıb. Rəqəmlərə nəzər saldıqda da bu prosesin miqyasını aydın görə bilərik. Belə ki, cari il martın 9-da Rusiyadan Ermənistana Azərbaycan ərazisindən tranzit keçməklə ümumi çəkisi 488 ton olan 7 vaqon taxıl göndərilib. İndiyədək Rusiyadan Ermənistana Azərbaycan ərazisi vasitəsilə tranzit qaydada 21 min tondan çox taxıl daşınıb. Bu həcmdə yük ümumilikdə 302 vaqonla daşınaraq təyinat məntəqəsinə çatdırılıb. Bununla yanaşı, eyni marşrut üzrə 610 ton gübrə də daşınıb ki, bu da 9 vaqon vasitəsilə həyata keçirilib. Sonuncu dəfə fevralın 4-də Azərbaycan ərazisindən Ermənistana 560 ton Rusiya taxılı yola salınıb.

Azərbaycandan Ermənistana yanacaq ixracına 2025-ci il dekabrın 18-də başlanılıb. Həmin gün bu ölkəyə 1220 ton "Aİ-95" markalı avtomobil benzini göndərilib.

Bu daşımalar Prezident İlham Əliyevin 2025-ci ilin oktyabrında imzaladığı qərara əsasən həyata keçirilir. Həmin qərarla Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb.

Martın 5-də 31 vaqonda 1984 ton dizel yanacağı "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Sonuncu dəfə fevralın 25-də Azərbaycandan Ermənistana 4500 ton dizel yanacağı daşıyan 39 çən vaqonu göndərilib. Bundan əvvəl isə yanvarın 11-də 979 ton "Aİ-92" markalı avtomobil benzini yüklənmiş 18 vaqon Ermənistana çatdırılıb. Yanvarın 9-da isə ümumilikdə 2698 ton neft məhsulu tədarük edilib. Həmin yüklərə 1742 ton "Aİ-95" markalı benzin və 956 ton dizel yanacağı daxil olub.

Bu nümunələr Azərbaycanın qətiyyətli səyləri nəticəsində bölgədə əldə olunan faktiki sülhün real nəticələrini ortaya qoyur. Artıq Ermənistan cəmiyyətində də bu prosesin yaratdığı iqtisadi müsbət təsirlər açıq şəkildə etiraf olunur.

Tranzit yollarının açılması ilə Ermənistana taxıl, neft məhsulları və digər mühüm malların birbaşa daşınması regionda yeni bir dövrün başlanğıcıdır. İllərdir iqtisadi blokadada qalan Ermənistan üçün bu, nəfəslik rolunu oynayır. Taxıl və yanacaq kimi strateji məhsulların daha qısa və ucuz yolla gəlməsi bu ölkəni iqtisadi sıxıntıdan çıxarır.

Ermənistanda yanacaq və qida məhsullarının daşınma xərclərinin aşağı düşməsi birbaşa bazardakı qiymətlərə təsir edir və sadə insanların rifahının yüksəlməsinə səbəb olur.

Bu mənada sözügedən daşımalar, sadəcə, ticarət deyil, həm də sülhün gətirdiyi real nəticə kimi dəyərləndirilməlidir.

İqtisadi maraqların ölkələri çox hallarda münaqişələrdən yayındırması real faktdır.

### Etimad quruculuğu

Sülh həm də insanlar arasında etimadın bərpası deməkdir. İki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri xalqlar arasında buzların əriməsində və gələcək birgəyaşayışın təməllərinin atılmasında müstəsna rol oynayır.

Azərbaycanın bu sülhməramlı liderliyi beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Cari il fevralın 4-də Əbu-Dabidə Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi də bunun əyani sübutudur.

Bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Mükafatlandırma mərasimində Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın nümunəsi hələ də müharibə vəziyyətində olanlar üçün bir "yol xəritəsi" olmalıdır: "...Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həllindən sonra ölkəmizin seçdiyi xətt yalnız sülh və qarşılıqlı anlaşma üzərində qurulub. Bakının liderliyi ilə regionda artıq real zəmində sülh mühiti formalaşdırılıb.

Bir sözlə, Azərbaycanın liderliyi ilə uğurla irəliləyən sülh prosesi göstərir ki, barış, sadəcə, sözdə deyil, əməldə də mümkündür.

İndi əsas vəzifə bu mövcud vəziyyəti hüquqi çərçivəyə salmaq və sülh müqaviləsini imzalamaqdır.

Ötən il avqustun 8-də Vaşinqtonda sülh müqaviləsinin imzalanmamasının tək səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı ərazi iddiasının olmasıdır. Cari ildə bu ölkədə parlament seçkiləri keçiriləcək. Parlament seçkilərindən sonra gündəmə gələn referendumda ümumxalq səsverməsi ilə Ermənistan konstitusiyasının preambula hissəsindəki Azərbaycana qarşı ərazi iddialarının ləğv edilməsi gözlənilir. Bu halda iki ölkə arasında sülh müqaviləsi imzalanacaq.

İrəvan üzərinə düşən öhdəlikləri yerinə yetirməli və bu tarixi fürsətdən istifadə edərək regionun tam normallaşmasına töhfə verməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanın qətiyyətli diplomatiyası 907-ci düzəlişin ləğvinə də nail olacaq

**Müxtəlif dövrlərdə ABŞ administrasiyaları tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəliş Azərbaycana təzyiq vasitəsi kimi istifadə edilib. Torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə kimi göstərərək, Azərbaycana ABŞ-dən dövlət yardımının göstərilməsini qadağan edən bu düzəlişi edib. Bu həm də qeyri-rəsmi hərbi embarqo idi.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu düzəliş Azərbaycan xalqına qarşı amansız Xocalı soyqırımının törədilməsindən bir gün öncə, 24 fevral 1992-ci il tarixində qəbul edilib. ABŞ Konqresi və digər xarici parlamentlərdə olan hamiləri Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı etnik və milli zəmində insanlıq əleyhinə cinayətlərin törədilməsinə rəvac verdilər. Müəllifi Utah ştatını təmsil edən Vayn Oven, həmmüəllifləri arasında isə Frank Pallon, Nensi Pelosi kimi şəxslər var idi. "Həmin dövrdə Azərbaycan yeni müstəqil olmaqla yanaşı, insanlıq əleyhinə cinayətlərə, etnik təmizləmələrə məruz qalmış, torpaqlarının 20 faizinə yaxınının işğalı ilə üzləşmişdi. Bu düzəlişi hazırlayan şəxslər əraziyə səfər etmədən, əslində, nə baş verdiyini aydınlaşdırmadan fikir irəli sürmüşdülər. Hansı ki, o dövrdə Ermənistanla sərhədlər Gürcüstan və Türkiyə üzərindən tam açıq idi, əslində, blokadaya düşən Naxçıvan-Azərbaycan ərazisi idi", - deyə o əlavə edib.

Deputat deyib ki, xarici ölkələrlə əlaqələrin olmadığı sovet hakimiyyəti dövründə belə Ermənistanda Diaspor Komitəsi fəaliyyət göstərib, Qərb ölkələri, eləcə də, Qərbdəki siyasətçilərlə böyük şəbəkə qurub. Beləliklə, ABŞ Konqresinə də ayaq açan erməni diasporunun "səxavətli" nümayəndələri Azərbaycana qarşı olan bu maddənin qanun layihəsinin tərkib hissəsinə daxil edilməsinə və həmin qanun çərçivəsində həm Nümayəndələr Palatasında, həm də Senatın səsverməsindən kifayət qədər səs çoxluğunun toplanmasına nail olublar. Bu günədək ABŞ Konqresində təmsil olunan demokratlar Azərbaycan əleyhinə yüzlərlə qanun layihəsi və qətnamənin sponsoru və həmsponsoru olublar. Bu prosesdə xüsusilə aktiv olan şəxs isə o dövrdə senator kimi, sonra vitse-prezident, daha sonra prezidentliyi dövründə Co Bayden idi.

P.Vəliyeva qeyd edib ki, senator Bob Menendez və Frank Pallone kimi şəxslər müxtəlif dövrlərdə 907-ci düzəlişin dayandırılması və ləğvinin prezident səlahiyyətlərindən çıxarılmasına çalışıblar: "2001-ci ildə ABŞ Konqresi 2002-ci ildən prezidentə 907-ci düzəlişi hər il müvəqqəti olaraq dayandırmaq səlahiyyəti verdi və ABŞ-nin prezidentləri ardıcıl olaraq bu səlahiyyətdən istifadə etdilər. 2002-ci ildə Prezident Buş qanunun 907-ci düzəlişini həmin il üçün dayandırsa da, Birinci Corc Buş və Bill Klinton dövründə bu düzəlişin icrası dayandırılmadı. Sonradan oğul Corc Buş, Barak Obama, Donald Trampın hakimiyyətləri dövründə bu ədalətsiz düzəlişin tətbiqi yenidən dayandırıldı. Co Bayden isə bunu 2023-cü ildə antiterror əməliyyatları zamanı əsassız olaraq aktivləşdirdi".



Deputat vurğulayıb ki, Corc Buşun bu səlahiyyətdən istifadə etməsi ABŞ-nin həm Ermənistan, həm də Azərbaycanla yeni təhlükəsizlik münasibətlərinin inkişafı istiqamətində mühüm addım olub. Beləliklə, administrasiya bu əlaqələrdən istifadə edərək Azərbaycan və Ermənistan arasında yenidən hərbi toqquşmaların qarşısını almağa, iki ölkə arasında barışığı təşviq etməyə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmağa çalışdı. Qarşılığında isə Əfqanıstan əməliyyatları, terrorla mübarizədə ABŞ-nin səyləri dəstəkləndi, beynəlxalq missiyalara hərbi kontingent göndərildi. "Əfqanıstan əməliyyatları başa çatan kimi nankorcasına 907 saylı düzəliş yenidən canlandırıldı və Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edilməyə başlanıldı. Azərbaycan Əfqanıstan missiyasına erkən qoşulan, hərbi kontingent göndərən və onu artıran, eyni zamanda ABŞ üçün həyati əhəmiyyət daşıyan nəqliyyat-logistika dəstəyini təmin edən etibarlı tərəfdaş olub. Lakin bu şəxslər oranı məğlub şəkildə tərk etdikdə Azərbaycanın onlara olan dəstəyini də unutdu. Bu, nankorluqdan başqa bir şey deyildi", - deyə o bildirib.

P.Vəliyeva Prezident İlham Əliyevin Vaşinqtona 8 avqust 2025-ci il tarixli səfərini xatırladaraq deyib ki, həmin dövrdən Azərbaycan-ABŞ münasibətləri yeni səviyyəyə yüksəlib. Prezident İlham Əliyevlə Prezident Donald Tramp arasında qurulmuş uğurlu əməkdaşlığın nəticəsi olaraq "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənəd imzalanıb. Ötən ay ABŞ vitse-prezidenti Cey Di Vensin Azərbaycana səfəri çərçivəsində ABŞ ilə Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı. İndi isə müzakirə mövzularından biri 907-ci düzəlişin ləğv edilməsidir. Bu isə Konqresin səlahiyyətlərinə aiddir.

Deputat diqqətə çatdırıb ki, Konqresdə qəbul edilən 907-ci düzəlişin ləğvi ilə əlaqədar qanun layihəsi Florida ştatından olan respublikaçı Anna Paulina Luna tərəfindən 9 dekabr 2025-ci ildə Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinə təqdim olunub, lakin hələ plenar müzakirəyə çıxarılmayıb: "Qanuna komitədə baxıldıqdan sonra Nümayəndələr Palatasında səsverməyə çıxarılır və bu proses adətən uzun çəkir. 907-ci düzəlişin ləğvi ilə bağlı belə qanun layihəsi ilk dəfədir ki, təqdim olunur. Bu isə Prezident İlham Əliyevin ABŞ ilə uğurlu diplomatiyasının nəticəsidir. Qanunun təqdim olunduğu Nümayəndələr Palatasının sədri respublikaçı Brian Mastdır. Parlament üzvlərimiz və Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri ABŞ-yə səfər zamanı bu şəxslə görüşüb və müzakirə aparıb. Milli Məclis ABŞ Konqresi ilə təmasları bu yöndə davam etdirir. Həmin komitədə 28 respublikaçı üzv, 23 demokrat var. Lakin komitədəki demokratlar arasında Azərbaycan əleyhinə layihələrin həmmüəllifləri və müəllifləri olan Bred Şerman, Cim Kosta, Dina Titus, Coaqin Castro, Ted Lieu və digər şəxslər yer alır. Onlar layihəni əngəlləmək üçün dəridən-qabıqdan çıxacaqlar", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ-nin qanunverici orqanının qərar qəbul etmək prosesi olduqca qarışıqdır və müxtəlif maraqlı qruplar bu məsələyə daim əngəl törədirlər. Konqresdən keçən qanun və proqramların dayandırılması olduqca çətindir. Bundan fərqli olaraq, 5 ildən bir dəyişən prezidentlərin imzaladığı sərəncamlar növbəti sələfi tərəfindən asanlıqla dəyişdirilə və ya ləğv edilə bilir. Konqresin səsverməsindən keçən sənədlər isə daha rezistentdir, çünki güclü lobbi qruplarının maraqları qərarların ləğvinə mane olur.

Onun sözlərinə görə, daha həlledici bir məqam ABŞ-də bu il noyabrın 26-da təyin edilmiş aralıq seçkilərdir: "Bu, prezidentin dördillik səlahiyyət müddətinin ortasında keçirilən federal seçkilərdir. Aralıq seçkilərdə seçicilər Konqresin Nümayəndələr Palatasının bütün 435 üzvü, ABŞ Senatının təxminən üçdəbiri üçün səs verir. Bu seçkilər Konqresə hansı partiyanın nəzarət edəcəyini müəyyən edir. Bizim üçün vacib olan respublikaçıların mütləq əksəriyyətinin hər iki palatada üstünlük təşkil etməsidir. Əgər noyabrın 26-dək 907-ci düzəliş ləğv olunmasa, aralıq seçkilərini gözləməli olacağıq".

P.Vəliyeva vurğulayıb ki, Prezident Donald Tramp aralıq seçkilərlə bağlı ictimai rəyi qazanmaq üçün müsbət fon yaratmaqda həm daxili, həm də xarici siyasətdə fenomenal dəyişikliklər etməyə davam edir. Onun bu müddət ərzində yaradacağı müsbət fon aralıq seçkilərinin taleyini həll edəcək. Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində 907 saylı düzəlişin icrası Prezident Tramp tərəfindən dayandırılsa da, ölkəmiz bunun tam ləğvini gözləyir. Dövlətimiz bu günədək ən çətin missiya və məqsədlərin öhdəsindən layiqincə gəlib. Azərbaycanın qətiyyətli diplomatiyası 907-ci düzəlişin ləğvinə də nail olacaq.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan dünya neft bazarında qiymətlərin sabit olmasında maraqlıdır

**İranda baş verən son hadisələr dünya iqtisadiyyatına, xüsusən neft bazarına da təsirsiz ötüşməyib. Dünya neft bazarındakı dalğalanmalar nəticəsində Azərbaycan neftinin qiymətində artım müşahidə olunur. Belə ki, ötən günün məlumatına əsasən, "Azeri Light" markalı Azərbaycan neftinin qiyməti 100 dolları ötüb.**



Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, neftin dünya bazarında son artımları məhz ABŞ-İran müharibəsi, eyni zamanda coğrafiyanın potensial riski ilə bağlıdır. Bir müddət öncə neftin qiyməti hər barel üçün 60-70 dollar arasında dəyişirdi. "Bir tərəfdən, Hörmüz boğazı vasitəsilə enerji məhsullarının daşınmasındakı çətinliklər, digər tərəfdən Körfəz ölkələrində hasilatın azaldılması ilə bağlı qəbul edilən qərarlar neftin dünya bazarındakı qiymətinə birbaşa təsir göstərir. Qiymətlərdə artımlar müşahidə edirik. Bu dinamika və qiymət artımının müddəti birbaşa müharibənin hansı müddəti əhatə etməsi, həmçinin coğrafiyada baş verən hadisələrdən asılı olacaq", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, müharibə nəticəsində, xüsusilə Səudiyyə Ərəbistanı və bir sıra Körfəz ölkələrində neft infrastrukturunun zədələnməsi müşahidə olunur. Bu kontekstdən yanaşsaq, ABŞ-İran müharibəsi başa çatdıqdan bir müddət sonra da neftin qiymətində kəskin azalmaların olacağı gözlənilmir. Bu, müəyyən zaman tələb edəcək.

V.Bayramov vurğulayıb ki, neftin dünya bazarında qiymətinə iqtisadi faktorlarla yanaşı, siyasi faktorlar da təsir göstərir: "Xüsusən regiondakı hadisələrin müddəti ilə bağlı fərqli proqnozların təqdim olunması investorlarda müəyyən tərəddüdlər formalaşdırır. Neft təklifində azalmalar müşahidə olunur. Bu da, təbii ki, neft bazarındakı tarazlığa birbaşa təsir göstərir".

Azərbaycanın neft hasil və ixrac edən ölkə olduğunu diqqətə çatdıran deputat bildirib ki, neftin dünya bazarında qiymətinin artması Azərbaycanın dövlət gəlirlərinə də təsir göstərir. Azərbaycanın 2026-cı il üçün dövlət gəlirləri, xüsusən neft satışından əldə edilən valyutanın həcmi proqnozlaşdırılandan daha çox olacaq. Çünki bu, birbaşa neft bazarındakı mövcud qiymət dəyişmələri ilə bağlıdır. Dövlət büdcəsində 2026-cı il üçün bir barel neftin qiyməti 65 dollar nəzərdə tutulmuşdu. "Həm hazırda, həm də bu ilin ilk iki ayında neftin dünya bazarında qiyməti nəzərdə tutulandan daha yüksək olub ki, bu da büdcə daxilolmalarının artmasına, həmçinin Dövlət Neft Fondunun valyuta ehtiyatlarının çoxalmasına imkan yaradacaq. Bununla belə Azərbaycan neft bazarında iqtisadi faktorlara əsaslanır və daha sabit qiymətlərin olmasında maraqlıdır", - deyə deputat deyib.

V.Bayramov qeyd edib ki, Azərbaycan regionda sülh və əməkdaşlığı dəstəkləyən ölkədir. Bütövlükdə iqtisadi faktorlara əsaslanan, dayanıqlı və stabil qiymətlərin olması daha arzuolunandır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Azərbaycanın xarici siyasətində Sülh Şurası yeni istiqamət kimi

**Müasir dünya nizamında transformasiyalar turbulent xarakter daşıyır. Başqa sözlə, onlar özlərində ziddiyyətləri, mürəkkəblikləri və gözlənilməzlikləri ehtiva edirlər. Bu zaman qeyri-müəyyən risklər və çağırışlar dünyanın inkişaf perspektivlərinə ciddi əngəllər törədə bilər.**

Belə bir vəziyyət politologiyada yeni "normallıq" və ya yeni "anormallıq" anlayışlarının tədqiqini aktuallaşdırır. Yeni dünya düzəni indiki mərhələ üçün "normal" sayılan, lakin tarixi-siyasi rakursda "anormal" olan parametrlərdənmi formalaşır? Bu sualın cavablandırılması əhəmiyyətlidir. Çünki o, yalnız cari situasiyaya aid deyil, həm də strateji qeyri-sabitliyə təkan verir. Geosiyasi aspektdə strateji qeyri-sabitlik isə milli dövlətçilik qarşısında prinsipial çətinliklər yarada bilər.

Məsələnin digər tərəfi müstəqil dövlətlərin xarici siyasət kursunun qlobal geosiyasi düzənin formalaşmasında rolunun daha da artması ilə bağlıdır. Xüsusilə dünyanın ən həssas regionlarının liderlərinin xarici siyasətlərinin mahiyyəti, məzmun və məqsədləri ciddi əhəmiyyət kəsb edir. Baş verən proseslər göstərir ki, Azərbaycanın xarici siyasəti vurğulanan istiqamətdə getdikcə daha böyük əhəmiyyət kəsb edir. Bunu konkret faktlar üzrə görmək olar. Öncə son dövrlərdə dünya siyasətində önə çıxan bir sıra toplantılara və orada aparılan müzakirələrin geosiyasi kontekstinə nəzər salaq.

## Beynəlxalq düzənin "dağılma prosesi"

2026-cı ilin fevralında Münxen Təhlükəsizlik Konfransı üçün hazırlanan məruzədə birmənalı vurğulanmışdır: "İkinci Dünya müharibəsindən sonra qurulan beynəlxalq düzən "dağılma prosesi"nə daxil olmuşdur və ABŞ artıq qlobal sistemin müdafiəçisi deyildir, əksinə, özü onun ləğv edilməsi faktoru olmuşdur".

Ancaq məsələnin daha düşündürücü cəhəti dünyanın özlüyündə dağılma prosesinə düçar olmadığı haqqında fikrin mövcudluğu ilə bağlıdır. Belə ki, həmin məruzədə göstərilir ki, "dünya dağılma siyasəti dövrünə qədəm qoymuşdur". Buradan maraqlı sual yaranır: "Dağılma siyasəti nə deməkdir və onu hansı dairələr aparırlar?"

Məruzədə göstərilir ki, onu "buldozer Vaşinqton" aparır və mahiyyəti beynəlxalq hüquq və institutları inkar etməklə dünyanın universal normalar məkanından "güclülərin və zənginlərin sözləri"nin hökmranlığı meydanına çevirməkdən ibarətdir. "Pax Americana" dövrü başa çatır.

Lakin ekspertlər başqa bir məqama da diqqət yetirirlər. Onlar ABŞ-nin Dövlət katibi Marko Rubionun Münxendə faktiki olaraq "Avropanın yaralarına məlhəm qoyduğu"nu vurğulayırlar. Yəni o, vitse-prezident Cey Di Vensdən fərqli olaraq, Vaşinqtonun "qapılarını tamamilə Brüsselin üzünə qapatmadığı" mesajını vermişdir. Bununla yanaşı, dəhlizlərdə avropalı siyasətçilər pıçıldaşırmışlar ki, "Amerikaya etibar etmək olmaz!" Sosial sorğuların nəticələri kimi göstərirlər ki, almanların 66 faizi, britaniyalıların 52 faizi ABŞ-ni NATO-da daha az etibar olunan müttəfiq adlandırmışlar. Almanların 72 faizi, fransızların isə 63 faizi Donald Trampın apardığı siyasətin onların ölkələrinə zərər verdiyini ifadə etmişdir. Almaniyanın kansleri Fridrix Mers isə "ABŞ ilə dostluğu pozmadan D.Tramp idarəetməsini "yola vermək" və sonra Avropanın özünün müdafiə sistemini yaratmaq" kimi daha yığcam bir fikir səsləndirmişdir.

Qərb siyasətçilərinin və ekspertlərinin qarşılıqlı ittihamedici fikirləri və dünya düzəninin dağılması ilə bağlı proqnozların daha çox müzakirə edilməsi Münxen Təhlükəsizlik Konfransının başlıca mövzusu deyildi. Orada enerji təhlükəsizliyi də əsas müzakirə predmetlərindən biri idi. Ayrılıqda "açıq dəhlizlər siyasəti" diqqət mərkəzində olmuşdur. Bunun fonunda "Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" müzakirə edilmişdir. Bu iki mövzu bir-biri ilə sıx bağlıdır. Eyni zamanda onların kompleks halda reallaşmasında Azərbaycanın yeri və rolu diqqət mərkəzində olmuşdur.

Daha geniş kontekstdə yanaşdıqda hər bir müstəqil dövlətin Münxen Təhlükəsizlik Konfransına öz xarici siyasət kursunun əsas məqsədlərinə uyğun mövqe ilə qatıldığını arxa plana atmaq olmaz. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin məqsədini bu müstəvidə olduqca dəqiq ifadə etmişdir. Ölkəmizin rəhbəri Münxendə Azərbaycan jurnalistlərinə verdiyi müsahibədə vurğulamışdır: "Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt - yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır".

Bütün bunlar müasir qlobal geosiyasətin mövcud mənzərəsi fonunda Azərbaycanın xarici siyasətində əməkdaşlıq, sülh və təhlükəsizlik məsələlərinə sistemli yanaşmanın daha doğru olduğunu əks etdirir. O cümlədən Sülh Şurasının qurucu dövlətlərindən biri kimi Azərbaycanın indiki mərhələdə xarici siyasətinin başlıca özəlliklərinin təhlili xüsusi aktuallıq kəsb edir. Bunun üçün Münxendən sonra Serbiyaya səfər edən Prezident İlham Əliyevin xarici siyasət aspektində ifadə etdiyi fikirlərə nəzər salmağa ehtiyac vardır. Çünki onlar yeni mərhələdə Azərbaycanın xarici siyasətində sülh və əməkdaşlığın tutduğu yerlə bağlı bir sıra məqamlara aydınlıq gətirir.

## Sürətli dəyişkənlik və gözlənilməz ssenarilər

Azərbaycanın xarici siyasətinin Avropa istiqaməti üçün yüksək əhəmiyyətli məqamlar mövcuddur. Onların bir qismi haqqında Prezident İlham Əliyev 15-16 fevral 2026-cı il Belqrad səfərində bəhs etmişdir. Bizim üçün əhəmiyyətli məqamlardan biri ondan ibarətdir ki, dövlət başçısı dünyada müşahidə olunan sürətli dəyişikliklər fonunda xarici siyasətin səmərəliliyini şərtləndirən amilləri ön plana çıxarır. Burada gözlənilməz ssenarilərin nəzərə alınması xarici siyasətin məzmununa və prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verir. Belə çıxır ki, sürətli dəyişikliklər fonunda xarici siyasətdə risk və gözlənilməz situasiyaların nəzərə alınması məharətli yanaşma tələb edir.

Azərbaycan Prezidenti məhz bu səbəbdən Avropa istiqamətində siyasətdə davamlı əməkdaşlığa xüsusi önəm verir. Bu tezisin əsaslı olduğunu ölkə rəhbərinin sürətli dəyişiklik və gözlənilməzlik faktoru fonunda vurğuladığı fikirlər də təsdiq edir.

Dövlət başçısı demişdir: "Prezident Vuçiç elektrik stansiyasının tikintisini qeyd etdi. Hesab edirəm ki, bu, bizim enerji sektorunda əməkdaşlığımızı necə şaxələndirdiyimizin vacib göstəricisidir. Biz qaz əməkdaşlığından başladıq, indi isə növbəti mərhələyə - bu qazın yekun məhsul olan elektrik enerjisinə çevrilməsi məqsədilə hər iki tərəf üçün maksimal səmərəliliklə necə istifadə olunmasına keçid edirik. Bu, Azərbaycanın son illərdə Avropaya əsas investisiya qoyuluşlarından biri olacaq. Bu, həmçinin yüksəksəviyyəli qarşılıqlı etimadı nümayiş etdirir".

Bu fikirləri biz ümumilikdə Azərbaycanın xarici siyasətinin bir mühüm və strateji xarakterli xüsusiyyətinə aydınlıq gətirmək üçün təqdim edirik. Yəni məsələ yalnız Serbiya ilə əlaqəli deyil, burada söhbət Azərbaycan Prezidentinin xarici siyasət kursunun mahiyyətindən gedir. Prezident İlham Əliyev hər bir situasiyada, o cümlədən yüksək riskli və böhranlı vəziyyətlərdə belə əməkdaşlıqla təhlükəsizliyin vəhdətində konstruktiv təşəbbüslər irəli sürür və həmin istiqamətdə də konkret addımlar atır.

Bu tezisin işığında Azərbaycanın dövlət başçısının Münxen konfransından Serbiyaya strateji əməkdaşlıq məsələlərini müzakirə etməyə keçməsi və oradan da tarixi hadisə olan Sülh Şurasının ilk toplantısına qatılması davamlı və məqsədyönlü fəaliyyətin təzahürü kimi qiymətləndirilməlidir.

## Hüquqi inamsızlıq və məsuliyyət

Həm ümumilikdə Sülh Şurasının, həm də Prezident İlham Əliyevin Sülh Şurasının Vaşinqtondakı ilk iclasında iştirakının geosiyasi mənasını tam dərk etmək üçün ölkəmizin rəhbərinin bir fikrinə nəzər yetirmək gərəkdir. Münxendə Azərbaycan jurnalistlərinə verdiyi müsahibədə dövlətimizin başçısı Sülh Şurasının yaradılması ilə bağlı demişdir: "Bilirsiniz, əgər xatırlayırsınızsa, mən bu haqda danışmışam, ola bilsin təfərrüatı ilə yox, amma ümumiyyətlə, demişəm ki, beynəlxalq hüquq artıq etibarlı deyil. Ölkələr, bir çox ölkələr ona sadəcə məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq probleminizi həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü".

Sülh Şurasında qurucu üzvlərdən biri kimi təmsil olunmaq Azərbaycanın xarici siyasətinin çox ciddi uğurudur. Bununla Azərbaycan son 300 illik tarixində ilk dəfə beynəlxalq miqyasda söz sahibi olmaq iddiasında olan bir qurumun təsisçilərindən - qurucu üzvlərindən biri statusunda çıxış edir. Söhbət sülh, əməkdaşlıq və təhlükəsizlik istiqamətlərində dünya miyqasında təsir imkanlarına malik olan bir qurumdan gedir. Bu xüsusiyyət artıq Sülh Şurasının ilk sammitində özünü göstərməli idi. Azərbaycan lideri bununla bağlı demişdir: "Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir".

Belə görünür ki, Sülh Şurasının məqsədləri çox genişdir. Bu qurumda dövlətlərin birgə fəaliyyəti nəticəsində yeni dünya nizamının formalaşması mexanizmləri işlənib hazırlanmalıdır. O, sivil dünyanın münasibətləri olmalıdır və beynəlxalq hüquq prinsipləri üstünlük təşkil etməlidir. Burada Ulu Öndər Heydər Əliyevin 1994-1995-ci illərdə BMT Baş Məclisinin iclaslarında səsləndirdiyi bir tezisi xatırlamaq yerinə düşər. Həmin tezis BMT Təhlükəsizlik Şurasında islahatların aparılması zərurəti ilə bağlı idi. Ümummilli Lider bunun səbəbi kimi böyük dövlətlərin hüquqa deyil, güc faktoruna dayandıqlarını göstərirdi. Belə qənaətə gəlmişdi ki, dünya miqyasında həmin tendensiya davam etsə, bütövlükdə qlobal nizam və BMT-nin özü "iflic" olacaq.

BMT Baş Məclisinin BMT-nin 50 illiyinə həsr edilmiş xüsusi təntənəli iclasındakı nitqində Heydər Əliyev bəyan etmişdi: "…dünya hələ də tam təhlükəsiz, mükəmməl və ideal vəziyyətdə deyildir. Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin aradan qaldırılması, ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionunda qanlı müharibələrə, milyonlarla insanların saysız-hesabsız əzab-əziyyətlərinə səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir".

Deməli, əgər keçən əsrin 90-cı illərində dünyanın böyük gücləri tərəfindən Heydər Əliyevin tövsiyələri nəzərə alınsaydı, indi Vaşinqtonda D.Tramp başda olmaqla çoxlu sayda dövlət başçıları "BMT iflasa uğradı, heç bir iş görə bilmir" deməzdilər.

Reallıq ondan ibarətdir ki, BMT-ni "əzab çəkən nəhəng" kimi "silkələməmək" üçün D.Tramp dünyanın 50 ölkəsinin başçısını bir araya gətirmişdir. 27 ölkə Şuranın qurucularıdırlar və Avropa İttifaqı (Aİ) müşahidəçi statusunda iştirak edir.

Bizcə, məqsəd aydındır. Ona çatmaq üçün də, obrazlı desək, Sülh Şurasının "yeni nizamlayıcı kodlar"a ehtiyacı vardır. Azərbaycan faktoru bu məqamda Sülh Şurası üçün xüsusi əhəmiyyət kəsb edir.

## Yeni düzən kodları

Azərbaycanın xarici siyasətini araşdıran mütəxəssislər və ekspertlər artıq bir sıra parametrlər haqqında onları "kod kateqoriyası"na daxil etməklə danışırlar. Məsələn, "sülh", "suverenlik", "strateji dəhlizlər" kimi faktorlar indi Azərbaycanın xarici siyasətinin yeni nizam yaradan kodları kimi təqdim olunur. Bu sıraya əməkdaşlıq platformalarını, sərbəst enerji gücünü, enerji strategiyasının yeni mərhələsini, sülhsevər dövlət identikliyini, açıq dəhlizlər strategiyasını və başqa faktorları da daxil edə bilərik.

Burada başlıca prinsip ondan ibarətdir ki, Azərbaycan Prezidenti davamlı olaraq vurğulanan anlayışlar da daxil olmaqla sistemli və konseptual siyasəti ilə ölkənin öncə regional lider statusuna, sonra regionlararası aparıcı rola malik orta gücə, daha sonra isə qlobal miqyasda təsiri olan geosiyasi aktora çevrilməsinə nail olmuşdur. Bütün bunlar Azərbaycanın Sülh Şurasının qurucularından biri olmasına imkan yaratmışdır.

Azərbaycan Prezidentinin sülhsevər siyasəti baxdığımız aspektdə dünyada gedən proseslərə çox ciddi təsir göstərməkdədir. ABŞ Prezidenti Donald Tramp bundan çox təsirlənmişdir. TRIPP-ın Azərbaycan Prezidentinin təklif etdiyi beş baza prinsipi əsasında işə salınması haqqında qərarın qəbul edilməsi bunun bariz nümunəsidir.

Bizim üçün çox qürurvericidir ki, dünyanın yeni nizam qaydalarını quranlardan biri də Azərbaycan olacaqdır. Bu, Azərbaycan Prezidentinin dünya miqyasında səmərəli siyasət yürütməsinin əyani sübutudur! Bakı indi həmin səbəbdən regional diplomatiyanın paytaxtlarından biri kimi qəbul edilir! Yalnız enerji marşrutları deyil, diplomatiya yolları da Bakıda kəsişir!

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Yaxın Şərqdəki vəziyyətlə bağlı BƏƏ-dən azərbaycanlıların təxliyəsi davam edir



**Prezident İlham Əliyevin tapşırığına əsasən, Yaxın Şərqdə müharibə vəziyyəti ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi və Dubay şəhərlərində qalmış vətəndaşlarımızın Azərbaycana növbəti təxliyəsi həyata keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, son bir neçə gün ərzində Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) səfirliyimizin və Dubay şəhərindəki baş konsulluğumuzun müvafiq səyləri nəticəsində ölkəmizə geri qayıtmaq niyyətində olan vətəndaşlarımızın siyahıya alınması həyata keçirilib. Daha sonra vətəndaşlarımız diplomatik nümayəndəliklərimiz tərəfindən ayrılmış xüsusi avtobuslarla Omandakı səfirliyimizin də əlaqələndirməsi ilə Oman hava limanına aparılıb və Azərbaycan Hava Yollarının xüsusi təyyarə reysi ilə Azərbaycana yola salınıb.

Qeyd edilən reyslə 195 nəfər Azərbaycan vətəndaşı, 1 nəfər Türkiyə vətəndaşı və 2 nəfər Azərbaycanda yaşayış icazəsi olan xarici ölkə vətəndaşları ölkəmizə geri qayıdır.

"Regiondakı vəziyyət tərəfimizdən diqqətlə izlənməkdədir və vətəndaşlarımızın təhlükəsizliyi prioritet istiqamətlərdəndir", - deyə nazirliyin məlumatında bildirilib.

# Daha bir qrup Azərbaycan vətəndaşının münaqişə bölgəsindən təxliyəsi başa çatıb



**Yaxın Şərq regionunda baş verən hadisələrlə əlaqədar regionda, o cümlədən Birləşmiş Ərəb Əmirliklərində qalan Azərbaycan vətəndaşlarının ölkəyə qayıdışı üçün Oman Sultanlığının Muskat şəhərindən Bakıya növbəti təxliyə reysi həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, AZAL-ın Muskat-Bakı marşrutu üzrə hərəkət edən "Boeing 787 Dreamliner" təyyarəsi Heydər Əliyev Beynəlxalq Aeroportuna enib. Reys vasitəsilə ümumilikdə 200-ə yaxın Azərbaycan vətəndaşı təhlükəsiz şəkildə ölkəyə qaytarılıb.

Hazırda AZAL ölkənin milli aviadaşıyıcısı olaraq müvafiq dövlət qurumları tərəfindən müəyyən edilmiş prosedurlara uyğun olaraq reyslərin təhlükəsiz və planlı şəkildə həyata keçirilməsini təmin edir.

# *Azərbaycana təxliyə olunan vətəndaş:* "Dövlətimiz bizi darda qoymadı"



**"Həqiqətən möhtəşəm və gözlənilməz bir uçuş oldu".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yaxın Şərqdəki münaqişə bölgəsindən Azərbaycana təxliyə olunan Mehdi Heybətov söyləyib.

O deyib: "Fevralın 28-də Əbu-Dabidən Bakıya yola düşdük, lakin təxminən 6 saat yarım havada qaldıqdan sonra bizi yenidən Əbu-Dabi hava limanına qaytardılar. Uçuşumuz alınmadı".

Əbu-Dabidə isə müəyyən çətinliklərlə üzləşdiklərini bildirən Mehdi Heybətov əlavə edib: "Dövlətimiz bizi darda qoymadı. Ölkə rəhbərliyinin tapşırığı və həyata keçirilən təxirəsalınmaz tədbirlər sayəsində yenidən Azərbaycana dönməyimiz təmin olundu. Bu diqqətə görə dövlətimizin başçısı İlham Əliyevə və ölkəmizin Əbu-Dabidəki səfirliyinə dərin minnətdarlığımı bildirirəm. Allah Azərbaycanı və Prezidentimizi qorusun!"

# Dubaydan təxliyə olunan vətəndaş Prezidentə və aidiyyəti qurumlara təşəkkür etdi



**"Müəyyən səbəblərə görə, Dubayda qalmışdıq. Azərbaycan Prezidentinə və aidiyyəti qurumlara göstərdikləri dəstəyə görə dərin minnətdarlığımı bildirirəm".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yaxın Şərqdəki münaqişə bölgəsindən Azərbaycana təxliyə olunan Fəqan Dadaşov söyləyib.

Sağ-salamat Vətənə qayıdan F.Dadaşov bildirib ki, uçuş zamanı hava şəraiti ilə əlaqədar bəzi ləngimələr olsa da, ümumilikdə proses uğurla həyata keçirilib.

# Leyla Əliyeva "Mənzərəyə açılan ev" mövzusunda qrup sərgisində iştirak edib





**Martın 8-də "Gazelli Art House"da "Her Art in Action" festivalının 2026-cı il buraxılışının açılış mərasimi keçirilib.**

Festivalın ilk günündə VarYox incəsənət və mədəniyyət platforması və "Gazelli Art House" Bakı qalereyasının birgə əməkdaşlığı çərçivəsində "Mənzərəyə açılan ev" mövzusunda qrup sərgisinin nümayişinə başlanılıb.

Sərgidə Leyla Əliyevanın da rəsm əsərləri yer alır.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva sərgidə iştirak edib, nümayiş etdirilən əsərlərə baxış keçirib.

Leyla Əliyevaya festival barədə məlumat verilərək bildirilib ki, "Her Art in Action", VarYox incəsənət və mədəniyyət platforması tərəfindən təsis edilərək həyata keçirilən illik proqramdır və incəsənət sahəsində gender bərabərliyinin təşviqinə, mədəni inklüzivliyin artırılmasına, eləcə də Azərbaycanın beynəlxalq mədəni iştirakının gücləndirilməsinə həsr olunub. Bu il mart-may aylarını əhatə edən festival üçaylıq müddətdə Bakı şəhərinin müxtəlif məkanlarında keçiriləcək.

Qeyd olunub ki, üç il ardıcıl keçirilən "Her Art in Action" regionda qadınların yaradıcılığına və millətlərarası mübadiləyə həsr olunmuş nadir festival kimi çıxış edir. Layihə Azərbaycandan və region ölkələrindən, o cümlədən Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə, Gürcüstan, Misir, həmçinin Balkan bölgəsi, İspaniya və Litvadan olan qadınları fəal şəkildə bir araya gətirir.

"Mənzərəyə açılan ev" mövzusu isə evi sabit məkan kimi deyil, qadın təcrübəsi ilə formalaşan dəyişkən bir vəziyyət kimi nəzərdən keçirir. Gündəlik məişət hüdudlarından çıxaraq, mövzu qadınların ictimai və şəxsi həyat, göz önündə olma və təklik, aidiyyət və müqavimət arasındakı gərginlikdə məkanı necə yaratdığını, müəyyən etdiyini, mübarizə apardığını və geri qaytardığını araşdırır.

Tədbir çərçivəsində şəhid anasının doğum günü qeyd olunub, Leyla Əliyeva ona hədiyyə təqdim edib.

Həmçinin sərgi iştirakçıları öz əl işlərindən Leyla Əliyevaya hədiyyə ediblər.







Sonda Leyla Əliyeva "Gazelli Group" şirkətinin təsisçisi və prezidenti Zərifə Həmzəyevanın xatirə guşəsini də ziyarət edib.

Festivalın builki buraxılışının kuratoru, multimedia rəssamı Sitara İbrahimbəyli martın 8-də keçirilən ilk sərgisinin açılışında 27 yerli və xarici rəssamın əsərlərinin nümayiş olunduğunu qeyd edib: "Üçüncü ildir ki, martın 8-də festivalın açılışını edirik. Ümumi üç açılış olacaq. Apreldə 11 nömrəli İnteqrasiya təlimli internat məktəbinin (Bilgəh) şagirdlərinin tanınmış müasir rəssamlarla dialoq əsasında yaradılan birgə sərgisi təşkil olunacaq. Üçüncü layihə isə İçərişəhərdə keçiriləcək və açıq havada fotoqrafiya gecəsi olacaq. Ümumilikdə, üç ay ərzində 50-dən çox rəssamın əl işi sərgilənəcək".

Müstəqil rəssam Kafiyə Eyvazova builki festivala "Pəncərədən baxış" əsəri ilə qatılıb. "Üç ildir festivala qatılıram və ilk dəfədir ki, xalça texnikasında iş təqdim edirəm. Əsər xovlu xalça texnikasında toxunub və insanları ailə strukturunu sorğulamağa dəvət edir. Burada kişi motivləri qadın motivlərini sanki qoruyurmuş kimi görünsə də onu məhdudlaşdırır. Getdikcə qadının üz cizgiləri yox olur. Çünki məhdudiyyət insanın şəxsiyyətini arxa plana salır və görünməz edir. Əsər cəmiyyətimizə qadınlara dəyər verməyi, onları dinləməyi və azadlığını məhdudlaşdırmamağı tövsiyə edir".

Festivala mayın 31-də yekun vurulacaq.

## Tarixi şəxsiyyətlərimizə sahib çıxaq

# "Dünya hərb sənətinin Nadir şah zirvəsi"

**Tariximiz yalnız hadisələrdən ibarət deyil, onun əsas dayaqlarını qoruyan, yaşadan, onun simasını formalaşdıran dahi şəxsiyyətlərimizdir. Nadir şah Əfşar kimi böyük sərkərdələr Azərbaycan türklərinin dünya tarixində iz qoyan nümayəndələridir. Nadir şah Əfşar kimi liderlər yalnız Azərbaycan xalqının deyil, bütün regionun tarixində dərin iz qoymuşdur. Onların həyatı, fəaliyyəti və prinsipiallığı təkcə keçmişimizi anlamaq üçün deyil, eyni zamanda gələcək nəsillərə dəyərlərimizi ötürmək üçün bir örnəkdir. Tarixi şəxsiyyətlərimizə sahib çıxmaq, onları düzgün öyrənmək və qiymətləndirmək hər birimizin vəzifəsidir.**




"Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi çərçivəsində həyata keçirilən tədbirlər - Ümummilli Lider, "Dahi azərbaycanlı Heydər Əliyev"lə başlayan, ulu keçmişimizə "Vətən qeyrətli qadın hökmdarımız - Tomris"lə davam etmiş, orta çağlara və yeni dövrə səyahət edərək "Cavanşir", "Babək", "Atabəy Eldəniz", "Cahan şah", "Uzun Həsən", "Şah İsmayıl", "Şah Təhmasib Səfəvi", "Nadir şah Əfşar", "Ağa Məhəmməd şah Qacar" və neçə-neçə digər tarixi şəxsiyyətimizin təbliğinə həsr edilmiş elmi konfranslar, "dəyirmi masa"lar, ali məktəb tələbələri, orta məktəb şagirdləri ilə görüşlər - akademik Yaqub Mahmudovun həyat fəlsəfəsinin dəyərli istiqaməti olmuş və bu gün də davam etməkdədir.

Bu layihə akademik Yaqub Mahmudov tərəfindən Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin irsini qorumaq, tədqiq etmək və gənc nəslə çatdırmaq məqsədilə həyata keçirilən mühüm təşəbbüs olmuşdur. Belə ki, 2016-cı ildən başlayaraq insanlığın "korona" bəlası - "SARS-CoV-2 virusu" qadağalarına qədər Yaqub müəllim elmi kürsülərdən, yüksək elmi tribunalardan Azərbaycan tarixinin saxtalaşdırılması və görkəmli tarixi şəxsiyyətlərin ləkələnməsi cəhdlərinə qarşı, dövlət xadimlərinin rolunu elmi əsaslarla üzə çıxarmaq uğrunda öz çıxışları ilə mübarizə aparmışdır.

Bu yaxınlarda AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Yaqub Mahmudov və Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Tofiq Mustafazadənin birgə ərsəyə gətirdiyi "Dünya hərb sənətinin Nadir şah zirvəsi" adlı mükəmməl monoqrafiya işıq üzü gördü. Bu monoqrafiya Nadir şah Əfşar şəxsiyyətinin dərindən araşdırılması və bu şəxsiyyətin düzgün qiymətləndirilməsi baxımından bu günədək onun haqqında yazılmış bütün əsərlərdən daha yüksəkdə dayanır. Tədqiqat əsərini, əslində, tarixi şəxsiyyətlərimizə sahib çıxmağımızın əyani sübutu, professor Tofiq Mustafazadənin Rusiya, İran arxivlərindəki uzun sürən elmi axtarışlarının nəticəsi və akademik Yaqub Mahmudovun həyat fəlsəfəsinin zirvəsi hesab etmək mümkündür.

Kitabın elmi redaktoru tarix elmləri doktoru Mehman Süleymanov, elmi məsləhətçiləri Dünya Əfşarlar Dərnəyinin başqanı Şərəf Kocakaya və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev, rəyçiləri ortaəsrşünas alimlər Tahirə Həsənzadə, Güntəkin Nəcəfli və İradə Məmmədova, redaktorları tarixçilər Sevinc Məlikzadə, Elnur Nəciyev və Nazim Xəlilov, dizayner və texniki redaktoru isə riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayevadır.

19 bölümdən ibarət olan "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabında çox mühüm məsələlər öz əksini tapmışdır. Kitabın qələmə alınmasının əsas məqsədi "Ön söz"də vurğulanmışdır: "Dahi şəxsiyyətimiz haqqında bu əsəri qələmə alarkən xüsusilə Qərb və Rusiya tarixşünaslığında yol verilmiş bir ayrı-seçkiliyə münasibət bildirməyi də özümüzə borc bildik. Axı nə səbəbə dünyanın Makedoniyalı İsgəndər, Böyük Pyotr, Napoleon Bonapart kimi bir çox görkəmli tarixi şəxsiyyətlərindən bəhs edərkən Qərb və Rusiya tarixçiləri bu tarixi simaları ancaq müsbət mövqedən qiymətləndirir, lakin Atilla, Əmir Teymur, Sultan Süleyman, Şah Abbas və Nadir şah kimi böyük türk tarixi şəxsiyyətlərini isə yalnız "yırtıcı", "qaniçən" hökmdarlar kimi qələmə verirlər?! Nadir şaha həsr olunmuş bu kitabı yazmaqda əsas məqsədlərimizdən biri də tarixi həqiqəti üzə çıxararaq onu dünyaya məhz dahi Azərbaycan sərkərdəsi kimi tanıtmaqdır. Məlumdur ki, bütün Qərb və Şərq tarixçiləri Nadir şahın mənşəcə türk olduğunu qeyd etsələr də, həmişə onu "İran hökmdarı", "fars sərkərdəsi" kimi qələmə verirlər. Biz ilk mənbələrə əsaslanaraq öz tədqiqatımızda bu stereotipi də qırmağa çalışmışıq".

"Tarixçilər və ilk mənbələr Nadir şah haqqında" adlanan bölümdə müəlliflər Nadir şah haqqında ilk mənbələrin - Şərq və Qərb mənbələrinin, rusdilli arxiv sənədlərinin məlumatlarında və müasir tarixçilərin elmi ictimaiyyətə Nadir şahı necə təqdim etməsi haqqında ətraflı məlumat vermişlər.

Bildiyimiz kimi, sovet dövründə əsasən Azərbaycan tarixşünaslığında Əfşar dövləti və Nadir Əfşarın fəaliyyətinin (1732-1747) tarixi ilə bağlı demək olar ki, ətraflı və dolğun əsərlər yaradılmamışdır. Bəzi müəlliflər isə bu və ya digər problemlərə həsr olunmuş tədqiqatlarında Əfşar dövlətini Azərbaycan deyil, İran dövləti adlandırmış, Azərbaycanın digər görkəmli dövlət xadimləri kimi Nadir Əfşarın da həm hərbi, həm də dövlət quruculuğu sahəsində fəaliyyətini saxtalaşdırmışlar. Nadir şah kimi qüdrətli tarixi şəxsiyyətdən bəhs edərkən bir qayda olaraq onu mənfi şəxsiyyət kimi təqdim etmiş, ona işğalçı, yadelli damğası vurmuşlar.

Müəlliflər düzgün olaraq qeyd edirlər ki, Nadir Əfşarın fəaliyyəti sovet dövrü tarixşünaslığında əsasən marksist-leninçi metodologiya çərçivəsində şərh edilmiş, bu isə onun dövlətçilik təcrübəsinin və siyasi irsinin birtərəfli qiymətləndirilməsinə səbəb olmuşdur. Sovet dövrü tədqiqatlarında Nadir şahın dahiliyi etiraf edilsə də, ona qarşı birtərəfli münasibət özünü göstərməkdədir. Həmin əsərlərdə Nadir şahın qazandığı mühüm qələbələrdən, onun dünya hərb tarixinə gətirdiyi yeniliklərdən fərqli olaraq rastlaşdığı və düçar olduğu çətinliklərin qabardılmasına daha çox cəhd olunmuşdur.

Müəlliflər 1958-ci ildə Moskvada çap edilmiş erməniəsilli sovet müəllifləri Marianna Arunova və Klara Əşrəfyanın birbaşa Nadir şah Əfşar dövlətinin tarixinin tədqiqinə həsr edilmiş (Арунова М., Ашрафян К. Государство Надир-шаха Афшара: Очерки общественных отношений в Иране 30-40-х годов XVIII века. Инс-т Востоковедения Академии Наук СССР. Москва, "Изд-во вост. лит.", 1958.) əsərindən ətraflı bəhs edərək, yeri gəldikcə bu tədqiqatın düzgün tənqidi qiymətini də vermişlər. Müəlliflər Əfşar dövlətinin tarixi ilə bağlı Şərq mənbələrini və Qərbi Avropa alimlərinin əsərlərini də tədqiqata cəlb edə bilmiş, o cümlədən Nadir şah dövrünün mənbəyi hesab olunan Məhəmməd Kazımın "Tarixi aləmarayi Nadiri" əsərindən kifayət qədər faydalana bilmişlər. Əsərdə Nadir şah imperiyasının yaranması və genişlənməsi barədə mühüm məlumatlar verilsə də, müəlliflərin Nadir şahı demək olar ki, hər addımda kiçiltməyə cəhd etdiyini izləmək mümkündür. Nadir şahı talançı və vəhşi obrazında təqdim edən müəlliflər fəslin yekununda belə qənaətə gəlirlər ki, bu görkəmli şəxsiyyət, sən demə, hərbçi kimi də tərifəlayiq deyilmiş. Guya onu "Şərqin Napoleonu" adlandıranlar, yaxud Makedoniyalı İsgəndərlə müqayisə edənlər də ciddi mübaliğəyə yol vermişlər.

Kitabda tarixi mənbələrdə Nadir şah haqqında bəzi təhrif edilmiş məlumatların, onun haqqında yanlış iddiaların səslənməsinə səbəb olduğu xüsusi vurğulanır, ciddi elmi araşdırmalarla bütün bunların, sadəcə, məqsədli iddialardan ibarət olduğu öz təsdiqini tapır.

Növbəti bölümdə Nadir şahın hakimiyyətə gəlməsi ərəfəsində "Səfəvi dövlətinin vəziyyəti" - iqtisadi çöküş, 1722-ci ildə əfqan müdaxiləçiləri tərəfindən ölkənin paytaxtı İsfahanın ələ keçirilməsi, Səfəvi dövlətinin şimal və qərb torpaqlarının Rusiya və Osmanlı dövlətləri arasında bölüşdürülməsi, 1724-cü il İstanbul müqaviləsi, Əfqan müdaxiləçilərinin İstanbul müqaviləsinə daxil edilməmiş Səfəvi torpaqlarında möhkəmlənmək uğrunda mübarizəsi yeni faktlarla təqdim edilmişdir. Həmin bölümdə "Dahi sərkərdənin çətin gənclik illəri, ilk hərbi uğurları və hakimiyyət zirvəsinə yüksəlişi" yolunda onun ağır keçən uşaqlıq və gənclik illərinin həyat dərsləri; Nadirin özünü şah elan etmiş şahzadə II Təhmasib Səfəvi ilə birləşməsi və Məşhəd şəhərini alması, əfqan müdaxiləçiləri üzərində mühüm qələbələri, o cümlədən Herat qələbəsi, İsfahanın azad olunması və əfqan müdaxiləsinə son qoyulması; Nadirin işğal olunmuş Səfəvi torpaqlarını azad etmək üçün osmanlılara qarşı müharibəyə başlaması; Abdali əfqanlarını itaət altına alması, II Təhmasibin osmanlılara qarşı hərbi əməliyyatlarda məğlubiyyəti və hakimiyyətdən kənarlaşdırılması və s. məsələləri əks etdirən kifayət qədər ilkin mənbələr və rusdilli arxiv sənədləri tarixçi alimlərimiz tərəfindən tədqiqata cəlb edilərək oxunaqlı bir dildə oxuculara çatdırılır.

Digər bölümdə dahi sərkərdənin hakimiyyət başında olarkən gördüyü mühüm işlər - işğal olunmuş Səfəvi torpaqlarını azad etmək üçün Osmanlı imperiyasına qarşı müharibəni davam etdirməsi; II Təhmasib dövründəki məğlubiyyətə möhtəşəm qələbə ilə cavab verməsi; Məhəmməd xan Bəluc qiyamının yatırması; Qafqaz yürüşləri ilə Osmanlılara qarşı mübarizənin yeni mərhələsinin başlanması; Muğan qurultayı və Nadirin şah seçilməsi kimi məsələlər ətraflı şəkildə təqdim edilmişdir.

Müəlliflər Nadir şahın ordu quruculuğundan bəhs edərək onun muzdla xidmət edən və birbaşa mərkəzi hakimiyyətə tabe olan güclü vahid ordu yaratmaq siyasətini, yaratdığı Əfşarlar imperiyasını dünyanın qüdrətli dəniz dövlətinə çevirmək üçün gördüyü mühüm tədbirləri və bu sahədə qazandığı uğurları mühüm faktlarla təqdim edə bilmişlər. Bu bölümdə Qəndəhara çətin yürüş, şəhərin mühasirəsi və böyük sərkərdənin parlaq qələbəsi, Dahi sərkərdənin Qəndəharı aldığı gün İslamda məzhəb ayrılığına qarşı açıq savaşa başlaması, Nadir şahın Hindistan səfəri - Kabulun alınması, Nadir şahın Hindistan səfərinə çıxarkən oğluna nəsihəti, Cəlalabaddan Dehliyə yürüşün görünməmiş çətinlikləri və parlaq Karnal qələbəsi, Hindistan fatehinin Dehlidə qarşılanması kimi məsələləri də izləmək mümkündür.

Kitabda dahi sərkərdənin Türküstan yürüşü; Nadir şahın böyük elçiliyinin Rusiya sarayında təmtəraqlı şəkildə qəbul edilməsi, Dağıstana növbəti yürüşlə əlaqədar Rusiya ilə münasibətlərin gərginləşməsi və burada baş verən ümumxalq narazılıqları, mərkəzi hakimiyyətə qarşı iğtişaşlar təqdim edilmişdir.

Dahi sərkərdənin "Osmanlı İmperiyası ilə müharibələrin başa çatması"ndan sora gördüyü işlər, həll etməyə çalışdığı mühüm məsələlr, o cümlədən, Nadir şahın Türk-İşlam dünyasında məzhəb ayrılığının, sünnü-şiə ədavətinin aradan qaldırılmasına yönəlmiş sonuncu təşəbbüsü - "Nəcəf vəsiqəsi" haqqında ətraflı məlumat verilmişdir.

Kitabın növbəti bölümündə Nadir şahın Osmanlılara qarşı yeni uğurlu hərbi əməliyyatlara başlanması və bu zaman mərkəzi hakimiyyətə qarşı baş verən üsyanlar, bu yeni iğtişaşlar səbəbindən hərbi əməliyyatların dayandırılması; daha sonra Osmanlılara qarşı hərbi əməliyyatların davam etdirilməsi və Muradtəpə qələbəsi; mərkəzi hakimiyyətə qarşı üsyanların yeni dalğası və imperiyanın süqutu ərəfəsində olan gərgin vəziyyət öz əksini tapmışdır.

"Dünya tarixində Nadir şah şəxsiyyəti" adlanan son fəsildə Nadir şahın heyrətamiz fiziki və mənəvi keyfiyyətləri, dünya hərb sənəti tarixinin Nadir şahı və şahın ailəsi kimi maraqlı məsələlər öz əksini tapmışdır.

"Son söz" - "Tariximizdə Nadir şah faciəsi, onun ağır nəticələri və ibrət dərsləri" ("Ön söz"ün davamı)" adlı bölümdə dünya nadirşünaslığı tarixində ilk dəfə olaraq Nadir şahın yaxın ətrafı tərəfindən öz çadırında qətlə yetirilməsinin Azərbaycan tarixi üçün ağır nəticələri açıqlanmış və düzgün qiymətini almışdır:

"Nadir şahın 1747-ci ildə qətlə yetirilməsi Azərbaycan tarixinin ən ağır faciələrindən biridir. 1747-ci il qətli ilə sadə xalq içərisindən çıxmış və sülalə mənsubiyyətinə görə deyil, fitri hərbi istedadı, igidliyi, qəhrəmanlıqları ilə misilsiz sərkərdə və müdrik hökmdar səviyyəsinə yüksəlmiş təkrarsız dahinin həyat çırağı söndürüldü. Nadir şahın qətlə yetirilməsilə süquta uğramış və torpaqları yadelli təcavüzkarlar tərəfindən bölüşdürülmüş Azərbaycan Səfəvi imperiyasını bərpa etməyi bacaran, Səfəvilərdən daha böyük bir imperiya - Əfşarlar imperiyasını yaradan, tarixə Hindistan fatehi kimi daxil olan dahi sərkərdənin həyatına son qoyuldu.

1747-ci il qətli ilə ümumdünya tarixi inkişaf prosesində tarixin gedişini dəyişməyə nail olan ən qüdrətli şəxsiyyətlərdən biri məhv edildi. Əgər bütün ömrünü yadelli təcavüzkarlara qarşı müharibələrdə keçirən Nadir şahın parlaq qələbələri olmasaydı, ərazisi bütünlüklə qonşu imperiyalar və əfqan müdaxiləçiləri tərəfindən bölüşdürülmüş böyük Səfəvi imperiyasına daxil olan ölkələrin, habelə bütövlükdə Yaxın və Orta Şərqin sonrakı tarixi tamamilə başqa istiqamətdə inkişaf edəcəkdi" (s.409).

Kitabın "Ön söz"ündə təqdim edilən fəlsəfi və çox hikmətli bir sual bu gün hamımızı düşündürməlidir: "Nadir şahı amansızlıqda, kütləvi qırğınlar törətməkdə suçlayanlar yanılırlar. Bu, həqiqət deyil! Həqiqət budur ki, Nadir şahın kütləvi qırğınlar törətməsi barədə ilk mənbələrdə heç bir məlumata rast gəlinmir. Lakin dahi sərkərdə Vətən torpağını işğalçılardan təmizləmək naminə keçirdiyi döyüşlər zamanı qorxaqlıq göstərənlərə, fərarilərə, satqınlara, mərkəzi hakimiyyətə qarşı çıxanlara, qiyamçılara qarşı amansız idi və belələrini cəzalandırırdı. Bunsuz Dərbənddən Türküstanın və Hindistanın içərilərinə, Hind okeanı sahillərinə qədər uzanıb gedən, geniş əraziləri əhatə edən böyük bir imperiyanı əldə saxlamaq mümkün idimi?!"

Nadir şah haqqında obyektiv araşdırmaların aparılması və "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kimi əsərlərin yazılması bu gün öz torpaqlarını 30 illik düşmən işğalından qurtarmış bir ölkənin vətəndaşlarına, əsasən də gənclərimizə bu şəxsiyyəti daha obyektiv qiymətləndirmək imkanı verir.

*Güntəkin NƏCƏFLİ,*
*tarix elmləri doktoru,*
*Dövlət mükafatı laureatı*

# İqtisadiyyat və sosial həyat

## "Şahdəniz" Azərbaycan qaz sənayesinin şah damarıdır

### Cio Kristofoli: "Yaxın zamanlar bu yataqda daha genişmiqyaslı işlər görüləcək"

**Hazırda Azərbaycan 16 ölkəyə qaz ixrac edir və bu, əsasən "Şahdəniz" yatağından hasil olunan mavi yanacaqdır. Bir həftə əvvəl Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantısında Prezident İlham Əliyev həmin faktı bir daha vurğulamışdır.**




"Biz bununla fəxr edirik", - deyə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli jurnalistlər üçün keçirdiyi brifinqdə bildirdi. Belə ki, "Şahdəniz" layihəsinin operatoru BP-dir və şirkətin biznesinin böyük bir hissəsini bu yataq təşkil edir. "Şahdəniz"in etibarlılıq dərəcəsi, yəni fasiləsiz işləmək qabiliyyəti də qürur doğurur.

C.Kristofoli onu da dedi ki, "Şahdəniz" həmçinin şəxsən onun üçün əzizdir. Axı vətəni İtaliya buradan ən çox qaz idxal edən ölkələrdəndir. Bu ölkənin qaza olan tələbatının 10 faizini məhz həmin yataq ödəyir.

Qeyd edək ki, "Şahdəniz"in uğurları ilə yanaşı, perspektivləri də çoxdur. Təkcə 2025-ci ildə yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından təqribən 27 milyard standart kubmetr qaz və təxminən 4 milyon ton (təqribən 32 milyon barel) kondensat hasil edilib.

Yaxın zamanlarda burada geniş miqyasda işlər görüləcək. Məsələn, yatağın işlənməsinin ikinci mərhələsi çərçivəsində qalan altı quyu qazılacaq. Bu da təbii ki, hasilatın artırılmasına imkan verəcək.

"Şahdəniz"in növbəti mərhələsi barədə də geniş bəhs edildi. Bu, əvvəlki iki mərhələnin davamı olacaq. "Şahdəniz Kompressiya" adlanan bu layihə yataqdan aşağıtəzyiqli qaz ehtiyatlarının hasilatını və maksimum qazvermə əmsalına nail olunmasını təmin etmək üçün dənizdə yeni bir platformanın və əlaqədar qurğuların quraşdırılmasından ibarətdir. "Şahdəniz Kompressiya" platforması "Şahdəniz Bravo" platformasından təxminən 3 kilometr və "Şahdəniz Alfa" platformasından təxminən 10 kilometr məsafədə, suyun dərinliyi təqribən 85 metr olan sahədə yerləşəcək. Hazırda layihə üzrə işlər nəzərdə tutulan qrafikə uyğun irəliləyir.

Yeni "Şahdəniz Kompressiya" platforması elektriklə işləyən bir qurğu olacaq. Onun üzərində qurulan kompressorlar vasitəsilə laylara təsir azaldılacaq və nəticədə daha çox qaz əldə ediləcək.

Xatırladaq ki, bu il "Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasının (HPBS) 30 ili tamam olacaq. Saziş 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanmışdı. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minmişdi.

"Şahdəniz" 1999-cu ildə kəşf edildi. Bu yatağın kəşf edilməsi və işlənməsi Azərbaycanın regional və beynəlxalq miqyasda iri qaz təchizatçısı kimi artan rolunu gücləndirərək ölkəmizin qarşıdan gələn onilliklər ərzində neft və qaz gəlirlərinin artmasına zəmin yaratdı. Bu layihə Azərbaycanı böyük həcmli birbaşa xarici investisiya ilə təmin etdi və ölkə iqtisadiyyatının daha da güclənməsinə təkan verdi.

Azərbaycan quruda yerləşən yeni obyektlərə, dəniz qurğularına və ixrac infrastrukturuna sahib oldu. Bunların hamısı qabaqcıl texnologiyalardan istifadə etməklə beynəlxalq standartlara uyğun inşa edildi.

"Şahdəniz" qazı 2006-cı ilin sonundan Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Gürcüstana, 2007-ci ilin yayından isə Bakı-Tbilisi-Ərzurum kəməri ilə Türkiyəyə ixrac olunur.

2018-ci ilin mayında istifadəyə verilən "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi məhz "Şahdəniz" yatağıdır. 3500 kilometr məsafə boyu uzanan dəhliz üç kəmərdən - CQBK, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarətdir. TANAP Azərbaycan qazını 2018-ci ilin iyunundan daşıyır. Qazı Avropaya çatdıran TAP isə 2020-ci ilin son günündə istismara daxil olub. Bu, "Cənub qaz dəhlizi"nin tam bir sistem kimi işə düşməsi demək idi.

"Cənub qaz dəhlizi"nin tamamlanması nəticəsində "Şahdəniz" Xəzərdən minlərlə kilometr uzaqda yerləşən Avropa istehlakçılarını qazla təmin etməklə "qoca qitə" üçün yeni enerji təchizatı mənbəyinə çevrildi. Başqa sözlə, "Şahdəniz" qazından güc alan bu dəhliz Avropanın enerji xəritəsini yenidən cızdı.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## FAO dünya üzrə ərzağın son qiymətləri barədə rəqəmləri açıqlayıb

### Buğda, bitki yağları, ət bahalaşıb, süd və süd məhsulları ucuzlaşıb

**Dünyada baş verən siyasi-hərbi qarşıdurmalar, regional münaqişələr, ölkələrin bir-birilərinə tətbiq etdikləri iqtisadi sanksiyalar qlobal iqtisadiyyata təsirsiz ötüşmür. İnvestisiya qoyuluşunun azalması, maliyyə resurslarının iqtisadiyyata cəlb edilməsi prosesindəki boşluqlar istehsal və təchizat zəncirini yaman günə qoyur.**

Qlobal səviyyədə baş verən bu neqativ proseslər ərzaq qiymətlərinin bahalaşmasına da səbəb olur. Qiymət artımı isə təkcə iqtisadi-sosial yox, həm də birbaşa siyasi məsələdir. Xüsusən də bu tendensiya ildən-ilə güclənirsə.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ərzaq qiymətləri üzrə son illər üzrə təqdim etdiyi rəqəmlərə nəzər salaq. FAO-nun fevral ayı üçün açıqladığı Ərzaq Qiymətləri İndeksi orta hesabla 125,3 bənd olub ki, bu da yanvar ayı ilə müqayisədə 0,9 faiz və ya 1,1 bənd çoxdur. Təşkilatın məlumatına görə, ötən ay ət və bitki yağlarının bahalaşması faizi süd məhsulları və şəkərdəki qiymət azalması faizini üstələyib. Nəticədə indeks ardıcıl 5 aylıq enişdən sonra ilk dəfə yüksəlib. Bununla belə, mövcud göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 bənd - 1 faiz, 2022-ci ilin martında çatdığı pik nöqtədən isə 34,9 bənd - 21,8 faiz aşağıdır.

Ötən ay Taxıl Qiymətləri İndeksi 1,1 bənd (1,1 faiz) artaraq 108,6 bəndə yüksəlib. Artımda dünya buğda qiymətlərinin 1,8 faiz bahalaşması mühüm rol oynayıb ki, buna da ilk növbədə Avropa və ABŞ-dəki əlverişsiz hava şəraiti, Rusiyadakı logistik fasilələr və Qara dəniz regionundakı gərginlik təsir göstərib. Eyni zamanda arpa kotirovkaları Çinin Avstraliya tədarükündə olan hesabına möhkəmlənib. FAO-nun bütün düyü növləri üzrə qiymət indeksi isə Basmati və Yaponiya sortlarına olan davamlı tələbin dəstəyilə 0,4 faiz artıb.

Bitki yağı sektorunda daha kəskin artım müşahidə olunub. FAO Bitki Yağı Qiymətləri İndeksi aylıq 3,3 faiz (5,6 bənd) artaraq 2022-ci ilin iyunundan bəri ən yüksək səviyyəyə (174,2 bənd) çatıb. Artım palma, soya və raps yağlarının bahalaşması hesabına baş verib ki, bu da günəbaxan yağı kotirovkalarındakı azalmanı kompensasiya edib. Palma yağı istehsalın mövsümi azalması, soya yağı isə ABŞ-nin bioyanacaq siyasəti ilə bağlı gözləntilər fonunda bahalaşıb. Raps yağı Kanada tədarükünə olan güclü tələblə yüksəlsə də, günəbaxan yağı artan ixrac tədarükü hesabına mülayim şəkildə ucuzlaşıb.

FAO Ət Qiymətləri indeksi fevralda 0,8 faiz (1 bənd) artaraq 126,2 bənd olub. Bu sahədə ən diqqətçəkən məqam qoyun əti qiymətlərinin Okeaniyadan məhdud ixrac səbəbindən yeni rekord həddə çatmasıdır. Mal əti kotirovkaları Çin və ABŞ-nin güclü satınalma marağı ilə dəstəklənib, donuz və quş əti qiymətlərində isə təklif bolluğu fonunda cüzi artım qeyd edilib.

Əks istiqamətdə isə süd məhsulları və şəkər qiymətləri ucuzlaşmağa davam edib. FAO Süd Məhsulları İndeksi yanvarla müqayisədə 1,2 faiz (1,4 bənd) azalaraq 119,3 bənd təşkil edib ki, bu da bir il əvvəlki səviyyədən 28,4 bənd (19,2 faiz) aşağı deməkdir. Azalma əsasən Avropa İttifaqında süd tədarükünün artması və pendir qiymətlərinin düşməsi ilə bağlıdır.

FAO Şəkər Qiymətləri İndeksi fevralda orta hesabla 86,2 bənd təşkil edib və bu, yanvar ayı ilə müqayisədə 4,1 faiz (3,7 bənd), bir il əvvəllə müqayisədə isə 27,3 faiz (32,4 bənd) aşağıdır. Bu, ardıcıl ikinci aylıq eniş və 2020-ci ilin oktyabrından bəri ən aşağı səviyyədir.

Qlobal tədarükün bol olacağı gözləntiləri və ABŞ-də rekord istehsal proqnozu Hindistan və Braziliyadakı istehsal azalmalarından qaynaqlanan qiymət artımı təzyiqini tamamilə kompensasiya edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycan neftinin qiyməti 103 dolları ötüb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**




"Azeri Light" markalı neftin bir barelinin qiyməti 8,41 dollar və ya 8,9 faiz artaraq 103,03 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

"Şəhərsalma və Memarlıq İli"

## Dəniz sahilində, göydələnlər arasında

### Bakı Qərbin Dubayı, Dubay Şərqin Bakısıdır

**Şəhərsalma insan cəmiyyətinin inkişafında mühüm rol oynayan prosesdir. Bu, yalnız yeni binaların və infrastrukturların inşası deyil, eyni zamanda şəhərin funksional, estetik və sosial tələblərə uyğun şəkildə planlaşdırılmasıdır. Müasir şəhərlər sürətli iqtisadi inkişaf və əhali artımı fonunda planlaşdırma məsələlərinə daha çox diqqət yetirirlər.**

Bakı və Dubay şəhərləri bu baxımdan maraqlı nümunələrdir. Hər iki şəhər enerji və maliyyə resurslarından istifadə edərək qısa müddətdə iqtisadiyyatda, eləcə də şəhərsalma və memarlıq sahəsində ciddi irəliləyiş əldə edib. Şəhərsalma prinsiplərinin tətbiqi bu şəhərlərin simasını müəyyənləşdirib və onların urbanizasiyadan dolayı inkişaf istiqamətini formalaşdırıb. Şəhərsalma şəhərin funksional bölgələrə bölünməsi, ictimai məkanların təşkili, nəqliyyat şəbəkələrinin qurulması və ətraf mühitin qorunması kimi aspektləri də əhatə edir.

Bu kontekstdə Bakı və Dubay şəhərsalma işlərini planlı şəkildə, müasir memarlıq layihələri və iqtisadi resursların infrastruktura yönəldilməsi əsasında həyata keçirir. Hər iki şəhərdə iqtisadi və inzibati mərkəzlər şəhərin əsas bölgələrində yerləşir və inkişafın qalan hissəsinə nümunə olur. Bakı neft-qaz gəlirlərini, Dubay isə neft gəlirləri ilə yanaşı, həm də qlobal investisiyaları şəhərsalma layihələrinə yönəldərək infrastrukturun sürətli inkişafını təmin edib. Göydələnlər, ticarət mərkəzləri və memarlıq nümunələri Bakının və Dubayın görünüşünü dəyişdirib. Eyni zamanda ictimai məkanların təşkili, müasir nəqliyyat şəbəkələrinin qurulması və ekoloji tarazlığın qorunması şəhərsalmanın ayrılmaz hissəsi kimi bu şəhərlərin inkişafını daha funksional və komfortlu hala gətirib. Bakı bulvarı yerli sakinlərə və turistlərə geniş istirahət imkanları təqdim edir və şəhərin dəniz mənzərəsini daha gözəl göstərir. Dubayda isə Miracle Garden, Dubai Marina və Jumeirah Beach Park kimi istirahət mərkəzləri şəhər sakinlərinə və ziyarətçilərə açıq havada əyləncə və təbiət təcrübəsi yaşadır, urbanizasiyanın sosial aspektlərini ön plana çıxarır.

Sadalanan bu oxşarlıqlara baxmyaraq Bakının da, Dubayın da şəhərsalma və urbanizasiya prosesində müəyyən fərqlər mövcuddur. Bakı tarixi şəhər mərkəzi və memarlıq irsi ilə zəngindir, Dubay isə qısa müddətdə müasir, qeyri-adi və rekord layihələr üzərində inkişaf edib. Dubay daha sürətli və planlı şəkildə, böyük və görkəmli layihələr əsasında formalaşıb. Bakı isə tarixə və qədim tikililərə hörmətlə yanaşaraq tədricən modernləşmə yolu seçib. Məsələn, Dubayda hündürlüyü 828 metr olan Bürc Xəlifə





dünyanın ən hündür binası olaraq möhtəşəm şəhər mənzərəsini, Palm Jumeirah isə xurma formalı süni ada kimi lüks həyat və dəniz istirahətini təqdim edir. Yeri gəlmişkən, Dubayın görkəmli memarlıq simvollarından olan Bürc Xəlifənin tikilmə tarixçəsi də çox maraqlıdır. Onun ərsəyə gəlməsi üçün 6 il zaman sərf olunub və burada hər gün 12 min fəhlə çalışıb. Göydələn 80 kilometr uzaqlıqdan görünür, lakin bu nəhəng binanın ən yüksək mərtəbəsindən günəşin batmasını izləmək daha gözəldir. 2010-cu ildə açılışından bir qədər əvvəl Bürc Dubay (hərfi mənada Dubay Qülləsi) adlanırdı, sonralar Əbu-Dabi əmiri və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə ibn Zayed Əl Nəhayanın şərəfinə binanın adı Bürc Xəlifə adlandırıldı.

Bakı şəhəri isə Alov Qüllələri ilə yanaşı, Heydər Əliyev Mərkəzi, "SOCAR Tower" və "Port Baku Towers" kimi nəhəng və müasir tikililəri ilə də diqqət çəkir. Heydər Əliyev Mərkəzi qeyri-adi dizaynı ilə şəhərin mədəni simasını zənginləşdirir, "SOCAR Tower" və "Port Baku Towers" isə iqtisadi və biznes mərkəzlərinin formalaşmasına xidmət edir. "Four Seasons" Hotel Baku və digər müasir komplekslər şəhərin panoramasına lüks və müasir bir görünüş qatır. Bu tikililər urbanizasiya prosesində Bakının sürətli modernləşməsini və şəhər landşaftının dəyişməsini simvolizə edir, həmçinin şəhərin həm tarixi, həm də müasir memarlıq harmoniyasının qorunmasına imkan yaradır. Bir amili xüsusi vurğulamalıyıq ki, Dubay səhralıq mühitində su resursları və infrastruktur məsələlərinə fokuslanır, Bakı isə Xəzər dənizi sahilində nisbətən rütubətli mühitə uyğun şəhərsalma aparır.

Təqdim etdiyimiz müqayisə göstərir ki, şəhərsalma prinsipləri oxşar əsaslara söykənsə də, hər şəhərin inkişaf modelində fərqli prioritetlər və strategiyalar özünü göstərir. Bu yanaşmaların hər iki şəhərin urbanizasiya prosesinə necə təsir etdiyini isə daha yaxından müşahidə etmək mümkündür. Bakı və Dubayda qısa müddətdə tikilən yeni yollar, körpülər, metro şəbəkəsinin genişlənməsi və ticarət mərkəzləri sürətli urbanizasiyanın əsas göstəriciləridir. Bu şəhərlər enerji resurslarının yaratdığı iqtisadi imkanlardan istifadə edərək qısa müddətdə müasir memarlıq, geniş infrastruktur və qlobal iqtisadi əlaqələr baxımından böyük inkişaf yolu keçib. Dubayda şəhər planlaşdırması zamanı böyük ticarət və əyləncə mərkəzlərinin inşası iqtisadi cəlbediciliyi artırıb, Bakı isə həm tarixi, həm də müasir məkanların balansını qoruyaraq urbanizasiyanın sosial aspektlərinə diqqət göstərib.

Bununla yanaşı, sürətli urbanizasiya hər iki şəhərdə müəyyən problemlər yaradıb. Əhalinin sürətli artımı, nəqliyyat sıxlığı, ekoloji problemlər və sosial infrastrukturun genişləndirilməsi kimi məsələlər urbanizasiya prosesinin əsas problemləri hesab olunur. Qeyd edək ki, urbanizasiyanın Bakıya və Dubaya qazandırdığı təcrübə göstərir ki, düzgün iqtisadi strategiya və planlaşdırma nəticəsində istənilən şəhər qısa müddətdə regional və qlobal mərkəzə çevrilə bilər.

Bakı və Dubayın təcrübəsi göstərir ki, şəhərsalma və urban inkişaf yalnız iqtisadi imkanlarla deyil, həm də tarixi, sosial və ekoloji aspektləri nəzərə alaraq planlaşdırıldıqda həm funksional, həm də estetik cəhətdən uğurlu nəticələr əldə etmək mümkündür. Bu müqayisə digər şəhərlərə inkişaf və şəhərsalma strategiyalarını müəyyənləşdirmək üçün faydalı nümunə ola bilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Xızı və Abşeronda yerləşən quşçuluq müəssisələrinin fəaliyyəti müzakirə edilib

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Xızı və Abşeron rayonlarındakı quşçuluq müəssisələrinin fəaliyyəti ilə tanış olub.**



Əvvəlcə Xızı rayonunda yerləşən süfrə yumurtaları və ətlik quş əti istehsalı istiqamətində ixtisaslaşan "Giləzi-quşçuluq şirkəti" MMC və "Yaşma Quşçuluq" MMC-yə baş çəkən nazirə müəssisələrdə görülən işlər barədə məlumat verilib, quşçuluğun inkişafı, sənaye üsulu ilə quş əti istehsalında mövcud vəziyyət, istehsal prosesinin daha da təkmilləşdirilməsi, quş əti istehsalında müasir texnologiyaların tətbiqi məsələləri müzakirə edilib.

Daha sonra nazir Xəzər rayonu Zirə qəsəbəsində damazlıq yumurta istehsalı ilə məşğul olan "Xəmsə-M" MMC quşçuluq müəssisəsinin və inkubator sexinin fəaliyyəti ilə tanış olub. Nazirə müəssisənin mövcud vəziyyəti, quşçuluq təsərrüfatlarında dayanıqlı istehsalın təmin edilməsi, məhsuldarlığın artırılması, istehsalda istifadə olunan texnoloji avadanlıqlar və istehsal olunan məhsullar barədə məlumat verilib.

Görüşlərdə quşçuluqda istehsalın və ixracın artırılması istiqamətində görülən işlər və atılacaq addımlar müzakirə olunub, istehsalda yeni texnika və müasir texnologiyaların tətbiq edilməsi, quşçuluqda düzgün yem norması və yemləmə standartlarının müəyyən edilməsinin məhsuldarlığa və xəstəliklərə davamlılığa göstərdiyi təsir, kəsim və emal proseslərində beynəlxalq tələblərə uyğunluğun vacibliyi, bu sahədə kadr potensialının gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

## AFAQ layihəsi çərçivəsində Füzulinin qadın fermerlərinə avadanlıqlar verilib

**Füzuli rayonunda Aqrar Tədarük və Təchizat ASC-nin təşkilatçılığı, PAŞA Holdinqin maliyyə dəstəyi ilə "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" ("AFAQ") layihəsi çərçivəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xanım fermerlərlə görüş keçirilib.**

Görüşün əsas məqsədi kənd təsərrüfatının inkişafına töhfə verən qadın fermerlərin iqtisadi fəallığının artırılmasına, eləcə də onların bilik və bacarıqlarının gücləndirilməsinə dəstək göstərmək olub.

Layihə çərçivəsində Füzuli rayonunda fəaliyyət göstərən "Zəfəran" və "Şamama" qadın qruplarına avadanlıq dəstəyi göstərilib. Bu çərçivədə 30 qadın fermer avadanlıq dəstəyi ilə təmin olunub. Bununla yanaşı, Aqrar Xidmətlər Agentliyinin təlimçi dəstəyi ilə inkubator avadanlığından istifadə üzrə praktik təlim təşkil edilib. Təlim zamanı iştirakçılara avadanlığın düzgün istismarı, məhsuldarlığın artırılması və istehsal prosesində keyfiyyət standartlarının qorunması ilə bağlı praktiki biliklər verilib. 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində keçirilən bu görüşü yüksək qiymətləndirən qadın fermerlər bildiriblər ki, kənd yerlərində qadın sahibkarlığının təşviqinə və onların iqtisadi müstəqilliyinin gücləndirilməsinə verilən bu töhfə onların fəaliyyətini daha da stimullaşdırır.



Qeyd edək ki, AFAQ layihəsi qadınların kənd təsərrüfatında rolunun gücləndirilməsi, onların məşğulluq imkanlarının artırılması və sosial-iqtisadi rifahının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

*L.QULİYEV, "Azərbaycan"*

# Pambıqçıların işi qurtaran deyil

### Bir yanda xam pambığın emalı davam edir, bir yanda da sahələr əkinə hazırlanır, yaz aratı üçün suvarma kanalları çəkilir

**Pambıq strateji əhəmiyyətli bitkidir. Pambıqçılıq isə əməktutumlu sahədir. Muğan, Mil, Aran Qarabağ bölgələrində minlərlə fermer bu gün də pambıq əkib-becərməklə məşğuldur.**

Prezident İham Əliyevin bir neçə il öncə pambıqçılığın dirçəldilməsi ilə bağlı imzaladığı sərəncamlar kənd təsərrüfatının sözügedən sahəsində böyük dönüş nöqtəsi oldu. Pambığın istehsalı, tədarükü, emalı ilə məşğul olan yeni müəssisələr yaradıldı. Bu gün onlar bağlanmış müqaviləyə əsasən, əkindən tutmuş yığıma kimi fermerləri toxum, mineral gübrələr, texnika və maddi vəsaitlə təmin edirlər. Həmin müəssisələrin ərazilər üzrə fəaliyyət göstərən sahə rəisləri, sahə aqronomları hər zaman fermerlərin yanında olur, onlara lazımi tövsiyə və məsləhətlərini verirlər.

Pambıq əkib-becərənlərə dövlət tərəfindən verilən subsidiyalar isə bu sahəyə marağı daha da artırıb. O səbəbdən pambıq yetişdirən fermerlərin sayı ilbəil nəzərəçarpan dərəcədə artır. Onu da qeyd edək ki, pambıq həm də digər bitkilər üçün ən yaxşı sələfdir. Belə ki, növbəli əkinin tətbiqi nəticəsində bitkilər xəstəliklərə qarşı davamlı olur, yoluxmur və daha məhsuldar olur.

Yola saldığımız 2025-ci təsərrüfat ilində salyanlı pambıqçılar 33 min 927,8 ton məhsul istehsal etmişlər. Hər hektardan ortalama 36,1 sentner məhsul yığılmışdır. Bu göstərici ilə Salyan Azərbaycanda ən çox pambıq istehsal edən 5 rayondan biri olmuşdur.

Məlumdur ki, pambıq həm də ölkəmizə valyuta gətirir. Ondan hazırlanan yüksəkkeyfiyyətli mahlıc xarici ölkələrin şirkətləri tərəfindən razılıqla alınır.



Hazırda emal müəssisələrində bu işlə məşğuldurlar. Belə müəssisələrdən biri də "PRİME Cotton" MMC-nin Salyan filialıdır.

Filial keçən il 393 fermerdən 11 min 709 ton xam pambıq təhvil götürüb. Bu da hər hektardan 43,8 sentner məhsul deməkdir. İstehsalat şöbəsinin rəisi Əliskəndər Əliyev deyir ki, bu, son illərin ən yüksək göstəticisidir. Onunla birlikdə mahlıc istehsal olunan sexə daxil oluruq. Pambıq tayalarının nəyə görə az gözə dəydiyinin səbəbini soruşuruq. "Artıq məhsulun 80 faizini emal etmişik", - deyə cavab verir.

İrəlidə fırlanan irihəcmli barabanlardan qalxan toz dumanını külək qovub aparır. Burada iş prinsipi belədir: tayalardakı pambıq hava sovurması ilə talvarlara ötürülür. Talvarlarda çalışan fəhlələr həmin məhsulları yenə də havasovurucu borularla həmin irihəcmli borulara ötürürlər. Burada xam pambıq istilikdə qurudularaq dediyimiz sovurma yolu ulə təmizləmə sexinə göndərilir. Təmizləmə sexində işləyən qurğular sahədən gətirilərək tayalara vurulan pambığı belə demək mümkünsə, zir-zibildən təmizləyir. Növbəti mərhələ isə pambığın çiyiddən ayrılması, didilməsi prosesidir. Əvvəlki yolla bura gələn pambıq ötürücü yolla presləmə sexinə göndərilir. İşin yekunlaşdığı bu sexi müəssisənin ürəyi də adlandırmaq mümkündür. Mahlıc halına gətirilən məhsul burada xüsusi qurğuda yüksək təzyiq altında kipləşdirilir. Ağ rəngli bez parçasına bələnən və xüsusi məftillə bağlanan kiplər laboratoriya müayinəsindən keçirildikdən, çəkildikdən və nömrələndikdən sonra transportyorlarla hazır məhsulların yığıldığı anbara yığılır.



MMC-nin Salyan filialında indiyədək emal edilən 9 min ton xam pambıqdan 3 min 883 ton yüksəkkeyfiyyətli mahlıc, 73 ton lint, 62 ton ulyuk və 4 min 580 ton çiyid alınıb. Satışa gedən 2 min 178 ton mahlıc əsasən qardaş Türkiyənin şirkətləri və eləcə də Mingəçevir və Sumqayıtdakı müəssisələr tərəfindən alınıb. Çiyid isə həm Şirvan şəhərindəki Yağ-Piy Kombinatına göndərilir, həm də pərakəndə ticarət şəbəkələrinə verilir.

İki növbədə çalışan kollektiv emalı aprel ayının ortalarınadək başa çatdırmağı planlaşdırıb. Kollektivdə təcrübəli, qabaqcıl işçilər çoxdur. Baş presləyici Əjdər Əliyev, presləyici köməkçiləri Vidadi Rzayev, Yasər Xankişiyev, laborant Şahinə Qarayeva, növbə rəisi İlkin Bayramov, operatorlar Səxavət Kərimov, Rövşən Qarayev belələrindəndir.

Filial tərəfindən cari il 2 min 900 hektarda pambıq əkib-becərmək üçün 414 nəfər fermerlə müqavilə bağlanılıb. Hazırda sahələr əkinə hazırlanır, yaz aratı üçün suvarma kanalları çəkilir, digər işlər həyata keçirilir. Ağırtonlu TIR maşınları isə Türkiyədən lifsiz çiyid toxumları, ammafos gübrəsi daşıyıb gətirir.

*Seyran CAVADOV, "Azərbaycan"*

# Tovuzlu əkinçilərin çörəyi "ikinci çörək"dən çıxır

**Tovuzlu fermerlər hava şəraitinin əlverişli keçməsindən istifadə edərək builki əkinə vaxtından əvvəl başlamışlar. Rayonun aran ərazisində hazırda əkin işləri sürətlə davam edir. Dağlıq ərazilərdə isə əkin prosesinə havalar bir qədər mülayimləşdikdən sonra başlanacaq.**

Fermerlərin dediklərinə görə, əkin zamanı əsasən yerli sortlara üstünlük verirlər. "Telman", "Əmiri", "Vaqif", "Çənlibel", "Uğur", "Turan" belə sortlardır. Paralel olaraq xarici - "Orkestra", "Arizona", "Anna Karaleva", "Silvanna", "Ariya" da əkinçilərin istifadə etdikləri sortlar sırasındadır.

Keçən il olduğu kimi, bu il də "Tovuz Aqrokompleks", "AzərAqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-lər kartof əkinində fərqlənirlər. Bu təsərrüfatların hər biri 94 hektarda kartof əkməyi planlaşdırmışdır. Bundan başqa, fiziki şəxslər Ədalət Məhərrəmov 70, Mehman İsgəndərov 23, Sakit Hüseynov 21, Nazilə İmamverdiyeva 14,7 hektarda əkin aparırlar. Yeri gəlmişkən xatırladaq ki, keçən il 4492 hektarda kartof əkən tovuzlular hər hektardan 304,5 sentner olmaqla ümumilikdə 136803 ton məhsul götürmüşlər. Bu rəqəmi yeniləmək üçün rayon fermerləri cari ildə əkin sahələrini bir qədər də genişləndirməyi məqsəd qoymuşlar. Qərara almışlar ki, 5000 hektardan çox sahədə kartof əksinlər. İndiyədək 900 hektar sahədə kartof əkini başa çatdırılmışdır.





Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazov söhbət zamanı dedi ki, ötən illərdən fərqli olaraq, builki əkinlərin 90 faizi texnikanın köməyi ilə aparılır: "Kartofsəpən texnikanın təxminən 100 nəfərin bir həftəyə görə biləcəyi işi bir gündə yerinə yetirməsini nəzərə alsaq, bunun nə qədər sərfəli olduğunu yəqin etmək çətin deyil. Texnika hesabına əl əməyinin azalması məhsulun maya dəyərini də aşağı salır. Bundan başqa, texnika ilə becərilən sahələrdə məhsuldarlıq da yüksək olur. Odur ki, rayonumuzda fəaliyyət göstərən təsərrüfatlar kartofun əkilməsindən tutmuş çıxarılmasınadək bütün işləri texnika ilə həyata keçirməyə üstülük verirlər".

Rayonda ən çox kartof əkilən kəndlərdən biri Əyyubludur. Kənddə 3 mindən çox təsərrüfat var və əhalinin əksəriyyəti kartofçuluqla məşğuldur. Burada 2 min hektar əkin sahəsinin 1000 hektarında kartof əkilir. İstehsal olunan kartofun bir hissəsi satılır, bir hissəsi isə sonradan daha sərfəli qiymətə satmaq üçün kənddəki soyuducu anbarda saxlanılır.

Əyyubluda kartof istehsalında fərqlənən təcrübəli fermerlərdən biri Fərrux Qurbanovdur. O, hər il yetişdirdiyi kartofun satışından götürdüyü qazancla dolanışığını artıqlaması ilə təmin edir. Fermer keçən il də sahələrdən bol məhsul götürmüşdür. Hər hektardan 250 sentner məhsul götürməklə xeyli qazanc əldə etmişdir.

Məhəmməd Əliyev də hər il bol məhsul yetişdirir. Onun 1 hektar pay torpağı, 2 hektar icarəyə götürdüyü torpaq sahəsi var. Hər il bu torpaqlardan 80 tona yaxın məhsul toplayır. Cari mövsüm əkin sahəsini bir qədər də genişləndirərək 6 hektarda kartof əkini aparır. Fermer əmindir ki, bu il də qazancı yüksək olacaq. Çünki bazarda yerli məhsulun alıcısı başının üstündədir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Xankəndidə xanım sahibkarların iştirakı ilə sərgi-tədbir keçirilib

**Xankəndi şəhərində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ölkənin 20-yə yaxın müxtəlif regionundan olan xanım sahibkarların iştirakı ilə "Qarabağda regional xanımların gücü" adlı sərgi-tədbir keçirilib.**

Qarabağ Təlim Mərkəzi ("Karabakh Training Center") tərəfindən təşkil olunan sərginin əsas məqsədi regionlarda fəaliyyət göstərən xanım sahibkarlara dəstək olmaq, onların biznesini Qarabağda tanıtmaq və azad edilmiş ərazilərdə yeni biznes imkanlarını stimullaşdırmaqdır.

Sərgidə Xankəndi, Şuşa, Xocalı, Ağdam, Naxçıvan, Gəncə, Lənkəran, Tovuz, Quba, Mingəçevir, Masallı, Qəbələ, Qax, Bərdə, Şəki və Ağsu regionlarından olan xanım sahibkarlar iştirak ediblər. AZƏRTAC xəbər verir ki, iştirakçılar öz regionlarının milli mətbəxini, tarixi atributlarını nümayiş etdirməklə yanaşı, öz biznes məhsullarının satış və təqdimat sərgisini həyata keçiriblər.

Tədbirin rəsmi açılış hissəsində Qarabağ Ərazi Vergi İdarəsi, KOBİA və Dövlət Məşğulluq Agentliyinin nümayəndələri iştirak edərək, xanım sahibkarlarla birbaşa dialoq qurublar. Sahibkarlara işğaldan azad olunmuş torpaqlarda tətbiq edilən dövlət güzəştləri, vergi azad olunmaları və digər dəstək mexanizmləri barədə ətraflı məlumat verilib. Eyni zamanda Xankəndi Ticarət Mərkəzinin rəhbərliyi tədbirdə iştirak edən bütün xanım sahibkarlara mərkəzdə obyekt icarəyə götürmək üçün xüsusi güzəştlərin tətbiq ediləcəyi barədə müjdə verərək, onlara Qarabağda öz bizneslərini qurmaq üçün real imkanlar təklif edib.

Qarabağ Təlim Mərkəzinin təsisçisi və direktoru Aytən Məmmədova tədbirdə çıxış edərək deyib: "Qarabağ Təlim Mərkəzinin əsas hədəfi işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişinə və bu regionda dayanıqlı inkişafa töhfə verməkdir. Biz bu məqsədlə gənclər və tələbələr üçün "Startup school Karabakh" və "Gələcəyə körpü Qarabağ" kimi bir sıra mühüm layihələr həyata keçiririk. Bugünkü sərgi isə xanım sahibkarlarımızın potensialını Qarabağa köçürmək, onların regionlararası işgüzar əlaqələrini gücləndirmək üçün mühüm platformadır".

Tədbirin tərəfdaşlarından olan "Carlsberg Azerbaijan" şirkətinin Korporariv Ünsiyyətlər Departamentinin direktoru Lalə Əfəndi isə qadın sahibkarlar üçün Qarabağda yaradılan imkandan məmnunluğunu bildirib: "Sevindirici haldır ki, Qarabağın dirçəlməsində və dayanıqlı inkişafında qadın sahibkarların da payı olacaq. Burada yaradılan şərait və güzəşt imkanları da bu işə dəstəyi artırır. Azərbaycan qadınının zərif toxunuşu ilə bölgənin çiçəklənməsinin sürətlənəcəyinə əminəm. "Carlsberg Azerbaijan" olaraq bu layihəyə dəstək olmaqdan qürur duyuruq".

Tədbirin tərəfdaşları qismində "Carlsberg Azerbaijan" və "Karabakh Eco Tour", sponsorları qismində isə "Qranit" şirkəti, "Kübar" restoranı və "CAHAN Hotel" çıxış edirlər.

Qeyd edək ki, Qarabağ Təlim Mərkəzi regionun intellektual potensialının artırılması və peşəkar kadr hazırlığı məqsədilə 2025-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəzin əsas fəaliyyət istiqaməti müasir əmək bazarının tələblərinə uyğun olaraq, müxtəlif sahələr üzrə ixtisasartırma kurslarının, şəxsi inkişaf proqramlarının və korporativ təlimlərin təşkilidir. Yüksəkixtisaslı mütəxəssisləri və innovativ tədris metodikalarını bir araya gətirən mərkəz həm fərdi şəxslərin, həm də qurumların rəqabətədavamlılığının təmin edilməsinə xidmət edir.








**Novruz çərşənbələrinin üçüncüsü olan Yel çərşənbəsi el arasında "Küləkli çərşənbə", "Külək oyadan çərşənbə", "Yelli çərşənbə", "Badi (külək) çərşənbə", "Nəfəs çərşənbə" və digər adlarla da tanınır. Bu çərşənbədə oyanan külək Yer üzünü gəzir, artıq oyanmış suyu, odu hərəkətə gətirir. Gün ərzində küləklər bir neçə dəfə dəyişir ki, bu da onun təmizlənməsi kimi qəbul edilir. İsti-soyuq küləklərin əsməsi isə artıq yazın gəlişindən xəbər verir.**

# Yel çərşənbəsi – təbiətin görünməz ruhu

Dünya xalqlarının mifik düşüncəsində küləklə bağlı müxtəlif süjetlər yaranmışdır ki, həmin mətnlərdə küləyin səciyyəviliyi və funksiyaları diqqəti cəlb edir. Yunan miflərində dörd cür külək var: birincisi, qərb küləyi Zefirdir. Onun atası Titan Astreydir ("ulduzlu səma"), anası isə səhər şəfəqi ilahəsi Eosdur. İkincisi, şimal küləyi olan Boreydir. O, qanadlı, uzunsaçlı, saqqallı təsvir edilir. Məskəni zülmət və soyuğun hökm sürdüyü Trakiyadır və o, çox vaxt erkək at şəklində təsəvvür olunur. Üçüncüsü, cənub küləyi Notdur. O da saqqallı və qanadlıdır. Zefir, Borey və Not qardaşdırlar, hamısı Eola tabedir. Dördüncüsü, cənub-şərq küləyi Evrdir. Onun mənşəyi məlum deyil və antropomorfik özəllikləri yoxdur.

Şumer və Babil miflərində Külək tanrıları və ya ruhları həm yaradıcı, həm də dağıdıcı qüvvə kimi, bəzən də tanrıların qəzəbinin əlaməti kimi qəbul olunurdu. Skandinaviya xalqlarının mifik mətnlərində külək müharibə, səyahət və macəra rəmzidir. Şimali Amerikanın yerli xalqları küləyi əcdad ruhları ilə bağlayaraq həm qoruyucu, həm də gələcəkdən xəbər verən qüvvə kimi qəbul edirdilər. Yəhudi mifik düşüncəsində əsas Tanrı olan Yəhva və ya Elohim küləyə çevrilərək bir anda dünyanı dolaşır.

Türk xalqlarının mifik təsəvvürlərinə görə, qara nəhrdə yatmış dörd cür külək əvvəlcə Yer üzünə çıxıb özü təmizlənir, sonra hər biri fərqli libasda özünü göstərir. Küləyin libasları ilə xarakteri arasında da oxşarlıq vardır. Burada rənglərin mifik mənaları xüsusilə önəmlidir. Məsələn, Ağ yel ağ, Qara yel qara, Xəzri göy, Gilavar qırmızı libaslarda xarakterizə edilir.

Yel-külək həm də Tanrı səviyyəsində təzahür olunmuşdur. Dini mənbələr və səmavi kitablarda külək dünyanı idarə edən Tanrı hesab olunur, yaxud da Allah tərəfindən göndərilən bir antropomorf kimi təsəvvür edilir. Məsələn, Məhəmməd peyğəmbər buyurub: "Külək Allahın qullarına bir nemətidir. Bəzən insanlara rəhmət, bəzən də əzab gətirir. Külək olduğu zaman ona söyməyin, onun xeyrini istəyin, şərindən də Allaha sığının, başqa sözlə külək Allahın əmrindəndir".

Quranın "Əhqaf" ("Qumsal təpələr") surəsinin 24-cü ayəsində küləyin dağıdıcı gücü ilə bağlı bir əhvalata işarə edilir: "Bir zamanlar Allaha şərik qoşan Ad qövmünün yanına Allah Hud peyğəmbəri göndərdi ki, onları düz yola gətirsin, lakin bu alınmayanda Allah Ad qövmünün üzərinə "sarsar" deyilən məhvedici bir rüzgar göndərdi, yeddi gecə və səkkiz gün davam edən bu soyuq qasırğa həmin tayfanı Yer üzündən sildi".

İslam dinində dörd böyük mələkdən biri Mikayıla təbiət hadisələrini - yağışın yağmasını, küləyin əsməsini, yaşıllığın bitməsini idarə etmək Allah tərəfindən buyrulmuşdur.

Külək havanın üfüqi istiqamətdə hərəkətidir. Əgər külək olmasaydı, isti ərazilər həmişə isti, soyuq ərazilər isə hər zaman soyuq olardı, yəni hava hərəkət etməzdi. Elmdə daimi, mövsümi və hakim küləklər küləyin növləri kimi müəyyən olunub. Cəhətlərin adı ilə adlandırılan küləklərin yerli adları da mövcuddur: Ağ yel - qara yel, Xəzri, Gilavar. Rənglərin hər birinin öz semantik mənası vardır. Dilimizdə külək anlayışını ifadə edən sözlər kiçik məna çaları ilə bir-birindən seçilir. Məsələn, səmum - səhralarda əsən çox şiddətli isti və quru küləkdir, nəsim - yüngül, səba - şimal - şərqdən əsən yüngül və xəfif mehlərdir. Rüzgar, boğanaq və s. kəlmələr də külək anlayışlarını ifadə edir.

Klassik ədəbiyyatımızda "badi-səba" bir obraza çevrilib konkret funksiya daşımış, poeziyada gənclərin bir-birinə sözünü çatdırmaq vəzifəsini "badi-səba"nın ("səhər küləyi") üzərinə qoyulmuşdur.

Dini rəvayətə görə, Yel-Hava Allahın insan yaradarkən onun cisminə üfürdüyü nəfəsini - insanın ruhunu təcəssüm etdirir. Əcdadlarimizin təsəvvüründə ruh-can insan bədənini quş cildində tərk edir. Hava - səma can quşlarının "Ata-baba" ruhlarının əbədi məskənidir. Nağıl və dastanlarımızda da ruh-can göyərçin şəklində təsvir edilir. Təsadüfi deyidir ki, el-oba içində göyərçin toxunulmaz və müqəddəs quş sayılır, onu öldürmək böyük günahdır, ətini yemək isə yasaqdır. Yel çərşənbəsində quş saxlayanlar ilk dəfə qısa müddətə də olsa, göyərçinləri havaya buraxardılar. Bazarlarda qəfəslərdə çöldən ovlanmış quşlar satılardı, günahlarını yumaq, savab qazanmaq istəyənlər həmin quşları satın alıb qəfəsdən açıb buraxardılar. Bu zaman deyərdilər ki, "Azad - bezat, məni cənnətdə gözət". Bu çərşənbədə "külək oyatmaq" mərasimi də keçirilərdi. Mərasim zamanı cavanlar kağızdan böyük çərpələnglər hazırlayar, dam və hündür təpələrin başından uçurardılar. Onlar xüsusi funksiya daşıyırdı. Bəzən onun üzərinə Tanrıya şikayət məktubu və yaxud xahişnamələr "göndərənlər" də olurdu. Yel çərşənbəsində həm də külək əsmədikdə onu çağırmaq məqsədilə çərpələngdən istifadə edilirdi. Meydançanın ortasında yerə basdırılmış dirəyə çərpələng asılar, dörd-beş nəfər yelpiklərlə çərpələngi yavaşca hərəkətə gətirmək üçün belə oxuyardılar:

*Yel babam, yelli babam,*
*Elim, obam batdı, gəl*
*Çərpələngim yatdı, gəl...*

Yel çərşənbəsində icra olunan mərasimlərdən biri də "Küfdibi"dir". Kufdibi - özünü küləyə vermək, yellənmək deməkdir. Burada gənclər daha fəal iştirak edər, meyvə ağacından yelləncək asıb onu gül-çiçəklə bəzəyərdilər. İştirakçılar bir-bir, iki-iki yelləncəkdə yellənər, deyişmə və bayatılar, nəğmələr söyləyərdilər:

*Örpəyi çəhrayı qız,*
*Adaxlının adın de,*
*Saçları xurmayı qız,*
*Adaxlının adın de,*
*Gözləri sürməli qız,*
*Adaxlının adın de...*

Rəvayətə görə, Yel çərşənbəsində Yer üzünə təşrif gətirmiş Xızır qardaşı Nəbiyə bir qırmızı alma verib tapşırır ki, almanı yeyib uzunömürlü olsun, onun tumlarını əsən küləklərə paylayıb Yer üzünə səpələsin. Alma ağacının dünyanın hər yerinə yayılması bununla izah edilir.

İnama görə, cənnət meyvəsi sayılan alma dünyaya nə qədər çox yayılarsa, insanlar arasında xoş münasibətlər bir o qədər geniş vüsət alar. Folklorumuzda, nağıl və dastanlarda övlad həsrəti çəkən yaşlı cütlüklər müqəddəs şəxslərin, o cümlədən Xızırın və ya dərvişin verdiyi qırmızı almanı yeməklə arzularına çatır. Çərşənbə axşamları cavanlar qırmızı alma yeyəndən sonra onun 10 ədəd toxumunu yastıqlarının altına qoyurlar ki, gələcək qismətlərini yuxuda görə bilsinlər.

Külək və ya Yel çərşənbəsi ilə bağlı bəzi örnəklərə diqqət yetirək:

*Yelli babam, Yel babam*
*Telli babam, tel baba...*

*Elim, günüm batdı gəl,*
*Çərpələngim yatdı gəl,*
*Təknədə qaldı aşım,*
*Yatdı dəyirman daşım...*

*Dağ başında yel əsər,*
*Düşər üzə, tel əsər*
*Doğru söz tez kar eylər,*
*Qılıncdan iti kəsər.*

* * *

*Qara yel əsdi, keçdi,*
*Səbrimi kəsdi, keçdi,*
*Vətəndən gələn durna*
*Yaman tələsdi, keçdi.*

* Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürməzlər. Sovrulmamış buğda götürənin oğlu ölər.

* Xırman sovrulandan sonra ilk buğda götürənin oğlu olar.

* Yeli əsdirəni söyməzlər

* Yel dağına ziyarət edərlər. Adamlar ürəklərində hər hansı bir dilək tutub nəzir-niyaz gətirərlər, qurban kəsərlər. Yel baba kimin nəzirini, qurbanını qəbul etsə, o adam xeyir tapar, arzusuna çatar.

*Yel havalanıb keçər.*
*Yel aparan yelinki,*
*Yerdə qalan mənimki.*
*Yel əsməyincə, yarpaq titrəməz,*
*Yel vurur, çalır,*
*Yengələr oynayır.*
*Yel əsəndə yellənər,*
*Yel görəndə yollanar*
*Yelnən gələn, selnən gedər.*
*Selnən gələn, gilnən gedər*
*Yel əsib qoz tökülüb.*
*Yelə dedilər: "Əsmə!"*
*Dedi- "Kələyimi kəsmə".*
*Yel apardığını qaytarmaz.*
*Yellə dost olan yellənə-yellənə qalar.*
*Külək kimi hərdən bir yana əsmə.*

Türk xalqlarının mifik təfəkküründə külək mistik məna daşıyırdı. "Rüzgar" və ya "Yel" kimi şaman miflərində külək ruhların hərəkətini idarə edən və insanlara qeyb aləmindən xəbər gətirən bir qüvvə kimi qəbul olunurdu. Xalq inanclarında külək-yel təbiətin sakral ruhu kimi başa düşülür. "Yel baba" obrazı küləyi idarə edən, insanların həyatına təsir göstərən görünməz və güclü bir qüvvə kimi təsəvvür olunur. Bu obraz folklor mətnlərində həm qoruyucu, həm də qəhrəmanların ağlını və cəsarətini sınağa çəkən bir obraz kimi təbiət qüvvəsini səciyyələndirir.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru***

# Ədəbiyyatımızda Novruzun tərənnümü



**Novruz çox əski çağlardan Şərq dünyasında həm yazın gəlişi, yeni ilin başlanması, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı, həm də xalqın mənəvi-əxlaqi dəyərlərini, humanizm və həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən ayin və etiqadlar sistemidir. Başqa sözlə, bu bayram milli ruhumuzun tərcümanıdır.**

Xalqımızın keçib gəldiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənəmiz bu bayramın ruhunda yaşayır. Onun fəlsəfəsi həyatın dörd ünsür üzərində bərqərar olması ilə bağlı qədim inanca əsaslanır. Əcdadlarımız yaradılışın əsasında od, su, hava və torpağın durduğuna əzəldən inanıb, onları müqəddəs sayıblar, bu müqəddəsiliyə tapınıblar. Belə bir inanc zaman keçdikcə daha da cilalanıb, özünün kodlarını formalaşdırıb, sistemli bir təsəvvürə çevrilib.

Xalq mövcudluğunu o zaman qoruya bilir ki, özünü qədim əcdadlarla mənəvi əlaqədə hiss edə bilsin, o ruhu daim duysun, minilliklərin soraqlarını, adət-ənənəsini, bir sözlə, özünəməxsusluğunu mühafizə edib saxlamağı bacarsın. Belədə həmin millət tarixin aşırımlarında, təlatümlü dolanbaclarında sarsılmır, özünü itirmir.

Novruzda qədimliyimizin bütün çalarları əksini tapıb. Xalqımız bir çox özünəməxsusluğu bu bayramda axtarıb. Tarixi keçmişimizlə bağlı xeyli suallara bu bayramın adət-ənənələrində, dəyişməz atributlarında cavablar görüb. Ona görə də Azərbaycan xalqı Novruz bayramının hətta qadağan olunduğu vaxtlarda belə, onu keçirib, bu qədim el bayramına sevgisini qoruyaraq daim nümayiş etdirib. O üzdən xalqımızın əsrlər boyu ağır keşməkeşələrə, istilalara, sərt yaşayış şərtlərinə rəğmən, yenə də öz milli kimliyini mühafizə edə bilməsinə görə bu cür dəyərlərimizə borcluyuq. Çünki məhz Novruz kimi mənəvi dəyərlərimizin gücü ilə xalqın milli yaddaşı itməyib, təsirlər qarşısında aşınması mümkün olmayıb. Əksinə, daha da güclənib, möhkəmlənib, nəsillərdən-nəsillərə ötürülüb. Elmi cəhətdən öyrənilib, bu bayrama aid folklor nümunələri sənədləşdirilib, Novruzun bir çox simvolu mədəniyyət və incəsənətimizin qiymətli incilərinə çevrilib. Bizi bütün dünyada tanıdan atributlar sırasında qərarlaşdırıb.

Novruz yeni gün, yeni həyat deməkdir. Bu bayram yaranandan bəri ədəbiyyat onu addım-addım vəsf edib. Həm poeziyada, həm də nəsrdə Novruzla bağlı minlərlə süjet, əhvalat və mərasimlər yer alıb. Eləsi var ki, yazıçılar ora heç nə artırmayıb, sırf həyatın özündən qaynaqlanıb. Eləsi də var ki, orada bir neçə detaldan istifadə olunub. Hətta sovet dövrü ədəbiyyatında Novruz bayramı ilə bağlı xeyli əsərlər yazılıb. Səməd Vurğunun "Komsovol" poeması, İsmayıl Şıxlının "Dəli Kür" romanı, Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim" və s. əsərlərdə xalqın Novruzu necə keçirməsinə aid epizodlar yer alıb. Ötən əsrin 60-cı illərində Şıxəli Qurbanov, Nəbi Xəzri, Cabir Novruz, Yusif Səmədoğlu və digər şair və yazıçıların yaradıcılığında da Novruz geniş şəkildə öz əksini tapıb. Novruz Azərbaycan ədəbiyyatında həm də milli kimliyin və xalqın qəlbindəki bahar sevincinin poetik ifadəsi hesab olunur.

Yüksək xəlqilik, şeiriyyət, həyat həqiqətləri ilə şairin romantik arzularının üzvi şəkildə vəhdəti Səməd Vurğunun poetik üslübünun başlıca xüsusiyyətləridir. Onun ədəbi irsi müasir Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun yaradıcılığnda bahar, Novruz bayramı mühüm yer tutur. Şair "Novruz bayramı"nda şeirində yazın gəlişini vəsf edərək yazır:

*Axır çərşənbədir... İl tamam olur...*
*Bu kənd içində danışır hamı, -*
*At üstündə gəlmişdir Novruz bayramı -*
*Qulunlu at üstə... Bu bir muraddır.*
*Qocalar deyir ki, bolluq keçəcək,*
*Torpaq su yerinə şərbət içəcək.*
*Odur ki, hamının ürəyi şaddır,*
*Hamının arzusu, ümidi gülür*
*Üzündən, gözündən nurlar tökülür.*

Aktyor, müğənni, rejissor, pedaqoq, teatr xadimi Hüseynqulu Sarabski ədəbi yaradıcılıq sahəsində də fəaliyyət göstərmişdir. Onun "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o çıxar qaşığına" dram əsərləri tamaşaya qoyulmuşdur. H.Sarabskinin etnoqrafik materiallar əsasında yazdığı "Köhnə Bakı" əsərində Bakının həyat və məişət tarixinin bəzi məsələləri öz əksini tapmışdır. O, bu kitabında Novruz bayramının XIX əsrin sonu, XX əsrin əvvəllərində necə keçirildiyini qələmə almışdır.

Yazıçı, şair, ictimai xadim Məmməd Səid Ordubadi "Bahar haqqında" məqaləsində Novruz bayramından, onun tarixi köklərindən, bayramla bağlı adət-ənənələrindən bəhs etmişdir.

Şair Nəbi Xəzri "Yaz günü, Novruz günü" əsərində Novruz bayramının başlanmasını vəsf etmişdir:

*Bu gün, yaşıd olur gündüzlə gecə,*
*Dağa duman çöküb, çən yeridikcə,*
*Dərin dərələrdə sel daşan gündür,*
*Uca zirvələrdə*
*Qar əridikcə*
*Damlalar dəryaya qarışan gündür,*
*Bu gün yerin, göyün öz sevinci var.*
*Gözünü açdıqca günəşli bahar,*
*Sözlər şəfəqlərdən qamaşan gündür.*
*Uzaq üfüqdəki soyuq ulduzlar*
*Bu gün isti-isti sayrışan gündür.*
*Gəlin salamlayaq doğma baharı*
*Ana yurdumuzun*
*Ana qolları*
*Baharın boynuna sarışan gündür.*
*Odlar torpağının gur tonqalları*
*Yerin ürəyi tək alışan gündür.*

Milli oyanış xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, əski adət və inamların, xalqın yaddaşına qayıdış kimi duyğular Əhməd Cavad şeirinin ruhuna hopmuşdur. O, Novruz bayramı ilə bağlı silsilə etnoqrafik şeirlər yazmışdır:

*Novruz çıxır taxtına,*
*Güllər düşüb baxtına.*
*Kosa gəlir qabağa,*
*Nəzər salır tabağa.*
*Çörəyi yoxdur Kosanın,*
*Xörəyi yoxdur Kosanın.*
*Ay Kosa, Kosa gəlsənə,*
*Torbanı doldursana!*
*Kosa döyür gözünü,*
*İtiribdir özünü.*
*Ocaq üstə sac qalıb,*
*Bütün qışı ac qalıb.*
*Torbasını uzadır,*
*Hamı bilir qaydadır.*
*Kosaya pay verirlər,*
*Kosaya hay verirlər.*

Novruz təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlər, xoş arzular oyadır, əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadır, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllərə əsaslanır. Ruhun oyanışı, yeni bir həyatın başlanğıcı olan bu gözəl el bayramı hər dəfə gəlişi ilə ömrümüzü bəzəyir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Yaz allergiyası

## Bundan qorunmaq üçün bəzi qaydalara riayət etmək lazımdır

**Bahar insanların ən çox sevdiyi fəsillərdən biridir. Qışın soyuq və tutqun günlərindən sonra təbiətin oyanması, ağacların çiçəklənməsi, havanın isinməsi insanlarda ruh yüksəkliyi yaradır. Günəşli hava, yaşıllığın artması və təbiətin yenidən canlanması bir çoxları üçün enerji və sevinc mənbəyidir. Lakin bu gözəlliklərlə yanaşı, yaz mövsümü bəzi insanlar üçün sağlamlıq problemlərinin də başlanğıcı deməkdir. Çünki məhz bu dövrdə mövsümi allergiyalar kəskin şəkildə özünü göstərir.**

Statistikaya görə, dünyada allergik xəstəliklərdən əziyyət çəkən insanların sayı ildən-ilə artır. Bu səbəbdən alimlər XXI əsri bəzən "allergiya əsri" adlandırırlar. Allergiyanın yayılması təkcə tibbi problem deyil, həm də cəmiyyətin ümumi həyat keyfiyyətinə təsir edən mühüm amillərdən biridir. Bu xəstəlik yalnız fiziki narahatlıq yaratmaqla kifayətlənmir, eyni zamanda insanların gündəlik fəaliyyətinə, iş qabiliyyətinə və psixoloji vəziyyətinə də təsir göstərir.



Allergiya, əslində, immun sisteminin müəyyən maddələrə qarşı həddindən artıq reaksiyasıdır. Normal şəraitdə zərərsiz hesab edilən bəzi maddələr allergiyası olan insanlarda təhlükə kimi qəbul edilir. Nəticədə immun sistemi həmin maddələrlə mübarizə aparmaq üçün müxtəlif kimyəvi reaksiyalar başladır. Bu reaksiyalar isə burun axması, asqırma, gözlərdə qaşınma, dəri səpkiləri və digər xoşagəlməz əlamətlərlə müşahidə olunur.

Yaz aylarında allergik reaksiyaların artmasının əsas səbəbi bitkilərin tozlanma dövrünün başlamasıdır. Bitkilər çoxalma prosesinin bir hissəsi kimi havaya çoxlu sayda mikroskopik tozcuq buraxır. Bu tozcuqlar külək vasitəsilə geniş ərazilərə yayılır və insanın tənəffüs yollarına daxil ola bilir. Allergiyaya meyilli insanlarda isə bu tozcuqlar orqanizmdə qıcıqlandırıcı təsir göstərir və müxtəlif simptomların yaranmasına səbəb olur. Adətən, mart ayından başlayaraq iyun ayına qədər davam edən bu dövrdə polen adlanan tozcuqlar havada daha çox olur. Bu vəziyyət tibdə "pollinoz" kimi tanınır. Pollinoz zamanı insanlar tez-tez asqırır, burunları axır, gözləri qızarır və qaşınır. Bəzi hallarda isə öskürək, boğazda qıcıqlanma və nəfəsalma çətinliyi də müşahidə olunur. Daha ağır hallarda allergiya bronxial asma tutmalarına səbəb olur.

Allergiyanın yaratdığı simptomlar çox vaxt adi soyuqdəymə ilə qarışdırılır. Lakin bu iki vəziyyətin səbəbi və gedişi fərqlidir. Soyuqdəymə virus infeksiyası nəticəsində yaranır və adətən bir həftə ərzində sağalır. Allergiya isə immun sisteminin reaksiyası olduğu üçün allergenlə təmas davam etdikcə simptomlar da davam edir. Xəstəliyin fərqləndirici əlamətlərindən biri qaşınmadır. Allergiya zamanı burunda, gözlərdə və bəzən boğazda qaşınma hissi olur. Digər tərəfdən, allergiyada qızdırma demək olar ki, müşahidə edilmir. Virus infeksiyalarında isə qızdırma və ümumi zəiflik daha çox rast gəlinir.

Mövsümi allergiyalar insanın həyat keyfiyyətinə ciddi təsir göstərə bilir. Davamlı asqırma, burun tutulması və gözlərdə narahatlıq gündəlik fəaliyyətləri çətinləşdirir. Bundan əlavə, allergiya yuxu pozğunluqları, diqqətin zəifləməsi və xroniki yorğunluq kimi problemlərə də səbəb ola bilər. Bu vəziyyət xüsusilə məktəblilər və aktiv işləyən insanlar üçün çətinlik yaradır.

Tədqiqatlar göstərir ki, allergiyanın yaranmasında irsi faktorlar mühüm rol oynayır. Əgər valideynlərdən biri allergik xəstədirsə, uşağın da bu problemlə qarşılaşma ehtimalı təxminən 20-25 faiz təşkil edir. Hər iki valideyndə allergiya olduğu halda isə bu risk 50-70 faizə qədər yüksəlir. Bununla yanaşı, ekoloji vəziyyət, hava çirkliliyi və həyat tərzi kimi amillər də allergiyanın yaranmasına təsir göstərir.

Şəhər mühitində yaşayan insanlarda allergik xəstəliklərə daha çox rast gəlinməsi diqqətçəkən məqamlardan biridir. Havanın çirklənməsi, sənaye tullantıları və avtomobil qazları bitki tozcuqları ilə birləşərək daha güclü allergik təsir yaradır. Bundan başqa, qapalı məkanlarda uzun müddət qalmaq, ev tozu gənələri və digər allergenlər də bu problemin yayılmasına səbəb ola bilər.

Allergiyanın ən geniş yayılmış formalarından biri allergik rinitdir. Bu xəstəlik əsasən burun selikli qişasının iltihabı ilə xarakterizə olunur. Xəstələrdə burun tutulması, tez-tez asqırma və burunda qaşınma kimi əlamətlər müşahidə edilir. Bəzi insanlar açıq havada özlərini daha yaxşı hiss etsələr də, bəzilərində əksinə, ev şəraitində simptomlar güclənə bilər.

Maraqlı məqamlardan biri də yağışlı havanın allergiya xəstələrinə müəyyən qədər rahatlıq verməsidir. Çünki yağış havadakı tozcuqların bir hissəsini yerə endirir və onların konsentrasiyasını azaldır. İsti və quru hava şəraiti polenin havada daha çox yayılmasına səbəb olur. Xüsusilə səhər saatlarında tozcuqların miqdarı daha yüksək olur. Bu səbəbdən allergik rinitdən əziyyət çəkən insanlara səhər saatlarında pəncərələri açaraq otaqları havalandırmaq tövsiyə edilmir. Daha uyğun vaxt günün ikinci yarısı hesab olunur. Bundan əlavə, açıq havaya çıxarkən tibbi maska və gün eynəyi istifadə etmək də müəyyən dərəcədə qoruyucu təsir göstərə bilər.

Allergiya tamamilə aradan qaldırıla bilən xəstəlik hesab olunmur. Lakin düzgün müalicə və profilaktik tədbirlər sayəsində simptomları nəzarət altında saxlamaq mümkündür. Həkimlər bildirirlər ki, allergik xəstələr mütləq allerqoloqun nəzarətində olmalıdırlar. Diaqnoz qoyulması üçün xüsusi dəri testləri aparılır və xəstənin hansı maddələrə qarşı həssas olduğu müəyyən edilir. Bu testlərin nəticələrinə əsasən xəstəyə uyğun müalicə proqramı hazırlanır. Müalicə üsullarına dərman preparatları, immunoterapiya və bəzi hallarda xüsusi peyvənd üsulları daxildir. Lakin bu prosedurların çoxu allergiyanın aktiv dövründə deyil, daha sakit mövsümlərdə aparılır. Çünki çiçəklənmə dövründə aparılan testlər bəzən dəqiq nəticə verməyə bilər.

Mövsümi allergiyadan əziyyət çəkən insanlara qidalanma ilə bağlı da müəyyən tövsiyələr verilir. Allergik reaksiyaların qarşısını almaq üçün hipoallergen pəhrizə riayət etmək məsləhət görülür. Bu pəhriz çərçivəsində bəzi qidaların istifadəsi məhdudlaşdırılır.

Xüsusilə sitrus meyvələri, qoz-fındıq, balıq, bal, kakao məhsulları, yumurta və bəzi ədviyyatlar allergiyanı gücləndirə bilər. Eyni zamanda rəngli meyvə və tərəvəzlərin, eləcə də yağlı və şirin qidaların da ehtiyatla qəbul edilməsi tövsiyə olunur. Belə pəhrizə, adətən, çiçəklənmə mövsümündən iki-üç həftə əvvəl başlanması daha məqsədəuyğun hesab edilir.

Bundan başqa, allergiyası olan insanlar gündəlik həyatlarında bəzi sadə qaydalara riayət etməklə simptomları azalda bilərlər. Məsələn, çöldən evə qayıtdıqdan sonra əl-üzün yuyulması, geyimlərin dəyişdirilməsi və mümkün olduqda duş qəbul edilməsi tozcuqların təsirini azalda bilər. Paltarların açıq havada qurudulması da məsləhət görülmür, çünki tozcuqlar parçaların üzərinə yapışa bilər. Siqaret tüstüsü, güclü ətirlər və rütubətli mühit də allergik reaksiyaları artıran amillər sırasındadır. Buna görə allergiyadan əziyyət çəkən şəxslərin bu kimi təsirlərdən uzaq durması tövsiyə edilir.

Həkimlər qeyd edirlər ki, allergiyanın əlamətləri iki həftədən bir neçə həftəyə qədər davam edə bilər. Əgər vaxtında tədbir görülməzsə, xəstəlik xroniki formaya keçə və daha ciddi problemlərə səbəb ola bilər. Bu səbəbdən uzun müddət davam edən burun axması, asqırma və gözlərdə qaşınma kimi əlamətlər olduqda mütəxəssisə müraciət etmək vacibdir.

Baharın gətirdiyi gözəlliklərdən tam zövq almaq üçün sağlamlığa diqqət yetirmək vacibdir. Mövsümi allergiyalara qarşı profilaktik tədbirlər görmək, həkim tövsiyələrinə əməl etmək və allergenlərdən mümkün qədər uzaq durmaq bu problemin təsirini xeyli azalda bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**

**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**

# Avropada insan alveri qurbanlarının sayı artır

## 20 il ərzində 39 mindən çox hadisə qeydə alınıb

**Müharibə və əhalinin köçürülməsi, xüsusən Rusiyanın Ukraynaya müdaxiləsi nəticəsində qurbanlar məcburi əmək və cinsi istismarla üzləşdikcə böhran daha da ağırlaşır. Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) son məlumatlarına görə, 20 il ərzində Avropada 39 mindən çox insan alveri hadisəsi qeydə alınıb.**



2002-2022-ci illər arasında bu növ qaçaqmalçılığın qurbanlarının 85 faizi 30-38 yaş arası yetkinlər, 15 faizi isə uşaqlar olub. Qlobal miqyasda insan alveri qurbanlarının sayı 125 min yetkin və 30 min uşağa çatıb. BMqT ekspertləri hesab edirlər ki, əsl rəqəm hesabatların az verilməsi və aşkarlamadakı boşluqlar səbəbindən daha yüksəkdir.

Avropada bu müasir köləliyin qurbanları əsasən 9 ölkənin vətəndaşlarıdır: Ukraynadan 19 mindən çox, Moldovadan 10.464 və Belarusdan 4.286 nəfər. "Müharibə həmişə insanlığa qarşı cinayətlərin yayılması üçün münbit zəmin yaradır", - deyə insan alverinə qarşı mübarizə və uşaqların müdafiəsi üzrə ekspert Yuliya Saçenko Avropa Şurasının iclasından sonra LinkedIn-də qeyd edir. "Məlumatlar göstərir ki, son 4 ildə Ukraynaya qonşu ölkələrdə ən azı 13 nəfər insan alverinin qurbanı olub".

Qadınlar bütün qurbanların beşdəüçünü təşkil edir ki, bu da kişilərin nisbətindən təxminən iki dəfə çoxdur. Bundan əlavə, insan alverinin ən çox qurbanları Ukraynada (8413) və Moldovada (5866) qeydə alınıb. Qurbanların demək olar ki, yarısı bir il və ya daha az, 35 faizi isə bir ildən iki ilə qədər müddətə köləliyə məruz qalıb. Onların yarısı tikintidə (52 faiz) və kənd təsərrüfatında (29 faiz) məcburi əməyə məruz qalıb. 48 faizi cinsi istismara məcbur edilib. Qurbanlar həmçinin pornoqrafiya istehsal etməyə məcbur ediliblər.

Qaçaqmalçılar qurbanlar üzərində əsas nəzarət üsulları kimi psixoloji, fiziki və cinsi zorakılıqdan istifadə ediblər. Qurbanın pula çıxışını və hərəkət azadlığını məhdudlaşdırmaq, habelə zəruri tibbi yardımdan imtina etmək də nəzarətin qorunması üçün istifadə edilən ümumi bir taktikadır.

BMT-nin məlumatına görə, cinayətkarların ən böyük nisbəti əmək brokerləri, podratçılar, rəsmi işəgötürənlər və qaçaqmalçılardır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# İdman

## "Qarabağ"ın futbolçusu ilk dəfə Kolumbiya millisinə çağırılıb




**"Qarabağ"ın futbolçusu Kamilo Duran Kolumbiya millisinə çağırılıb.**

Ağdam klubundan AZƏRTAC-a verilən məlumata görə, 24 yaşlı hücumameyilli yarımmüdafiəçi martda keçiriləcək yoldaşlıq görüşləri üçün yığmaya dəvət olunub.

İndiyədək milli komandaya dəvət almayan vinger "Qarabağ"ın heyətində bumövsümkü çıxışından sonra məşqçilər heyətinin diqqətini cəlb edib. Onun yer aldığı komanda martın 26-da Xorvatiya, üç gün sonra Fransa ilə qarşılaşacaq. Hər iki görüş ABŞ-nin Orlando şəhərində baş tutacaq.

Qeyd edək ki, Kamilo Duran 2025-ci ilin avqustunda "Qarabağ"a keçib.

## Azərbaycanın U-20 futbol millisinə portuqaliyalı baş məşqçi təyin edilib




**Azərbaycanın 20 yaşadək futbolçulardan ibarət milli komandasına baş məşqçi təyin olunub.**

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadla xəbər verir ki, bu vəzifə Rui Jorgeyə tapşırılıb.

Portuqaliyalı mütəxəssisin yığmanın baş məşqçisi postuna namizədliyi AFFA İcraiyyə Komitəsinin fevralın 19-da keçirilmiş iclasında müzakirəyə çıxarılaraq təsdiq edilib. Hüquqi prosedurlar tamamlandıqdan sonra təyinat rəsmiləşib.

Azərbaycanın U-20 millisi 2027-ci ildə Azərbaycan və Özbəkistanda keçiriləcək FIFA U-20 dünya çempionatında ölkəmizi təmsil edəcək.

Yeni təyin olunmuş baş məşqçinin mətbuat konfransı AFFA rəhbərliyinin iştirakı ilə yaxın günlərdə təşkil olunacaq.

Qeyd edək ki, Rui Jorge məşqçiliyə futbolçu kimi son klubu olan "Belenenseş"də başlayıb. Portuqaliyalı mütəxəssis 2006-2010-cu illərdə həmin klubun U-19 komandasına rəhbərlik edib, 2008/2009-cu illər mövsümündə qısa müddət əsas komandanın baş məşqçisi olub.

2010-cu ildə Portuqaliyanın U-21 yığmasının sükanı arxasına gətirilən Jorge 15 il bu komandanı çalışdırıb. Onun rəhbərliyi altında portuqaliyalılar 5 dəfə Avropa çempionatının final mərhələsində iştirak edib, bunun ikisində (2015, 2021) gümüş mükafat qazanıb. Həmin illər ərzində Rui Jorge Portuqaliyanın Olimpiya millisinə də rəhbərlik edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Tədbirlərin təşkili və protokol şöbəsinin sektor müdiri İlqar Nuriyə atası

**HİKMƏT NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ramiz Süleymanov, Hafiz Nəsibov, Vəli Abdullayev, İlham Cəfərov və İslam Əliyev Naxçıvan MR Ali Məhkəməsinin hakimi

**VERA KUİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**ARİF QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1975-ci, 1977-ci, 1979-cu və 1980-ci il buraxılış 10A sinfinin məzunları sinif yoldaşları Mayis, Aşır, Vaqif və Vidadi Hüseynov qardaşlarına əzizləri

**TƏRANƏ FƏRƏC QIZI HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri və kollektivi məhkəmənin hakimi

**VERA KUİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Hakimlər İttifaqının üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi

**VERA GENNADİYEVNA KUİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3369
Sifariş 344

Qiyməti 60 qəpik